# 18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 224 (8817) BAZAR, 17 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Güclü dövlət - müstəqil siyasət

Dövlət müstəqilliyi uğrunda mübarizə bütün dövrlərdə Azərbaycan xalqının ən ali məqsədi və şərəf işi olub. Bu, öz varlığını, vətənini, milli kimliyini göz bəbəyi kimi qorumağın tarixi timsalıdır.

Müstəqil bir dövlətə sahiblik eyni bayraq altında birləşən, Vətənin azadlığı, bütövlüyü uğrunda vuruşub qurbanlar verən bütün insanlar üçün ən böyük dəyərdir. Xalq bu dəyər sayəsində öz haqlarını təmin edir, milli mövcudluğunu qoruyur, yaradıcılıq əzmi, nəsillərdən-nəsillərə ötürülən dövlətçilik irsi ilə tarixdə yeni səhifələr yaradır. Dövlət müstəqilliyi xalqların istiqlal mübarizəsinin, əsrlər boyu formalaşdırdığı mənəvi potensialın, maarifçilik ənənələrinin, milli-mənəvi dəyərlərə bağlılığının, eyni zamanda milli vəhdətinin bariz təcəssümüdür.

Ötən 30 ildə müstəqilliyimiz möhtəşəm sınaqlardan çıxdı və Ümummilli Lider Heydər Əliyevin sözləri tariximizə qızıl hərflərlə yazıldı: “Müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir!” Bu sözlərin əbədiyyətinə təminat verən odur ki, hər bir ifadədə əzmkarlıq, milli ruh, vətənin müstəqilliyinə və xalqın qüdrətinə inam əks olunub. Xalqımız bir millət kimi mövcudluğunu təsdiq edə bilib.

### Ən böyük tarixi nailiyyət

Müstəqil Azərbaycan dövləti xalqımızın tarixdəki ən böyük nailiyyətidir. Düz otuz ildir ki, bu xoşbəxtlik hər birimizin həyatındadır. Otuz ildir ki, Azərbaycan ailələrində körpələr müstəqil dövlətin vətəndaşları kimi doğulub böyüyür. Dünyanın harasında oluruqsa-olaq gözlərimiz üçrəngli bayrağımızı axtarır. Görəndə bütün ruhumuz sevinir. Dünya bizi öz adımızla tanıyır. Dövlətimiz öz taleyinin sahibi kimi yeni inkişaf mərhələlərinə qədəm qoyur.

Müstəqillik dövründə dünyaya gəlmiş gənc vətəndaşlarımıza bu dəyərin xalqımızın, ölkəmizin həyatında nə qədər böyük dəyişikliklərə səbəb olduğunu tam təsvir etmək bəlkə də indi bir qədər çətindir. Çünki onlar göz açandan Azərbaycanı müstəqil, heç kimdən asılı olmayan, tərəqqi yolunda irəliləyən, abad, nizamlı, güclü bir dövlət kimi görüblər. Müstəqil olmadığımız vaxtlar haqqında ancaq tarix kitablarından oxuyublar. Amma yaşlı nəslin hər bir nümayəndəsi bu iki dövrün fərqini çox aydın görür.

Azərbaycanın son 30 il ərzində əldə etdiyi bütün tarixi uğurlar məhz müstəqilliklə bağlıdır və bu dövrdən başlanır. Sovetlər İttifaqı hər nə qədər özünü bu təsisatda bir araya gəlmiş milli respublikaların bərabərhüquqlu birliyi kimi təqdim etməyə çalışsa da, aparılan siyasət əslində imperiya maraqlarına xidmət edir, sovet totalitar rejiminə uyğun hesablanırdı. Hər hansı bir işin həyata keçirilməsindən ötrü mərkəzdən saysız-hesabsız icazə prosedurları tələb olunurdu. Hətta sənədləşmə işləri, rəsmi protokollar, əmr və qərarlar, fərmanlar rus dilində aparılır, ana dilinin əhatə dairəsi getdikcə kiçilirdi. Belə bir mühitdə milli inkişafdan necə danışmaq olardı?..

“Tarix təkrar olunur” deyimində böyük həqiqət var. 1918-ci ildə Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Milli Şura İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi. Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı.

Ardı 5-ci səh.

# “Dəmir yumruğ”un Füzuli salnaməsi

Bir il öncə işğaldan azad olunan “Qarabağın Şərq qapısı” bu gün sürətlə dirçəlir

◆ Zəfərin izi ilə

*44 günlük Vətən müharibəsinin 22-ci günü...*

*Qanlı döyüşlərin aparıldığı ötən günlərdə 30 ilə yaxın erməni işğalı altında olan Cəbrayıl şəhəri, Hadrut qəsəbəsi, Xocavənd, Cəbrayıl, Füzuli rayonunun bir çox kəndləri artıq azad edilib...*

*Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması Azərbaycan Ordusunun bu şəhərin işğalçılardan azad edilməsi imkanını artırıb...*

Cənub cəbhəsi boyunca daim irəliləyən Azərbaycan Ordusunun qanlı döyüşlər hesabına əldə etdiyi qələbələrin nəticəsidir ki, çətin olmasına baxmayaraq, artıq hər kəs Füzulinin də erməni işğalından azad olunacağına inanır və Ali Baş Komandanından bu şad xəbəri gözləyir...

Nəhayət, oktyabrın 17-də səhər saatlarında Azərbaycan xalqı Prezident, Ali Baş Komandan İlham Əliyevdən “Bu gün Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğalçılardan azad edilib” müjdəsini alır.



Füzuli sakinlərinin 27 illik yurd həsrətinə müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində son qoyulur.

Və bununla da tarix yenilənir...

Həmin günün nəinki füzulililərin xatirəsində, Azərbaycan dövlətinin tarixində əbədi qalacağını deyən dövlət başçısı 2020-ci il oktyabrın 17-də etdiyi müraciətində xalqımızın ən parlaq səhifəsinin yazıldığını bəyan edib: “Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib”.

Ardı 6-cı səh.

## Müstəqil Azərbaycanda ali təhsilin inkişafı və perspektivləri

Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümündə ölkənin müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlərin təhlil edilməsi və gələcəyə yönəlmiş baxışların formalaşdırılması böyük önəm daşıyır. Məlum olduğu kimi, hər hansı bir xalqın və dövlətin formalaşması və inkişafı, onun gələcəyinin güclü təməllər üzərində qurulması təhsil sistemində əldə edilmiş nailiyyətlərlə əhəmiyyətli dərəcədə bağlıdır.

Təhsilin inkişafı nəticəsində formalaşmış insan potensialı, başqa sözlə, insan kapitalı ölkələrin iqtisadi və sosial rifahının artırılmasında çox əhəmiyyətli yer tutur. İnsanların yetərli bilik və bacarıqlar əldə edərək cəmiyyətdə özünə yer tapmasında təhsil, xüsusilə də ali təhsil ən mühüm vasitələrdən biridir. Ali təhsil formalaşmış insan kapitalını cəmiyyətə təqdim etməklə, sosial rifahı artırmaqla yanaşı, insanların əldə etdiyi gəlir səviyyəsini yüksəldərək fərdi rifahı da təmin edir. Məhz ali təhsilin cəmiyyətə və fərdlərə qazandırdığı bu faydalar səbəbindəndir ki, dünyada ona tələb sürətlə artmaqda davam edir.

Tədqiqatlar göstərir ki, ali təhsilin cəmiyyətdə önə çıxan əsas töhfəsi bu təhsilin daha yaxşı məşğulluq imkanları təmin etməsidir. Belə ki, OECD hesabatlarına görə ABŞ və Avropa İttifaqında universitet məzunlarının orta gəlir səviyyəsi universitet məzunu olmayanlarla müqayisədə 60-75 faiz daha yüksəkdir. Bu nisbət Braziliya, Çili, Türkiyə kimi orta gəlir qrupundakı ölkələrdə təxminən 150 faizdir.

Tədqiqatlar göstərir ki, fərdlərin ali təhsil dövründə sosial həyata uğurla adaptasiya olmağa və cəmiyyətə töhfə verməyə imkan verən bilik və bacarıqlar əldə etməsi cəmiyyət üçün prinsipial əhəmiyyət daşıyır. Fərdi və sosial bacarıqlarını inkişaf etdirmiş, düşünən, tədqiq edən, ömür boyu öyrənən, özünü yeniləyən, təşəbbüskar, əzmli, ünsiyyət qura bilən, komanda daxilində işləyə bilən və liderlik qabiliyyətlərinə sahib olan fərdlərin iş və sosial həyatlarında daha uğurlu olduğu ortaya çıxır.

Ardı 3-cü səh.

## Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkə əhalisinin rifah halının yaxşılaşdırılması aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır. Bu məqsədlə 2019-cu ildə iki sosial islahat zərfi qəbul olunaraq icra edilmiş, müavinət və təqaüdlərin məbləğinin orta hesabla 92%, əmək pensiyasının minimum məbləğinin 72%, minimum əməkhaqqının 92%, dövlət büdcəsindən maliyyələşdirilən qurumlarda işləyənlərin əməkhaqlarının orta hesabla 50% artırılması təmin edilmişdir. Görülmüş tədbirlər nəticəsində 2018-ci ilin əvvəli ilə müqayisədə orta aylıq nominal əməkhaqqının məbləğində 39%, əmək pensiyalarının orta məbləğində 60%, sosial müavinətlərin orta məbləğində 2 dəfə, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin orta məbləğində isə 2,2 dəfə artım əldə olunmuşdur.

2021-ci ildə ölkəmiz COVID-19 pandemiyasının yaratdığı sarsıntıları geridə qoyaraq, inamlı şəkildə iqtisadi bərpa yoluna qayıtmışdır. Bu, dünya miqyasında pandemiyaya qarşı peyvəndlərin ərsəyə gətirilməsi, ölkəmizdə isə insanlarımızın bu xəstəlikdən qorunması istiqamətində dövlət tərəfindən əhatəli və effektiv sosial-iqtisadi tədbirlərin, xüsusilə genişmiqyaslı peyvəndləmə kampaniyasının keçirilməsi, həmçinin 2020-ci ildə əhalinin sosial baxımdan həssas qruplarına maliyyə və sosial dəstək göstərilməsi, eləcə də pandemiyadan zərər çəkmiş iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlara, qurumlara vergi və bank-kredit güzəştlərinin verilməsi sayəsində mümkün olmuşdur. Bununla yanaşı, qeyd olunmalıdır ki, dünya iqtisadiyyatında bərpa meyillərinin güclənməsi müşahidə olunmaqdadır. Lakin dünya miqyasında iqtisadi fəallığın bərpası və məcmu tələbin artması templərinin vaxtilə dayandırılmış istehsal, nəqliyyat-logistika və təchizat güclərinin iqtisadi dövriyyəyə qaytarılması sürətini xeyli üstələməsi beynəlxalq bazarlarda bir çox əmtəələrin qiymətlərinin əhəmiyyətli dərəcədə qalxmasını şərtləndirərək yeni çağırışlar yaratmışdır.

Bu vəziyyət ölkəmizə idxal olunan əmtəələrin, o cümlədən bir sıra ərzaq məhsullarının qiymətlərinin artımına səbəb olur və nəticə etibarilə sosial baxımdan ən həssas əhali qruplarının rifah halına mənfi təsir göstərir.

Beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarını yumşaltmaq və əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılmasının təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2021-ci il*

## Müstəqilliyimizi möhkəmləndirən əsas şərt - xalq-iqtidar birliyi

Bu birlik Qarabağ Zəfərinin də təməlidir

Azərbaycan Prezidenti müqəddəs qələbəmizin ildönümü ərəfəsində işğaldan azad edilmiş ərazilərə gəlir, hər bir iri yaşayış məntəqəsinin düşmən tapdağından azad edildiyi günü yerli ictimaiyyətin nümayəndələri ilə birlikdə qeyd edir.

Dövlət başçısı bu səfərlərdə Ali Baş Komandan kimi qələbəmizi təmin edən başlıca amillərdən danışmaqla yanaşı, bir il ərzində görülən böyük quruculuq işlərindən söhbət açır və yaxın illər ərzində işğaldan azad edilən ərazilərin və bütün ölkənin kökündən dəyişəcəyini bildirir. Qələbəni təmin edən amillərdən isə müxtəlif siyasi platformalarda bizdən daha çox beynəlxalq hərbi ekspertlər söz açırlar. Bildirirlər ki, müstəqillik illərində iqtisadi islahatlarla bərabər, Azərbaycanın müdafiə qüdrətinin gücləndirilməsi, ordunun dünyanın müasir silahlı qüvvələr səviyyəsində qurulması daim diqqət mərkəzində olmuşdur.

Prezident İlham Əliyev hakimiyyətdə olduğu 18 il ərzində böyük Qələbəni təmin edən bütün mühüm addımları atmışdır.

Ardı 5-ci səh.

## Prezident İlham Əliyevin sosial rifahın qorunmasına dair sərəncamından irəli gələn tapşırıqların icrasına başlanılıb

2021-ci il oktyabrın 16-da Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncam əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların sosial rifahının qorunmasını təmin edir.

Sərəncamda Nazirlər Kabinetinə əməkhaqların, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi haqda tapşırıq verilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, hökumət həmin təkliflərin hazırlanmasına artıq başlayıb.

## Azərbaycan Respublikasının mədəniyyət xadimlərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ələsgərov Arif Məmməd Hüseyn oğlu
İsgəndərov Zeynalabdin Əli oğlu
Qurbanov Eldar Hacı Baba oğlu
Məmmədov Tahir Hidayət oğlu
Rzayev Asif Hüseyn oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Emil İnqlab oğlu
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Samir İmran oğlu
Babayeva İnarə Əhməd qızı
Bağırzadə Bəhram Arif oğlu
Dadaşov Faiq Nadir oğlu
Əliyev Ələkbər Hüseynbala oğlu
Əliyev Kənan Sabir oğlu
Əlizamanlı Şəmistan Hüseyn oğlu
Fətəliyev Zakir Məhərrəm oğlu
Hacıyev Faiq Əjdər oğlu
Heydərova Ülviyyə Sədaqət qızı
Həsənzadə Nigar Ağa qızı
Hüseynov Rəsul İsmayıl oğlu
Hüseynova Nuriyyə İsmayıl qızı
Xəlilov Bəhram Fərhad oğlu
İbrahimova Nigar Rəfael qızı
İmaməliyev Nəriman Məcid oğlu
İmanov Cabir Qorxmaz oğlu
İmanov Tahir Qorxmaz oğlu
İsayev Pünhan Baba oğlu
Kərimov İmran Mustafa oğlu
Korovin Vadim Arnoldoviç
Qasımova Fərqanə Alim qızı
Mansurov Ənvər Arif oğlu
Məhərrəmova Aytən Əhliman qızı
Məmmədov Nəriman Qəhrəman oğlu
Məmmədzadə Azər Arif oğlu
Mirsəlimov Mehti Ramiz oğlu
Rəhmanov Nazim Şamil oğlu
Rzayev İbrahim Şarza oğlu
Rzazadə Xəyal Məhəmməd oğlu
Tağıyev Qəhrəman Fərman oğlu
Topçiyev Emil Namik oğlu
Vaynşteyn Timur Leonidoviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2021-ci il*

## Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq rəssamı"**

Alimirzəyev Əlyar Alimirzə oğlu
Haqverdiyev Hüseyn Həsən oğlu
Rəcəbov Aydın Məmmədağa oğlu

**"Əməkdar artist"**

Abasquliyev Rza Həsənağa oğlu
Axundov Mahir Mikayıl oğlu
Barateliya Naala Raulyevna
Cəlilov Xəqani Nadir oğlu
Əliyev Fərid Aydın oğlu
Hacıyev Fuad Əhəd oğlu
Hüseynəliyev Elton Əşrəf oğlu
Hüseynova İlahə Həsən qızı
Xəlilova Səadət Namizəd qızı
Məmmədov Xəyyam Əhrar oğlu
Mikayılov Anar Şamil oğlu
Mirzə Kazım Həsən oğlu
Mirzəyeva Vəfa Rafiq qızı
Motorina Yuliya Alekseyevna
Mürsəlov Neymət Məzahir oğlu
Nisanov Xəyyam Aleksandroviç
Osmanov Elizbar Əbülfəz oğlu
Rza-Zadə Azər Zaur oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyidova Ceyla Uran qızı
Səfərəliyeva Məlahət Nəcəf qızı

**"Əməkdar rəssam"**

Babayev Fikrət Həsən oğlu
Cabarov Rəşad Emin oğlu
Əhməd Faiq Nazim oğlu
Ələkbərov Rəşad Böyükağa oğlu
Əliyev Vüqar Əli oğlu
Hacızadə Rövşən Kamal oğlu
Həsənov Şamil Məmməd oğlu
Hüseynov Pərviz İldrım oğlu
Mehtiyev Zakir Tahir oğlu
Məmmədov İsa Məmməd oğlu
Rüstəmov Aslan Mahmud oğlu
Şixəliyev Adil Həmdulla oğlu

**"Əməkdar mədəniyyət işçisi"**

Allahverdiyev İbad Məhəmməd oğlu
Eldarova Lalə Ömərovna
Əhmədzadə Natiq Nazim oğlu
Hacı-Mustafazadə Hüseyn Tofiq oğlu
Kazımov Bəhmən İsa oğlu
Qardaşbəyova Nazilə Adəm qızı
Paşayev İlqar Əli Abas oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 oktyabr 2021-ci il*

## Azərbaycanda akkreditasiya olunmuş diplomatik korpusun nümayəndələri Şıxarx qəsəbəsində xatirə ağacları əkiblər






Oktyabrın 16-da Şıxarx qəsəbəsində Azərbaycandakı diplomatik korpusun nümayəndələri xatirə olaraq 150 şam ağacı əkiblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ərazi haqqında məlumat verib.

Bildirib ki, 1978-ci ildə ermənilər buraya gəlmələrinin 150 illiyi ilə bağlı abidə qoymuşdular. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, ermənilərin Qafqaza, xüsusilə Azərbaycana köçürülməsi başlanıb. Münaqişə dövründə, yəni, 1991-1992-ci illərdə bu abidə ermənilərin özləri tərəfindən dağıdılıb. Biz bu ərazini bərpa edib gələcək nəsillərə ötürəcəyik. Qoy onlar bilsinlər ki, ermənilər buraya köçürülüblər, buranın sakinləri olmayıblar. Onlar buraya İranın Marağa kəndindən köçürülüblər və ona uyğun olaraq da buranın adını Marağa qoyublar. Azərbaycan Ordusu qəsəbəni erməni işğalçılarından təmizlədikdən sonra buranın adı dəyişdirilib. Burada Vətən müharibəsi şəhidlərinin hər birinin adına meyvə ağacı əkilib.

Sonra səfər iştirakçıları ağac əkiblər.

## Azərbaycan İnvestisiya Holdinqinin növbəti iclası keçirilib

Oktyabrın 15-də Azərbaycan İnvestisiya Holdinqinin növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində nəqliyyat sektoruna aid 4 portfel şirkətin "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Metropoliteni" QSC və "BakuBus" MMC-nin fəaliyyətinin diaqnostikasının nəticələri və portfel şirkətlərin korporativ idarəetmə standartlarının və idarəetmə orqanlarının üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi məsələləri müzakirə edilib.





Holdinqin İdarə Heyətinin sədri Mətin Eynullayevin və Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib. Həmçinin iclasda diaqnostikanın nəticələri barədə nəqliyyat sektoruna aid portfel şirkətlərin Müşahidə Şurasının sədrinin və şirkət rəhbərlərinin çıxışları ətrafında geniş müzakirələr aparılıb.

## Azərbaycan təcrübəsində bərpa və yenidənqurmanın nadir nümunəsi həyata keçirilir

"Bu, diplomatik korpusun nümayəndələri ilə birlikdə işğaldan azad olunmuş ərazilərimizə yeddinci səfərimizdir. Budəfəki səfərimiz Suqovuşan və Talış istiqamətlərinədir. Bu ərazilərin çox böyük strateji əhəmiyyəti var, xüsusən Suqovuşanın. Belə ki, bura böyük su mənbələrinin birləşdiyi məntəqə idi. Azərbaycanın geniş ərazilərinin su təchizatı həmin məntəqədən həyata keçirilirdi. Bizim səfərlərimizin ilkin mərhələsində bilavasitə Ermənistanın 30 illik işğal dövründə Azərbaycanın işğal olunmuş ərazilərində törətdiyi dağıntıların şahidi olurduq. Səfərlərimiz getdikcə fərqlənməyə başlayır. Biz artıq qısa müddət ərzində Azərbaycan hökumətinin həyata keçirdiyi quruculuq işləri ilə də tanış oluruq".



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatik korpus nümayəndələrinin Tərtərin işğaldan azad edilmiş Suqovuşan qəsəbəsinə və Talış kəndinə səfəri zamanı jurnalistlərə açıqlamasında söyləyib.

"Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Azərbaycan hökuməti tərəfindən quruculuq işləri sürətlə davam etdirilir. Dünya miqyasında müqayisə etsək, Azərbaycanın təcrübəsində postmünaqişə, rekonstruksiya və yenidənqurmanın nadir nümunəsi həyata keçirilir. Belə ki, son 25-30 ildə dünyada postmünaqişə şəraitində dövlətlərin özləri tərəfindən belə miqyasda yenidənqurma işləri həyata keçirilməyib. Bəzi bölgələrdə belə hallar olsa da, bu, daha çox beynəlxalq təşkilatların bilavasitə iştirakı ilə həyata keçirilirdi. Azərbaycanda isə bu layihələr ölkəmizin öz daxili imkanları hesabına və qısa müddət ərzində həyata keçirilməkdədir", - deyə Hikmət Hacıyev qeyd edib. Prezidentin köməkçisi bildirib ki, diplomatik korpusun nümayəndələri də görürlər, hazırda Talış kəndindəki vəziyyət işğaldan azad olunmuş digər ərazilərimizdəki vəziyyətdən o qədər də fərqlənmir. Yəni, burada da 30 il davam edən işğal müddətində total dağıntılar, Azərbaycan vətəndaşlarına məxsus əmlakların darmadağın edilməsi siyasəti həyata keçirilib. Lakin Azərbaycan dövlətinin niyyəti qısa müddət ərzində bu ərazilərin bərpası və keçmiş məcburi köçkünlərin öz doğma ata-baba yurdlarına qayıtmasının təmin olunmasıdır.

"Müharibə dövründə Tərtər rayonu intensiv bombalanma və artilleriya atəşi altında idi. Bütün bunlara, törədilən vəhşiliklərə baxmayaraq, bu gün Tərtərdə də quruculuq işləri həyata keçirilir. Dağıdılmış bütün evlər bərpa olunaraq vətəndaşların ixtiyarına verilib", - deyə Hikmət Hacıyev vurğulayıb.

## Diplomatik korpus nümayəndələri Talış kəndində yerləşən kilsələri ziyarət ediblər







Oktyabrın 16-da diplomatik korpus nümayəndələri Tərtər rayonunun Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində olublar.

AZƏRTAC xəbər verir ki, daha sonra səfər iştirakçıları erməni işğalçıları tərəfindən viran qoyulmuş Talış kəndində yerləşən rus-pravoslav kilsəsini ziyarət ediblər.

## Xarici diplomatlara Tərtərdə ermənilərin raket və artilleriya atəşi nəticəsində törədilən dağıntılar barədə məlumat verilib







Oktyabrın 16-da Tərtərdə səfərdə olan Azərbaycandakı diplomatik korpusun nümayəndələrinə ermənilərin raket və artilleriya atəşi nəticəsində rayonda törədilən dağıntılar barədə məlumat verilib.



AZƏRTAC xəbər verir ki, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov səfərin iştirakçılarına zərər görmüş tikililər haqqında məlumat verib. Qeyd edib ki, düşmənin atəşi nəticəsində Tərtər rayonunda 40 yaşayış məntəqəsi zərər görüb, 58 fərdi yaşayış evi, 2 ictimai obyekt tamamilə dağılıb. Sonra diplomatik korpusun nümayəndələri ötən il Tərtərdə Ermənistan silahlı qüvvələri tərəfindən atılan "Smerç" raketi ilə dağıdılan evdə olublar.

Dağıdılan evin sahibi, Kəlbəcər rayonundan olan məcburi köçkün evinin ötən ilin oktyabrında dağıdıldığını deyib. Bildirilib ki, o, yeni evlə təmin olunub. Dağıdılan ev isə açıq havada muzey kimi saxlanılacaq.

## Suqovuşan azad edildikdən sonra heç suvarılmayan və ya az suvarılan 30 min hektara yaxın ərazi su ilə təmin olunub

Oktyabrın 16-da diplomatik korpusun nümayəndələri Tərtərin Suqovuşan qəsəbəsində "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlara stansiyalarda görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, "Suqovuşan-1" Kiçik Su Elektrik Stansiyasında ildə 13,8 milyon kilovat saat elektrik enerjisi istehsal olunacaq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ilin oktyabrın 3-də işğaldan azad etdiyi Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının ümumi gücü 7,8 meqavatdır. Erməni qəsbkarları döyüşlər zamanı 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Həmçinin döyüşlər zamanı bu elektrik stansiyalarına ciddi ziyan dəyib və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşüb.







Həmçinin diqqətə çatdırılıb ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kilovat saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

Qeyd edək ki, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayır. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürülür.

Bununla yanaşı, iştirakçılar Suqovuşan su anbarı ilə də tanış olublar. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov diplomatlara su anbarı barədə məlumat verib. Bildirilib ki, bu ərazilər azad olunduqdan sonra heç suvarılmayan və ya az suvarılan 30 min hektara yaxın ərazi suvarma suyu ilə təmin olunub.



## Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir!

30

# Müstəqil Azərbaycanda ali təhsilin inkişafı və perspektivləri

*Əvvəli 1-ci səh.*

Təhsilə qoyulan investisiyaların ən mühüm xüsusiyyəti azalan deyil, artan məhsuldarlığa malik olmasıdır. Müxtəlif tədqiqatlar göstərir ki, təhsil müddəti artdıqca, işsizlik səviyyəsi azalır, gəlir səviyyəsi isə artır. OECD ölkələri üzrə aparılan tədqiqatlardan birinin nəticələrinə görə insanların təhsilalma müddətində hər əlavə birillik artım onların gəlir səviyyəsini təxminən 6 faiz yüksəldir. Təhsilin, xüsusilə də ali təhsilin yüksək insan kapitalı və texnologiyalar vasitəsilə iqtisadi artımın drayverinə çevrilmə xüsusiyyətini nəzərə alaraq, inkişaf etmiş ölkələr bu sahəyə çox böyük həcmdə vəsait ayırırlar. Dünya İqtisadi Forumunun hesabatlarına baxdıqda görürük ki, ali təhsil və peşə təlimi sektorunun yüksək inkişaf etdiyi Sinqapur, Finlandiya, Niderland, İsveçrə, Belçika, Danimarka, Norveç, ABŞ, Avstraliya, Yeni Zellandiya, Almaniya, İsveç, Birləşmiş Krallıq, Yaponiya kimi ölkələr eyni zamanda rəqabətqabiliyyətli iqtisadiyyatlar arasında qabaqcıl sıralarda dayanırlar. Bu iqtisadiyyatların hamısı yüksək texnologiyalara əsaslanan və innovasiya potensialı güclü iqtisadiyyatlar hesab olunurlar. Təsadüfi deyil ki, UNESCO müasir dövrdə ali təhsil qurumlarını sosial inkişaf, iqtisadi artım, rəqabətli mal və xidmət istehsalının dəstəklənməsi, mədəni kimliyin formalaşması və qorunması, cəmiyyətin bütövlüyünün təmin edilməsi, yoxsulluqla mübarizə və sülh mədəniyyətinin dəstəklənməsi işində əvəzedilməz rolu olan qurumlar kimi xarakterizə edir.

Hesablamalar göstərir ki, dünya üzrə ali təhsil qurumlarında qeydiyyatı olan tələbələrin sayı 2000-2014-cü illər arasında 100 milyondan 207 milyona yüksəlmişdir. Bu artımın çox əhəmiyyətli hissəsi Azərbaycanın da daxil olduğu ortagəlirli ölkələrdə baş vermişdir. Buna görə də aşağı-orta gəlirli ölkələrin ali təhsil qurumlarına qeydiyyatı olan tələbələrin ümumi sayı ilk dəfə 2012-ci ildə yüksəkgəlirli ölkələrin müvafiq göstəricisini üstələmişdir.

İnkişaf etməkdə olan ölkələrdə ali təhsilə olan tələbin sürətlə artması cəmiyyətin və dövlətin bu sahəyə olan diqqətinin də yüksəlməsi ilə nəticələnmişdir. Bir çox ölkələrdə ya yeni ali təhsil qurumları yaradılır, ya mövcud ali təhsil qurumlarının potensialı artırılır, ya da ali təhsil qurumları şəbəkəsinin optimallaşdırılması həyata keçirilir.

Şübhəsiz ki, Azərbaycan Respublikası ali təhsil sahəsində inkişaf etmiş ölkələrin çoxəsrlik təcrübəsinə malik deyildir. Ancaq buna baxmayaraq, təxminən son yüz ildə ölkədə bu sahədə müəyyən təcrübə əldə edilmişdir. Azərbaycanın ilk universiteti 1919-cu ildə təsis edilmiş, 1920-ci ildən sonra başlayan sovetlər birliyi dönəmində ölkədə ali təhsil qurumlarının formalaşması və inkişafında fərqli yollar seçilmiş, 1991-ci ildən sonrakı müstəqil Azərbaycanda isə yenidən müasir ali təhsil quruculuğu üçün geniş imkanlar yaranmışdır.

Sovet dönəmində Azərbaycanın ali təhsil ocaqları sovet cəmiyyətinin tələbləri əsasında inkişaf etmiş və elmin bir sıra istiqamətləri üzrə nailiyyətlər əldə etmişlər. Lakin 1991-ci ildə Azərbaycanın müstəqilliyini əldə etməsi, iqtisadi sahədə sistem transformasiyası prosesinə başlaması bütün sahələrdə olduğu kimi, ali təhsildə də köklü islahatları zəruri etmiş və onun yeni cəmiyyətin tələblərinə uyğun yenidən qurulmasını qarşıya vəzifə kimi qoymuşdur. Bu istiqamətdə irəli sürülən ilk sistemli təşəbbüs Ümummilli Lider Heydər Əliyev tərəfindən 15 iyun 1999-cu ildə "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı"nın qəbul edilməsi olmuşdur. Heydər Əliyev ilk öncə 1998-ci ildə "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncam imzalamış, 1999-cu ildə isə geniş müzakirələrdən sonra dövlət komissiyasının hazırladığı islahat proqramını qəbul etmişdir. Bununla da Azərbaycanda təhsil sisteminin mütərəqqi milli xüsusiyyətlər gözlənilməklə beynəlxalq standartlara uyğunlaşdırılması və Avropa təhsil məkanına inteqrasiyanın təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilməyə başlanmışdır. Ulu Öndər həyata keçirilən islahatları daha da sürətləndirmək məqsədilə 2003-cü ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" əlavə bir fərman da imzalamış və bu fərmanda təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi, təhsildə idarəetmənin müasir prinsiplər üzrə təşkili, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyası istiqamətlərində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə prinsiplərinə əsaslanan yeni təhsil sisteminin qurulmasını nəzərdə tutan islahatlar prosesinin əsas istiqamətlərindən biri də ali təhsil sistemi olmuşdur. Belə ki, qeyd edilən islahat proqramının icrası nəticəsində ali təhsil sistemində bir sıra struktur dəyişiklikləri aparılmış, ali təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması istiqamətində addımlar atılmış, mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar əlavə edilmişdir. Bu mərhələdə aparılan islahatların mühüm istiqamətlərindən biri də məhz ali təhsil müəssisələrinin muxtariyyətinin artırılması olmuşdur. Azərbaycan Dövlət İqtisad Universiteti də daxil olmaqla 6 ali məktəbə daha yüksək muxtariyyət - özünüidarəetmə statusu verilmişdir.

Azərbaycanın 2005-ci ildə Bolonya prosesinə qoşulması ölkədə ali təhsil islahatlarının yeni mərhələsinə start vermişdir. Bu çərçivədə 2009-cu ildə qəbul edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda qeyd olunmuşdur ki, proqramın məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır. Proqramın icrası çərçivəsində ali təhsilin qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması və Bolonya prosesinin əsas prinsipləri istiqamətinə yenidən qurulması sahəsində mühüm işlər görülmüşdür. Qeyd olunan mərhələdə atılan mühüm strateji addımlardan biri də Prezident İlham Əliyevin irəli sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olmuşdur. Proqramın əsas hədəfləri xaricdə dövlət hesabına təhsil almağa göndərilən Azərbaycan gənclərinin təhsilin bütün pillələri üzrə illik sayının 2015-ci ildə 1000 nəfərə, onların ümumi sayının isə 2007-2015-ci illərdə 5000 nəfərə çatdırılması, ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura pillələri, eləcə də ixtisasartırma və yenidən hazırlanma təhsili üzrə bölünməsi, hökumətlərarası müqavilələr və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla təmin edilməsi olmuşdur. Uğurla reallaşdırılan bu proqram çərçivəsində 3558 nəfər azərbaycanlı gənc dünyanın ən nüfuzlu universitetlərində bakalavriat, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı qazanmışdır. Bu gənclərin böyük əksəriyyəti artıq təhsilini başa vurub geri qayıtmış və ölkəmizin gələcək inkişafına, xüsusilə də ali təhsilin inkişafına öz töhfələrini verməyə başlamışdır.



Qlobal səviyyədə təhsil sahəsində ortaya çıxan yeni çağırışlar və Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə daxil olması ölkədə təhsilin inkişafı üzrə vahid dövlət strategiyasının formalaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə 24 oktyabr 2013-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və onun əsasında hazırlanaraq 2015-ci ilin 19 yanvarında təsdiq edilmiş müvafiq Fəaliyyət Planı ölkədə ali təhsil sistemi də daxil olmaqla, bütövlükdə təhsil sisteminin qeyd olunan çağırışlar və tələblər istiqamətində qısa, orta və uzunmüddətli inkişafını təmin edəcək vahid dövlət siyasətini özündə əks etdirir.

Təhsilin inkişafı üzrə dövlət strategiyasının icrası ilə əlaqədar olaraq, son illər ölkədə ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, ali təhsil kurikulumlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması, ali təhsil qurumlarında doktorantura təhsili və tədqiqat potensialının gücləndirilməsi, ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi, ali təhsil müəssisələrinin idarəetmə modelinin təkmilləşdirilməsi, onların əlavə təhsil imkanlarının genişləndirilməsi, beynəlmiləlləşmələrinin artırılması və bütövlükdə ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətlərində əhəmiyyətli nəticələr əldə edilmişdir. Bu uğurlu nəticələrin əldə edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bütövlükdə təhsilə göstərdiyi diqqət və qayğını xususilə vurğulamaq lazımdır.

Universitetlərin araşdırma - texnoloji inkişaf-innovasiya missiyaları aspektindən yanaşıldıqda görünür ki, inkişaf etməkdə olan ölkələrdə prioritet daha çox yaxşı təhsil verən universitetlər olduğu halda qlobal texnologiya-innovasiya yarışına qoşulan ölkələrdə daha çox universitetlərin araşdırma və innovasiya nəticələrinə əhəmiyyət verilir. ABŞ və Birləşmiş Krallıq universitetləri bu istiqamətdə lider mövqedə olduqları halda qitə Avropası ölkələrinin bu yarışda mövqelərini gücləndirmək üçün daha çox resurslar ayırdığını və yeni universitet modelləri yaratdıqlarını, başda Çin olmaqla Cənub-Şərqi Asiya universitetlərinin isə son on ildə bu istiqamətdə əhəmiyyətli məsafə qət etdiklərini görmək mümkündür.

İnformasiya texnologiyalarının inkişafı və qloballaşma ilə birlikdə, ali təhsildə beynəlmiləlləşmə əhəmiyyətli bir inkişaf strategiyasına çevrilmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" (16.11.2018) və "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" sərəncam (30.11.2021) ölkədə ali təhsilin və kadr hazırlığının inkişafında yeni yanaşmaları və imkanları ortaya qoyur. Beynəlxalq rəqabətə və əməkdaşlıq şəbəkələrinə aktiv şəkildə qoşulmanı tələb edən bu strategiya, elmi və texnoloji proseslərdə iştirak etmə, təhsil-araşdırma təcrübəsi və resurslarını birləşdirmə, maddi resurslara çıxış, institusional potensialı təkmilləşdirmə və keyfiyyətli insan resursu cəlbetmə baxımından mühüm əhəmiyyət kəsb edir.

Ali təhsildə beynəlmiləlləşmənin istiqamətlərindən biri də ingilis dilində təhsil proqramlarının geniş yayılmasıdır. Son 20 ildə bu dil ali təhsildə bir növ "linguafranca" statusu qazandığından qitə Avropası da daxil olmaqla, dünyanın əksər yerlərində ingilis dilində universitet təhsil proqramlarının sayı sürətlə artır.

Ali təhsildə beynəlmiləlləşmə "TheTimesHigherEducation", QS, Şanxay, "USNews" və s. təşkilatların elan etdiyi dünya universitet reytinqlərinin təsirini də artırır. Reytinqlərdə istifadə edilən meyarlar əhəmiyyətli dərəcədə universitetlərin araşdırma-nəşretmə nəticələrinə əsaslandığından həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə prestij əldə etmək istəyən universitetləri araşdırma-nəşretmə missiyasına daha çox üstünlük verməyə məcbur edir. Əsasən araşdırma-nəşretmə fəaliyyətləri əsasında qazanılan qlobal prestij beynəlxalq tələbə bazarındakı rəqabətdə də universitetlərə böyük üstünlüklər yaradır. Bu baxımdan son illər Təhsil Nazirliyinin rəhbərliyi ilə Azərbaycan universitetlərinin qlobal reytinq təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinin qurulması ölkə ali təhsilinin gələcəyi üçün atılan strateji addımlardan hesab edilə bilər. Bu əməkdaşlıq ölkə ali təhsil sektorunda beynəlxalq standartların mənimsənilməsi və strateji planlaşdırmanın düzgün şəkildə həyata keçirilməsi işinə böyük təkan verir. Təkcə UNEC-in timsalında qeyd edə bilərik ki, bu əməkdaşlıq nəticəsində universitet öz fəaliyyətində zəruri təkmilləşdirmələri etməklə bir sıra beynəlxalq reytinqlərdə mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir.

Beynəlxalq tələbə və araşdırma fondları uğrunda güclənən rəqabət şəraitində mühüm əməkdaşlıq modelləri də ortaya çıxır. Məsələn, Avropa İttifaqı 1980-ci illərdən bu günə qədər getdikcə artan resurslarla ölkələrarası tələbə mobilliyinə və araşdırmada əməkdaşlığa dəstək verir. Avropa İttifaqının "Horizon 2020" araşdırma proqramı və bu gün bütün dünya ölkələrini əhatə edən "Erasmus+" mübadilə proqramı bu qəbildən olan ən əhatəli proqramlardır.

UNESCO-nun məlumatları göstərir ki, Azərbaycan ÜDM-nin təxminən 0,2 faizini araşdırma və təkmilləşdirmələrə xərcləsə də, bu xərclərin əsas hissəsi dövlət tərəfindən maliyyələşdirilir. Hazırda Azərbaycanda universitetlərin tədqiqat potensialını artırmaq məqsədilə əsasən doktorantura pilləsinin inkişafına xüsusi diqqət yetirilir. Fikrimizcə, güclü doktorantura təhsilinin təşkili yolu ilə universitetlərin tədqiqat potensialı gücləndikcə özəl sektorla və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirəcəyi tədqiqat layihələrinin sayı da ildən-ilə artacaqdır.

Müasir dövrdə ABŞ və Birləşmiş Krallıq kimi ölkələrdə əhəmiyyətli səviyyələrə çatan xarici tələbə gəlirləri universitetlərin ölkə rifahına göstərdiyi önəmli töhfələrdən biri hesab olunmağa başlamışdır. Beynəlxalq tələbələr həmçinin ölkələrə "yumşaq güc" (softpower) və keyfiyyətli insan resursu qazandırır. ABŞ-da və Avropa ölkələrinin bir çoxunda STEM (fundamental elmlər, texnologiya, mühəndislik, riyaziyyat) proqramlarında yerli tələbə çox azdır. Gənclər əsasən hüquq, incəsənət, inzibati-sosial-bəşəri elmlər sahələrinə üstünlük verir. Məhz bu meylin nəticəsi kimi, 2030-cu ildə STEM məzunlarının 75 faizinin BRICS ölkələrində, 8 faizinin ABŞ-da, 4 faizinin isə Avropada olacağı proqnozlaşdırılır. STEM sahələrində artan iş qüvvəsi kəsiri inkişaf etmiş ölkələr üçün xarici tələbələri xüsusilə cəlbedici edir. Ən çox tələbəni Çin, Hindistan, Səudiyyə Ərəbistanı və Cənubi Koreya göndərir. Hədəf ölkələrin bazar paylarına baxdıqda bir sürüşmənin baş verdiyini, ən çox tələbə cəlb edən ABŞ, Birləşmiş Krallıq, Almaniya, Fransa, İspaniya və Belçikanın 2001-ci ildəki məcmu payının 59 faizdən 2017-ci ildə 48 faizə düşdüyünü, Çin, Avstraliya və Kanadanın isə ən çox tələbə cəlb edən ölkələr sırasına daxil olduğunu görmək mümkündür.

Beynəlmiləlləşmənin getdikcə geniş yayılmağa başlayan bir modeli də qlobal miqyasda tanınan universitetlərin inkişaf etməkdə olan ölkələrin universitetləri ilə birlikdə ortaq təhsil proqramları təqdim etmələri, bu ölkələrdə araşdırma mərkəzləri və kampuslar açmalarıdır. ABŞ və Birləşmiş Krallıq universitetləri ilə Orta Şərq və Cənubi Asiya ölkələri bu beynəlmiləlləşmə modelindən ən çox istifadə edən ölkələrdir.

Azərbaycan universitetlərinin son illər ingilis dilində təhsil proqramlarını genişləndirmələri, ERASMUS, TEMPUS, MEVLANA kimi beynəlxalq mübadilə proqramlarında aktiv iştirak etməyə başlamaları, eləcə də çoxtərəfli və ikitərəfli çərçivələrdə beynəlxalq əlaqələrini genişləndirmələri onların beynəlmiləlləşməsi prosesini də gücləndirmişdir.

Tədqiqatlar göstərir ki, hələ pandemiyadan öncə ortaya çıxan dörd əsas tendensiya dünyada ali təhsilin gələcəyini təyin edəcəkdir. Birinci tendensiya "yeni iqtisadiyyat"da rəqəmsallaşmanın, avtomatlaşdırmanın, süni intellekt və robot tətbiqlərinin əmək bazarının tələbini sürətlə dəyişdirməsi və bir çox sahədə universitet diplomunun ənənəvi üstünlüyünü təhdid etməsidir. Artıq diplom tələb edən bəzi peşələrin daha sürətlə avtomatlaşdırmaya məruz qalacağı, digər tərəfdən də xüsusilə informasiya texnologiyaları kimi sürətlə inkişaf edən sahələrdə mövcud universitet proqramlarının dəyişikliklərlə ayaqlaşa bilmədiyi görünür. Universitetlər bu dəyişikliyə cavab vermək üçün ənənəvi "paketlənmiş (packaged)" proqramlarını yenidən nəzərdən keçirməyə başlamışdır. Artıq universitetlər tələbənin peşəyə yiyələnmə ehtiyacına istiqamətlənmiş, əhatəsi və tamamlama müddəti dəyişə bilən, kredit toplama metodu ilə diplomun əldə edilə bildiyi, çevik, yetərliliyə əsaslanan (competencey-based) və adaptiv (customized) təhsil proqramlarına yönəlirlər. Bu yanaşma işləyənlərin yetərliliklərini inkişaf etdirmə tələblərinə və geniş kütlələrin ömür boyu təhsil ehtiyaclarına da cavab verməyi hədəfləyir. Mikro-Magistr proqramları (MicroMastersprograms) bu yanaşmanın tipik nümunəsidir. Universitetlərin bu cəhdlərinə baxmayaraq, işəgötürənlər arasında işçilərini yetişdirmək məqsədilə öz universitetlərini qurma və "TriologyEducation" kimi qurumlardan xüsusi təhsil dəstəyi alma meyli də geniş yayılmışdır. Bütün bunlar onu göstərir ki, qarşıdakı illərdə Azərbaycanda ali təhsil qurumlarının daha çevik hərəkət edə bilmələri üçün onların muxtariyyətinin gücləndirilməsi və ömür boyu təhsil strukturlarının köklü şəkildə inkişaf etdirilməsi qaçılmaz olacaqdır.

İkinci əsas tendensiya "online" təhsil tətbiqlərinin sürətlə yayılmasıdır. Bütövlükdə və ya qismən "online" formada təqdim edilən təhsil proqramları tələbələrə daha aşağı xərclərlə və çevik təhsil imkanı yaradır. Bir çox ölkədə ənənəvi olaraq "ikinci sinif" kimi qəbul edilən "online" diplom proqramları getdikcə daha çox qəbul edilməyə başlanmışdır. ABŞ-da ən tanınmış universitetlər də "online" təhsil proqramı formalaşdırma və təqdim etmə məqsədilə bu sahədə ixtisaslaşmış "online" proqram meneceri (onlineprogrammanager) şirkətlərilə əməkdaşlıq edir. Hələ də ABŞ-da əhəmiyyətli sayda universitetin tədris vasitəsi kimi istifadə etdiyi "virtual reallıq (virtual reality)" tətbiqləri sürətlə inkişaf edir və yayılır. Azərbaycanda bu sahənin inkişafı üçün, ilk növbədə, distant təhsilin qanunvericilik bazasının formalaşdırılmasına ehtiyac vardır. Bundan sonra isə distant təhsilin inkişafı sahəsində qəbul ediləcək əhatəli dövlət proqramının icrası ilə bu sahədə ciddi dönüş əldə etmək olar. Çünkü ölkədə bu təhsilin qurulması kifayət qədər xərc tələb edir və ali təhsil qurumlarının birgə və koordinasiyalı fəaliyyətini şərtləndirir.

Üçüncü tendensiya ali təhsildə beynəlxalq rəqabət və əməkdaşlığın artmasıdır. Araşdırma-innovasiya məqsədli əməkdaşlığı və tələbə mobilliyini dəstəkləyən proqramlar davamlı genişlənir. Bu baxımdan Azərbaycanda qarşıdakı illərdə xaricdə təhsil üzrə dövlət proqramının, ikili diplom proqramlarının uğurla icra edilməsi ilə yanaşı, əcnəbi tələbə və müəllimlərin ali təhsil sektoruna cəlb edilməsi istiqamətində həyata keçirilən tədbirlərin də genişləndirilməsi zəruriliyi ortaya çıxır.

Dördüncü tendensiya isə elmi və elm qurumlarını yenidən nəzərdən keçirən sosial-siyasi proseslərin genişlənməsidir. Son dövrdə qlobal olaraq kommunikasiyanın kommersiyalaşdığı, sosial media və oxşar rəqəmsal təbliğat vasitələrinin geniş yayılmağa başlandığı, siyasi qütbləşmənin artdığı qlobal şəraitdə cəmiyyətin müəyyən təbəqələri qurumlara inam məsələsində yeni istinad mənbələri axtarışına yönəlmiş, elmi və elm qurumlarını yenidən nəzərdən keçirməyə başlamışdır. Elm və media qurumlarının cəmiyyət nəzdində əldə etdikləri inamın mənbəyindəki doğruluq, şəffaflıq, muxtariyyət, hesabatlılıq prinsiplərini dəyərsizləşdirən və alternativ istinad mənbələri formalaşdıran bu tendensiya universitetlərin cəmiyyətdə daşıdığı missiyanı da kökündən təhdid edir. Mövcud pandemiya şəraitində COVID-19 virusu ilə mübarizə çərçivəsində bütövlükdə dünya miqyasında belə bir tendensiyanın varlığını daha açıq şəkildə görmək mümkün olmuşdur. Bu, Azərbaycan da daxil olmaqla dünyanın bütün ölkələrində universitetlər və digər elm qurumlarının cəmiyyətlə əlaqələrinin effektivliyinin artırılması məsələsini gündəmə gətirmişdir.

Mövcud pandemiya göstərdi ki, universitetlər və ali təhsil sektoru mülki aviasiya, turizm kimi bu günə qədər pandemiyanın ən çox təsirinə məruz qalan sektorlar sırasındadır. 2020-ci ilin fevral ayından başlayaraq, dünyanın bir çox ölkəsində universitetlər üzbəüz təhsili dayandıraraq "online" təhsilə keçdilər. Bir çox ölkədə rəqəmsal ünsiyyət imkanlarına çıxışda bərabərsizlik yarandı. Kommunikasiya infrastrukturunun və "online" dərslərin məzmun yetərsizliyi, tələbə və müəllimlərin "online" təhsil təcrübəsinin olmaması və belə bir şəraitdə imtahanlar keçirmənin çətinlikləri ortaya çıxdı. Bu problemlərə baxmayaraq, "online" təhsil əldə olan imkanlarla davam etdirildi. Ancaq universitet həyatının mühüm bir hissəsi olan kampus həyatının verdiyi üstünlüklər - sosial qarşılıqlı əlaqə, dərsdənkənar proqramlar və fərdi-sosial inkişaf imkanları təmin edilə bilmədi.

Tədqiqatlar göstərir ki, post-COVID dövründə tamamilə üzbəüz təhsilin davam etməsi çoxlu suallar doğurur. Bu baxımdan inkişaf etdirilmiş hibrid və ya tamamilə "online" proqramların daha da geniş yayılacağı gözlənilir.

Görünən odur ki, qarşıdakı illərdə universitetlər tələbə gəlirlərini artırmaq və əmək bazarının tələblərinə cavab vermək məqsədilə aşağı xərcli, çevik, "paketlənməmiş" "online"/hibrid təhsil proqramlarına daha çox üstünlük verəcəklər. Beynəlxalq tələbələrə istiqamətlənmiş "online" təhsil modelinin daha çox qəbul edilməsi ilə tələbə göndərən ölkələrlə ortaq proqramların geniş yayılması və yeni filial investisiyalarının artırılması qaçılmaz görünür.

Pandemiya beynəlxalq akademik-elmi iclaslara, üzbəüz qarşılıqlı əlaqəyə və laboratoriya tədqiqatlarına da böyük miqyasda maneə yaratdı. Universitetlərin istifadə etdiyi dəstək fondları və sənaye gəlirləri məhdudlaşdı və iqtisadi canlanma olmadan artmaları da gözlənilmir. Belə şəraitdə ABŞ-da araşdırma universitetlərinin yaşadığı çoxölçülü problemlər digər ölkələrdəki nümunələri də izah edir. Ancaq virtual mühitə köçürülən əlaqə ilə coğrafi sərhədlər də aradan qalxır, sosial aspektin yetərsizliyinə baxmayaraq, elmi koordinasiya-əməkdaşlıq fərqli bir keyfiyyətdə davam edir və hətta yayılır.

Pandemiya şəraitində universitetlərin təhsil haqqı və qeyri-təhsil haqqı gəlirlərində əhəmiyyətli azalmalar da görünür. Ancaq buna baxmayaraq, tələbələrin və əməkdaşların sağlamlığının qorunmasına istiqamətlənmiş tədbirlər və "online" təhsil investisiyaları universitetlər üçün çox ciddi həcmlərdə əlavə xərclər yaradır. Xüsusilə də dünyadakı əcnəbi tələbələrdən asılılığı yüksək olan universitetlərdə belə bir sıxıntılı vəziyyətin ortaya çıxması qaçılmaz olmuşdur.

Fikrimizcə, pandemiyanın yaratdığı şok bir çox sektorda olduğu kimi, zəif və güclü ali təhsil qurumları arasındakı fərqi də artıracaqdır. Pandemiyanın təsiri ilə universitetlərin bəlkə də uzun zamandır təxirə salınan transformasiyalara yönəlməsi, ixtisaslaşmaya üstünlük verməsi, daha sağlam əməkdaşlıqlar qurması, hətta birləşməsi və proseslərlə ayaqlaşa bilməyənlərin isə bağlanması zəruri olacaqdır. Görünən odur ki, bu böhran şəraitində ortaya çıxan yetərsizliklərini görə bilən, yeni şəraitin yaratdığı fürsətləri dərk edən, yaradıcı həlləri sürətlə tətbiq edən qurumlar "yeni normal"a daha əlverişli vəziyyətdə daxil olacaqlar.

Pandemiya dövründə bütün digər ölkələr kimi Azərbaycan da müəyyən sıxıntılarla qarşılaşmış olsa da, bu dövrdə uzun müddətdir həllini gözləyən milli problemini - Qarabağın düşmən işğalından azad edilməsini həll etməyi də bacarmışdır. Bu böyük zəfər cəmiyyət olaraq bizim qarşımıza növbəti bir milli vəzifəni - Qarabağın yenidən qurulmasını qoymuşdur. Tamamilə yenidən qurulacaq Qarabağda həm də Azərbaycan təhsili, xüsusilə də ali təhsili yenidən qurulacaqdır. Burada Qarabağ Universitetinin qurulması xüsusilə böyük önəm daşıyır. Fikrimizcə, bu universitetin multiversitet formasında qurulması və onun təməlində Qarabağ Elm-Təhsil-İnnovasiyalar Vadisinin təşkil edilməsi bütövlükdə bölgədə ali təhsil sektorunun inkişafı və iqtisadi fəaliyyətlərin davamlılığı baxımından əhəmiyyətlidir.

*Bu gün əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ali təhsil sektoru qarşıdakı illərdə də qlobal tendensiyalara, çağırışlara və milli iqtisadiyyatın tələblərinə adekvat şəkildə inkişaf edəcək və cənnət Qarabağda da ən yaxşı təcrübələrini ortaya qoyacaqdır.*

***Ədalət MURADOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor***



# Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! 30

**Dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünü qeyd edən Azərbaycan Respublikasının iqtisadiyyatın bütün sahələri üzrə kompleks islahatlar həyata keçirərək pandemiya şəraitində müvazinətini qoruyub saxlaması və nəzərəçarpacaq nəticələrə imza atması, ilk növbədə, möhkəm bazisə söykənən inkişaf modeli ilə şərtlənir. Başqa sözlə, respublikamızın müstəqillik illərində nail olduğu inanılmaz iqtisadi nailiyyətlərin milli inkişaf modeli ilə bağlılığı bu gün aksiom kimi qəbul edilir.**

# İnkişafın Azərbaycan modeli

## Uğurlu antiböhran konsepsiyası

1993-cü ildə yeni ictimai-iqtisadi formasiyaya keçidin çətinliklərini yaşayan Azərbaycanın hansı iqtisadi modelə üstünlük verəcəyi ilə bağlı çoxlu fikirlər, təkliflər irəli sürülürdü. Fəqət, xalqımızın Ümummilli Lideri Heydər Əliyev hansısa dövlətin təcrübəsinin olduğu kimi milli iqtisadiyyata köçürülməsini düzgün saymayaraq bu prosesdə milli resurslarla yanaşı, xalqın mentalitetini, tarixi ənənələrini, inkişaf yolunun özəlliklərini də ciddiliklə nəzərə almışdır.

Əminliklə demək olar ki, Azərbaycanın milli iqtisadi inkişaf modeli bir sıra cəhətlərinə görə başqalarına nəinki bənzəmir, həm də müəyyən üstünlükləri ilə seçilir. Bu modelin üstün tərəflərindən biri də onun sərbəst inkişaf etmək imkanında respublikamızda daxili investisiyalar xarici sərmayə qoyuluşlarını üstələyir, qlobal layihələr dövlət büdcəsi hesabına reallaşdırılır. Zəngin təbii sərvətlərə malik olması ölkə iqtisadiyyatının sərbəst inkişaf etmək imkanlarını təmin edir. Azərbaycanda da təbii sərvətlərin çoxluğu və müxtəlifliyi, respublikanın son dərəcə əlverişli coğrafi mövqeyi, əhalinin yüksək təbii artımı, məşğulluq siyasətinin səmərəli təmin edilməsi milli iqtisadiyyatın hərtərəfli inkişafını zəruri edir. Məsələn, hazırda Azərbaycanda istehsal edilən məhsullar əsasən daxili istehlak tələbini ödəməyə xidmət edir. Bu da kəskin dünya maliyyə böhranı fəsadlarının mənfi nəticələrinin Azərbaycan iqtisadiyyatına kəskin təsirini minimuma endirir.

Azərbaycanın qlobal böhrandan maksimum az itki ilə çıxan ölkələrdən olması həm də onun müstəqil iqtisadi siyasət yeritməsi ilə şərtlənir. Respublikamızın maliyyə təhlükəsizliyinin təmini baxımından beynəlxalq fond birjalarında, qiymətli kağızlar bazarında fəal iştiraka haqlı olaraq ehtiyatlı yanaşması maliyyə böhranının respublikamıza təsirini zəiflədən əsas amillər sırasındadır. Azərbaycanın dünya maliyyə institutlarına öz kapitalı, fond aktivləri və qiymətli kağızları ilə fəal inteqrasiya etməməsi də ölkəni qlobal böhrandan hifz edir. Dövlət başçısı İlham Əliyev Azərbaycanın qlobal böhrandan az ziyan çəkməsinin səbəblərinə toxunarkən, haqlı olaraq respublikamızın milli maraqlara əsaslanan iqtisadi siyasət yeritdiyini xüsusi önə çəkmişdir: *"Bəzi hallarda Azərbaycanda maliyyə sektorundakı müəyyən konservativ meyillər beynəlxalq maliyyə qurumları tərəfindən tənqid edilirdi. Bəzən bizə tövsiyə olunurdu ki, inteqrasiya meyillərinə daha da sürətlə qoşulaq, beynəlxalq ticarət qurumlarına inteqrasiya edək. Ancaq bizim mövqeyimiz bütün zamanlarda çox ehtiyatlı idi. Çünki Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır. Bəzi başqa ölkələr kimi, biz xarici yardımlardan asılı deyilik. Bizim böyük, zəngin neft-qaz yataqlarımız, əlverişli coğrafi mövqeyimiz var. Artıq çox müasir və möhkəm enerji və nəqliyyat infrastrukturumuz var. Biz neft gəlirlərindən səmərəli istifadə etməklə iqtisadiyyatımızı böyük dərəcədə şaxələndirə bilmişik və Azərbaycanda iqtisadi artım sürəti bunun bariz nümunəsidir. Ona görə biz beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə həmişə öz mövqeyimizdən yanaşmışıq".*

## İnsan amilini önə çəkən sosialyönümlü siyasət

Respublikamızın milli iqtisadi inkişaf modelinə xas mühüm cəhət yeni dövrün tələblərinə cavab verən infrastrukturun yaradılması yolu ilə insan resurslarının inkişafıdır. Bu siyasət təkcə sosial amillərlə bağlı olmayıb, həm də neft gəlirlərindən məqsədyönlü istifadə strategiyasına əsaslanır. Başqa sözlə, hökumət iqtisadiyyatın birqütblü inkişafına - "Holland sindorumu"na yol verməmək üçün neftdən əldə olunan gəlirləri digər sahələrin inkişafına, ilk növbədə, davamlı inkişafa zəmin yaradan infrastruktur layihələrinin gerçəkləşdirilməsinə yönəldir.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin müstəsna rolunu nəzərə alan Ümummilli Lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun iştirakını vacib saymışdır. 1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında" və 28 sentyabr 2002-ci il tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanlarında isə dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında dərin kök salmış və həllini gözləyən bir sıra ciddi problemlər tam açıqlığı ilə göstərilmiş, onların qarşısının alınması üçün kompleks islahatlar aparılmışdır. Bütün bu tədbirlərin nəticəsi kimi 1996-2003-cü illərdə Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrində dinamik inkişaf və tərəqqi təmin edilmiş, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 75 faizə yüksəlmişdir.

Ümummilli Lider Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla gerçəkləşdirdiyi müdrik və uzaqgörən siyasətini XXI əsrin başlanğıcında layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bu müddətdə ölkədə iqtisadi inkişafın təmini istiqamətində həyata keçirilmiş tədbirlər özünün sistemli və ardıcıl səciyyə daşıması ilə diqqəti çəkir.

Ötən illərdə keçid dövrünü geridə qoyan respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Son 18 ildə dövlət başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. Bu məqsədlərə nail olunması üçün rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılması, sənayeləşmə siyasətinin sürətləndirilməsi, mütərəqqi təcrübəyə əsaslanan sənaye zonalarının yaradılması, müəssisələrin texnoloji cəhətdən yeniləşdirilməsi, intensiv metodların tətbiqinin daha da genişləndirilməsi və digər tədbirlər nəzərdə tutulur.

Prezident səlahiyyətlərinin icrasına başladığı ilk gündən Azərbaycan hökumətinin daha çox diqqət yetirməsi vacib olan problemləri düzgün müəyyənləşdirən cənab İlham Əliyevin 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" ilk fərmanının əhəmiyyəti bu baxımdan xüsusi vurğulanmalıdır. İqtisadiyyatda mütərəqqi inkişaf meyillərinin daha da sürətləndirilməsi, bu prosesdə yüksək dinamizmin təmin olunması yollarının nəzəri-praktiki və konseptual əsaslarını özündə əks etdirən həmin fərman qarşıya qoyulmuş məqsədlərin reallaşdırılmasından ötrü çoxsaylı dövlət proqramlarının hazırlanmasında bir növ baza rolunu oynamışdır.

Hər bir ölkənin davamlı inkişafının mühüm göstəricilərindən biri də onun strateji valyuta ehtiyatlarının həcmidir. Bu baxımdan ötən illərdə büdcənin artım dinamikası ölkədəki makroiqtisadi sabitliyin mühüm göstəricisi kimi diqqət çəkir. Hazırda ölkəmizin strateji valyuta ehtiyatları 52 milyard ABŞ dollarına yüksəlmişdir. Pandemiyanın davam etməsinə baxmayaraq, ölkəmiz son bir ildə də yüksək makroiqtisadi göstəricilərə imza atmış, regionda həyata keçirilən transmilli layihələrdə aparıcı rol oynamış, dövlət proqramlarını uğurla icra etmişdir. Əgər əvvəlki illərdə iqtisadi yüksəliş əsasən mədənçıxarma sənayesi hesabına əldə edilirdisə, hazırda bu, qeyri-neft sektorunun inkişafı sayəsində baş verir.

Kənd təsərrüfatı sahəsində çalışan fermerlərin lazımi texnika, gübrə və toxum məhsulları ilə təmin edilməsinə kömək məqsədi ilə "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması, gəlir vergisindən azad edilməsi, güzəştli şərtlərlə yanacaq və motor yağları ilə təmini də sahibkarlığa göstərilən qayğının mühüm tərkib hissəsi kimi xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 30 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" fərman bu baxımdan mühüm sənədlərdən biri olmuşdur. Belə bir fərmanın imzalanması o dövrə qədər çoxpilləli biznesə başlamaq sahəsində mövcud problemlərin həlli, eyni zamanda süründürməçilik hallarının aradan qaldırılması sahəsində, sözün əsl mənasında, inqilabi dəyişikliklərə yol açmışdır. Bu məqsədlə fərmanda vahid kodlaşdırmanın aparılması, biznes strukturlarının "bir pəncərə" - vahid qeydiyyat orqanı tərəfindən qeydə alınması məsələləri əksini tapmışdır.

## Qeyri-neft sektoru Azərbaycanın inkişafında lokomotivə çevrilir

İnvestisiya layihələrinin güzəştli qaydada kreditləşdirilməsinin daha effektiv mexanizminin yaradılması sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarını asanlaşdırmışdır. Güzəştli kreditlərin istifadəsi qaydalarına edilmiş dəyişikliklər iri və uzunmüddətli investisiya layihələrinin, həmçinin kiçik sahibkarlığın güzəştli şərtlərlə maliyyələşdirilməsi imkanlarını genişləndirmiş, güzəştli kreditlər üzrə müddətin maksimum həddi 10 ilədək, məbləği isə 10 milyon manatadək artırılmışdır.



Son illər müəyyən çətinliklərə əzmlə sinə gərərək fəal antiböhran tədbirlərini reallaşdıran Azərbaycan bu gün bölgədə iqtisadi inkişaf və inteqrasiyanı təşviq edən lider dövlət statusunu qoruyub saxlayır. Realist siyasətçi kimi yeni dövrün çağırışlarını düzgün dəyərləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusən də 2015-ci ilin əvvəlindən həyata keçirdiyi antiböhran tədbirləri sistemliliyi və ardıcıllığı ilə diqqəti çəkir. Antiböhran tədbirlərinin ana xəttini yenə də sahibkarlıq fəaliyyətinə mane olan süni maneələrin aradan qaldırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsi məsələləri təşkil edir. Dövlət başçısı hesab edir ki, hazırkı dövrdə bir tərəfdən, yaranmış vəziyyətin ölkəyə mənfi təsirinin qarşısını almaq üçün çevik tədbirlər həyata keçirilməli, digər tərəfdən də, prioritet sahə hesab olunan qeyri-neft sektorunun daha sürətli inkişafını təmin etmək üçün əlavə təsirli mexanizmlər işə salınmalıdır.

Dövlət başçısı İlham Əliyevin son 18 ildə imzaladığı bir sıra dövlət proqramları qeyri-neft sektorunun möhkəmləndirilməsini, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılmasını, infrastrukturun yeniləşdirilməsini təmin edən kompleks sənədlər olmaqla yanaşı, bölgələrdə özəl sektorun və sahibkarlığın inkişafına təkan vermişdir. 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən regional inkişaf proqramları bu baxımdan xüsusi əhəmiyyət kəsb etməklə, regionlarda intibah mərhələsinin əsasını qoymuş, sahibkarlığın yüksəlişinə zəmin yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu antiböhran strategiyası respublikamızın yaranmış yeni iqtisadi və siyasi şəraitə uyğun olaraq neftdən asılı olmayan, ixracyönümlü, dayanıqlı inkişafına etibarlı zəmin formalaşdırır. 2014-cü ilin ortalarından etibarən dünya iqtisadiyyatını iflic edən qlobal böhran dalğası qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsi prosesində Azərbaycana tormozlayıcı amil olmamışdır. Böhranın ən pik mərhələsi sayılan 2015-2016-cı illərdə respublikamız üçün müəyyən çətinliklər yaransa da, hökumətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər səmərə vermiş, nəticədə bir çox makroiqtisadi parametrlər üzrə inkişafa nail olunmuşdur.

Həyata keçirilmiş təşkilati-hüquqi, qanunverici və institusional islahatların ana xəttini sahibkarlar sinfinin dəstəklənməsi yolu ilə qeyri-neft sektorunun inkişafı və idxal-ixrac əməliyyatlarında balansın təmin edilməsi, ümumən makroiqtisadi dayanıqlılığın qorunması təşkil etmişdir. Bu məqsədlə son illərdə sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması; icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması; sahibkarların hüquqlarının qorunması məqsədilə apellyasiya şuralarının yaradılması; ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması; ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi; idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi; dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması reallaşdırılmışdır.

Son 5 ildə iqtisadi islahatların elmi şəkildə həyata keçirilməsi məqsədilə yaradılmış mühüm qurumlar sırasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi Şurasının, Turizm Şurasının yaradılmasını xüsusi qeyd etmək lazımdır. Bu qurumların yaradılmasında məqsəd ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində təhlil və tədqiqatlar aparmaq, analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlamaqdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərmanı isə keyfiyyətcə yeni mərhələdə iqtisadi inkişafı stimullaşdırmaq və böhranın mənfi təsirlərini aradan qaldırmaq məqsədi daşıyır. Fərmanla iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına dair strateji yol xəritələrinin təsdiq olunması həm də qlobal böhrandan çıxış yollarını özündə ehtiva edir. Konkret olaraq "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" ölkəmizdə sahibkarlıq və biznes mühitinin yaxşılaşdırılması üçün yaxşı imkanlar açmışdır. Sahibkarlığın inkişafı məqsədilə həyata keçiriləcək kompleks tədbirlər sistemini özündə ehtiva edən sənəddə islahatların konkret istiqamətləri də əksini tapmışdır.

2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra aparılan sistem xarakterli islahatlar - hökumətin tərkibinin yenilənməsi, insan amilinin sosial-iqtisadi islahatların əsas prioritetinə çevrilməsi, ən əsası, 2020-ci ildə ərazilərimizin erməni işğalından azad edilməsi sosial-iqtisadi və innovativ inkişaf sahəsində yeni vəzifələr müəyyənləşdirmişdir. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2020-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" sərəncamı, ilk növbədə, "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası" layihəsinin hazırlanmasını nəzərdə tutur. Sərəncamla strategiyanın hazırlanması prosesinə qabaqcıl beynəlxalq təşkilat və ixtisaslaşmış məsləhətçi şirkətlərin, aidiyyəti dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının cəlb olunması tapşırılmışdır.

Sərəncam bundan sonrakı 5 ildə ölkə qarşısındakı əsas hədəf və vəzifələrin açıq müzakirə və dinləmələr əsasında müəyyənləşdirilməsinə, bu zaman cəmiyyətin sosial gözləntiləri və istəklərinin nəzərə alınmasına imkan verir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsasında hökumət qarşısında 5 mühüm istiqamətdə islahat, layihə və tədbirlərin reallaşdırılması vəzifəsi müəyyənləşdirilmişdir: *1) Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2) Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3) Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4) İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış; 5) Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.*

Bunlar yeni dövrdə modernləşmə prosesinin sürətləndirilməsi üçün strateji əhəmiyyətə malik istiqamətlərdir. Ümumilikdə, sosial rifah səviyyəsinin davamlı artımı məqsədilə yüksək, dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətləndirilməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini perspektiv üçün qarşıda duran əsas vəzifələr sırasındadır. Sənəddə davamlı və yüksək iqtisadi artım baxımından adambaşına düşən milli gəlirin artırılması; yüksək gəlirli iş yerlərinin yaradılması; şaxələndirmə və qeyri-neft sektorunun inkişafı tədbirlərinin davam etdirilməsi; yerli və xarici sərmayələrin təşviqi; şəffaf özəlləşmə strategiyasının həyata keşirilməsi; kapital və sığorta bazarının inkişafı və digər mühüm məsələlər nəzərdə tutulur.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi şəffaflığa xidmət edən tədbirlərin davam etdirilməsini vacib məsələ kimi müəyyən etmişdir. Qarşıdakı illərdə məhkəmə-hüquq sisteminin fəaliyyətində şəffaflığın artırılması, haqsız rəqabətin qarşısının alınması, dövlət investisiyaları və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsinin yüksəldilməsi, idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqinin genişləndirilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikasının formalaşdırılması məsələləri öz həllini tapmalıdır.

## Yeni geosiyasi reallıq ölkənin iqtisadi inkişaf potensialını gücləndirib

Azərbaycan Vətən müharibəsində şanlı qələbə qazanmaqla uzun illər ərzində qeyri-qanuni şəkildə istismar olunan ərazilərinin aqrar-sənaye, ekoloji, hidroloji potensialını bərpa etmək imkanı qazanmışdır. Münaqişənin uğurlu həlli Azərbaycanın dövlət büdcəsinə daxilolmaların zamanla artmasına, o cümlədən sosial-infrastruktur layihələrinə daha çox maliyyənin ayrılmasına, insanların rifah halının yüksəldilməsinə imkan verəcəkdir. Müharibənin başa çatması, regionda dayanıqlı sülhün əldə olunması Azərbaycana xarici investisiya axınını daha da gücləndirəcək, xüsusən də işğaldan azad edilmiş ərazilərdə biznes üçün əlverişli imkanlar açılacaqdır.

Azərbaycan özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına Zəngəzur dəhlizi vasitəsilə quru yolu əldə edəcəkdir. Bu, Naxçıvan MR-in blokadadan çıxması, onun iqtisadi potensialının güclənməsi, ümumən türk dünyasının yeni kommunikasiya-nəqliyyat imkanları qazanması deməkdir. Yaranmış yeni geosiyasi vəziyyət regionun əsas ölkələri - Rusiya, Azərbaycan, Gürcüstan, Türkiyə, İran və Ermənistan arasında (3+3 formatda) yeni kommunikasiyaların formalaşdırılmasına yaxşı perspektivlər açmışdır.

İşğaldan azad edilmiş ərazilərdə yol-nəqliyyat infrastrukturunun inkişafı istiqamətində atılan addımlar - Fizuli-Şuşa yolunun inşası, eləcə də Füzuli, Zəngilan və Laçın rayonları ərazisində yeni beynəlxalq hava limanlarının təməlinin qoyulması regionun tranzit-kommunikasiya əhəmiyyətinin daha da yüksəldilməsi baxımından əhəmiyyətlidir. Reallaşdırılması nəzərdən keçirilən Horadiz-Ağbənd, Zəngilan-Naxçıvan və Naxçıvan-Türkiyə dəmir yolu layihələri təkcə Azərbaycan üçün deyil, Rusiya, İran və Ermənistan üçün də mühüm əhəmiyyətə malikdir.

Zəngəzur dəhlizi eyni zamanda Rusiya Federasiyasının Türkiyəyə Gürcüstandan kənar yeni avtomobil və dəmir yolu marşutu əldə etməsinə imkan yaradacaqdır. Zəngəzur dəhlizinin reallaşması regionda yeni geosiyasi və geoiqtisadi reallıqlar yaratmaqla, din, dil, kök bağları eyni olan türkdilli ölkələri bir-birinə daha qırılmaz tellərlə bağlayacaqdır. Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri eyni zamanda ağır sosial-iqtisadi durumda olan Ermənistan üçün də əlavə imkanlar açacaqdır.

Horadiz-Ağbənd dəmir yolu xəttinin inşasına başlamaqla Azərbaycan Zəngəzur dəhlizinin reallaşması istiqamətində praktiki işlərə start vermişdir. Ümumi uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xətti strateji əhəmiyyətə malikdir. Bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və Bakı-Tbilisi-Qars xəttindən sonra Azərbaycanı Türkiyə ilə birləşdirəcək ikinci dəmir yolu şəbəkəsi olacaqdır.

Azərbaycan bununla postmüharibə dövründə regional əməkdaşlığın inkişaf etdirilməsində maraqlı tərəf olduğunu bir daha nümayiş etdirir. Eyni zamanda rəsmi Bakının mövqeyi həm də bundan ibarətdir ki, bölgənin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün nəqliyyat layihələri xüsusi rol oynayır.

Respublikamız işğaldan azad edilmiş ərazilərindəki təbii sərvətlərindən, qızıl, mis, əhəng, mineral, termal sular və s. ehtiyatlarından istifadə edərək iqtisadiyyatını daha da inkişaf etdirəcəkdir. Ərazilərimizin işğaldan azad edilməsi Azərbaycanın su, torpaq və meşə ehtiyatlarının bərpasını və səmərəli istifadəsini təmin edəcəkdir. İşğal edilmiş ərazilərdəki Suqovuşan və Xudafərin su anbarlarının su ehtiyatlarından səmərəli istifadə Azərbaycanın suvarma və içməli su problemlərinin həllini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq, aqrar sektorun, heyvandarlığın inkişafında yeni mərhələ yaranacaqdır.

Pandemiya ilə bağlı dünya iqtisadiyyatında tənəzzül və resessiya proseslərinin dərinləşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı 2021-ci lin müvafiq dövründə yüksək artım templəri nümayiş etdirir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, yanvar-iyul aylarında ölkədə 47 milyard 262,3 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,7 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Qeyd olunan dövr üçün uğurlu iqtisadi göstəricilərdən biri də əhalinin hər nəfərinə düşən ÜDM-in 4 720,8 manat, qeyri-neft sektoru üzrə artımın 5,3 faiz təşkil etməsidir. 2021-ci ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 1,4 mlrd. ABŞ dolları təşkil etmiş, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 316,7 milyon ABŞ dolları və ya 30,5 faiz artmışdır.

2021-ci ildə dünyada sənaye artımının 3,5 faiz olacağı proqnozlaşdırıldığı halda, Azərbaycanda qeyri-neft sənayesinin 16,4 faiz təşkil etməsi, ilk növbədə, regionlarda yaradılmış yeni sənaye məhəllələri və parklarının fəaliyyəti ilə şərtlənir. Aparılan davamlı islahatlar qeyri-neft sənayesinin, ümumilikdə, qeyri-neft sektorunun inkişaf drayverinə çevrilməsinə zəmin yaradır. İlin birinci yarısında inflyasiyanın cəmi 4,3 faiz təşkil edərək Mərkəzi Bankın müəyyənləşdirdiyi dəhlizə müvafiq olması, neftin yüksək qiymətləri nəticəsində dövlət büdcəsində profisitin yaranması, strateji valyuta ehtiyatlarının dövlətin xarici borcunu altı dəfəyədək üstələməsi, idxal-ixrac əməliyyatlarında müsbət saldonun yaranması makroiqtisadi sabitlik üçün fundamental əsaslar sayıla bilər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına əsasən, 2021-ci ilin birinci yarısında Azərbaycanda iqtisadi artım templəri beynəlxalq təşkilatların proqnozlarını xeyli dərəcədə üstələmişdir. Respublikamız 2021-ci ildə "Doing Business" hesabatında 34-cü yerdən 28-ci yerə, "İqtisadi azadlıq indeksi" hesabatında 44-cü yerdən 38-ci yerə, "Qlobal kibertəhlükəsizlik" hesabatında 55-ci yerdən 40-cı yerə yüksəlmişdir.

Ötən illərdə gömrük sahəsində aparılmış islahatlar - "Yaşıl Dəhliz", "Avtomatlaşdırılmış Gömrük Sistemi" və "Bir pəncərə" elektron sisteminin yaradılması, gömrük bəyannamələrinin elektron qaydada qəbulu, gömrük rüsumları və vergilərinin elektron formada ödənilməsi Azərbaycanda ticarət prosedurlarının sadələşdirilməsinə imkan yaratmışdır.

"Dünya İnvestisiya Hesabatı - 2020"-də göstərilir ki, Azərbaycan postsovet məkanında Rusiya və Qazaxıstanla birlikdə ən çox xarici sərmayə cəlb edən ölkələrin üçlüyündədir. Bu isə, ilk növbədə, biznes mühitinin liberallaşdırılması istiqamətində həyata keçirilən islahatlarla şərtlənir. Dünyanın əsas iqtisadi beyin mərkəzlərindən sayılan İrs Fondunun hazırladığı "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında Azərbaycanın mövqeyi 6 pillə yaxşılaşaraq 172 ölkə arasında 38-ci yerdə qərarlaşmışdır. Ölkəmiz iqtisadi azadlıq üzrə mümkün 100 baldan 70,1 bal toplamışdır. Bu, Azərbaycanda iqtisadi fəaliyyət azadlığı üçün geniş imkanların olduğunu bir daha təsdiqləyir.

Bir sıra beynəlxalq maliyyə qurumlarının, o cümlədən Beynəlxalq Valyuta Fondu və Dünya Bankından sonra "Fitch" reytinq agentliyinin də Azərbaycan üçün açıqladığı proqnozlar qənaətbəxşdir. Agentlik bu il Azərbaycanda valyuta ehtiyatlarının əhəmiyyətli dərəcədə artımını proqnozlaşdırır. Qurumun hələ may ayında Azərbaycanın reytinqi üzrə "BB+" proqnozunu "mənfi"dən "stabil"ə yüksəltməsi ölkəmizin pandemiyaya və ötən il neftin qiymətlərinin azalmasına dayanıqlığını əks etdirir. "S&P Global Ratings" reytinq agentliyi isə növbəti yarımillik baxışdan sonra Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli və qısamüddətli suveren kredit reytinqlərini "BB+/B" səviyyəsində təsdiqləmiş, uzunmüddətli reytinqlər üzrə proqnozu "stabil" saxlamışdır.

*Təhlillər göstərir ki, ölkəmizdə sosial təminatın güclənməsi məqsədilə dövlət büdcəsindən ayrılan xərclərin miqdarı artan xətt üzrə inkişaf edir. Bu, bir daha təsdiqləyir ki, ölkədə həyata keçirilən iqtisadi siyasətin mahiyyətində duran əsas məqam məhz xalqın sosial rifahının daha da yaxşılaşdırılması fonunda Azərbaycanın daha qüdrətli ölkəyə çevrilməsidir. Bu, əslində, Azərbaycan Prezidenti İlham Əliyevin sosial-iqtisadi siyasətinin əsas məqsədidir.*

***Əlican BABAYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)***
***İqtisadi nəzəriyyə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor***



# Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir! 30



# Güclü dövlət - müstəqil siyasət

*Əvvəli 1-ci səh.*

Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynadı. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərdi. 1918-ci il 28 may Azərbaycan tarixinə müstəqillik günü, milli qürur və şərəf günü kimi yazıldı. Haqlı olaraq biz müsəlman aləmində ilk demokratik respublikanın yaradıcıları kimi bu tarixlə fəxr edirik. Amma bu şərəfli tarix uzun sürmədi, bolşevik-daşnak quldurların və onların rəhbərlərinin cinayəti nəticəsində 23 aydan sonra süqut etdi. Bolşevizmin istiqlal üzərində 70 illik hakimiyyəti başlandı. Düz 70 ildən sonra - 1990-cı il yanvarın 20-də sovet tankları müstəqillik uğrunda mücadiləyə qalxmış vətəndaşlarımızın üzərinə yeridi. Şəhidlər verdik, böyük itkilərə məruz qaldıq, amma bu qanlar bahasına itirilmiş azadlığımızı, müstəqilliyimizi bərpa etməyə nail olduq. 1991-ci ilin 18 oktyabrı tariximizə Dövlət Müstəqilliyinin bərpası günü kimi həkk olundu. 30 il əvvəl Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bu akt cümhuriyyətin süqutu və bolşevik işğalı nəticəsində yarıda qırılmış müstəqil dövlətçilik ənənələrinin bərpası demək idi. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyini bütün dünyaya bəyan etmiş oldu. 30 ilin böyük bir dövrü isə azadlığımızı, suverenliyimizi qorumağa əzmlə nail olan Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan yaratmaq uğrunda titanik fəaliyyət illəridir.

Həmin ağır, təlatümlü və gərgin vaxtlarda ölkəmizin əldə etdiyi bütün inkişaf göstəriciləri, Azərbaycanda aparılan tikinti-quruculuq tədbirləri, ölkənin simasında müsbətə doğru baş verən dəyişikliklər, milli mədəniyyətimizin inkişafı yönündə atılan ardıcıl addımlar, ana dilimizin, milli ruhumuzun mühafizəsi məhz Ulu Öndərin iradəsinin, məqsədyönlü fəaliyyətinin, hətta ən çətin şəraitlərdə belə Azərbaycanı qoruyaraq irəli aparmaq əzminin nəticəsi idi.

## Qətiyyətli lider amili

30 il əvvəlki məğlubiyyətlərimizin, üzləşdiyimiz faciələrin, verdiyimiz itkilərin əsas səbəbi isə o idi ki, həmin vaxtlarda güclü bir liderə malik deyildik. Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini əldə etsə də, defakto bu niyyətini reallaşdıra bilməmiş, hakimiyyəti ələ keçirən naşı və səriştəsiz qüvvələr ölkənin keyfiyyətcə yeni mərhələdə üzləşdiyi problemlərin öhdəsindən gəlmək iqtidarında olmamışlar. Nəticədə ölkədə iqtisadi tənəzzül prosesi dərinləşmiş, xalqın yaşayış səviyyəsi pisləşmiş, qanunçuluğun, hüquq qaydalarının təminatında ciddi problemlər yaranmışdı. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermiş, qanunçuluğun və hüquq qaydalarının təminatı, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ən nəhayət, ictimai asayişin qorunması sahəsində əsaslı problemlər meydana çıxarmışdı. Digər tərəfdən hakimiyyət hərisləri milli dövlətçiliyimizin sükanı arxasında güclü, qətiyyətli Liderin olmasını istəmirdilər.

Azərbaycan xalqı 1980-ci illərin sonlarından başlayaraq müstəqillik mübarizəsinə Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə yaratdığı möhkəm təməllərdən güc alaraq başlamışdı. O illərdə azadlıq uğrunda mübarizlərin çoxu Heydər Əliyevin cəmiyyətdə görünməkdə olan milli oyanış ruhunun yetişdirdiyi gənclik idi. Həmin tarixi günlərdə xalqın önündə dayanan insanların çoxu Ulu Öndərin sovet dövründə təzyiqlərdən qoruduğu, yaradıcılığına istiqamət verdiyi ziyalılar idi.

Ona görə də ötən əsrin sonlarında dünyada böyük dəyişikliklər başlananda, SSRİ boyda nəhəng imperiya süqutuna doğru yaxınlaşanda milli azadlıq mübarizəsinə qalxan və imperiyanın çöküşünü sürətləndirən ilk respublikalardan biri məhz Azərbaycan oldu. Milli ruhda yetişən gənclik meydanlara atılaraq xalqın istiqlal haqqı uğrunda mübarizəyə qalxdı. Bununla da geniş vüsət alan azadlıq hərəkatı Azərbaycanın ötən əsrdə ikinci dəfə dövlət müstəqilliyinə qovuşması ilə nəticələndi.

Tarixə obyektiv münasibət naminə onu da qeyd edək ki, 1918-ci ildən fərqli olaraq 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinin bərpasını elan edən müttəfiq respublikalar arasında birincilər sırasında olmadı. Həmin dövrdə ölkədə baş verən daxili çəkişmələr, xaos mühiti, məsələlərə fərqli baxışların olması, ən əsası isə Azərbaycanın işğalçı Ermənistan tərəfindən hərbi münaqişəyə cəlb edilməsi bu prosesi müəyyən qədər yubatdı. Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında sayca 13-cü oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ilin 17 oktyabrında Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbuldakı çıxışı zamanı bu faktı bir daha yada saldı: *“Bu, tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən iki ay əvvəl elan etmişdi”.*

Bu faktın özü də onu göstərir ki, qətiyyətli lider amili, vəziyyəti aydın görüb prosesləri xalqın maraqlarına uyğun şəkildə düzgün yönəltməyi bacaran rəhbərin geniş xalq kütlələrinin önündə addımlaması, öz mövqeyi, iradəsi, məsuliyyəti üzərinə götürmək əzmi ilə tarixi qərarların verilməsinə kömək göstərməsi bu məqamlarda da çox həlledicidir. Ötən əsrin 90-cı illərinin əvvəllərində belə bir liderə ehtiyac vardı. Həmin lider ancaq Ulu Öndər Heydər Əliyev ola bilərdi. Amma Azərbaycanın öz dövlət müstəqilliyini elan etməsi ərəfəsində Heydər Əliyevin siyasi proseslərdə fəal iştirakına çox ciddi maneələr vardı. Bu maneəni həm imperiya rəhbərləri, həm də o dövrdə Azərbaycanın siyasi meydanında söz sahibi olmağa çalışan təsadüfi adamlar yaradırdılar. Çünki onlar Heydər Əliyevin gücünü də, xalqın ona sonsuz rəğbətini də yaxşı bilirdilər. Anlayırdılar ki, əgər Heydər Əliyev siyasi meydanda olsa, xalq dövlətçilik təcrübəsinə, dəmir iradəsinə, qətiyyətinə, Azərbaycan sevgisinə dərindən bələd olduğu Ulu Öndəri kənarda qoyub, siyasətdə, dövlət idarəçiliyində adı çəkilməyən naşı insanların ardınca düşməyəcək. Ona görə də hər vəhclə Heydər Əliyevə mane olmağa çalışırdılar. İmkanlarını məhdudlaşdırırdılar. Bununla belə, Ümummilli Lider ən çətin şəraitlərdə də cəsarətli addımları ilə maneələri yarır, xalqımıza öz mövqeyi ilə düzgün yol göstərirdi. Müstəqillik yolunu nişan verirdi.

## Dövlət müstəqilliyinin banisi

1990-cı ilin 20 Yanvar günü imperiya ordusu Bakıda dinc azərbaycanlılara qarşı qətliam törədərkən Ulu Öndər Heydər Əliyev bu yolda çox önəmli, ciddi addımlar atmışdı. Faciədən dərhal sonra Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedərək mətbuat konfransı keçirmiş, xalqımıza qarşı bu cinayət əməlini pisləmiş, onu törədənləri bütün dünyada ifşa etmişdi. Onda Heydər Əliyev Moskvada yaşayırdı. Bütün repressiya mexanizmləri hələ də sərt şəkildə işləyən, 20 Yanvar kimi qanlı cinayətləri, kütləvi qırğınları törətməkdən belə çəkinməyən imperiya rəhbərliyinin ciddi təzyiqləri altında idi. Hətta həyatına belə ciddi təhlükə vardı. Buna baxmayaraq, Heydər Əliyev 20 Yanvar faciəsindən sonra xarici media qurumlarının təmsilçiləri qarşısında, kamera və mikrofonlar önündə Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürən, onları ittiham edən, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini öz adı ilə çağıran ilk şəxs oldu. Heydər Əliyev onu gözləyən təhlükələrdən qorxmadan bütün bunları etdi. Bununla həmin təlatümlü, ağır günlərdə onun sözünün, rəyinin intizarında olan Azərbaycan xalqına ən düzgün istiqaməti, müstəqillik haqqının olduğunu göstərdi. Xalqı o kövrək, dərdli, özünü kimsəsiz hiss etdiyi ağır günlərdə ruhdan düşməyə qoymadı.

Daha sonra Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi. Bu da müstəqillik uğrunda ilk addımlardan biri idi. Çünki ilk dəfə idi ki, keçmiş SSRİ-nin ali rəhbərliyində təmsil edilən, Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü olan şəxs Kommunist Partiyası sıralarından istefa verirdi. Heydər Əliyev bu məsələdə də böyük qətiyyət göstərdi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək “Sovet Sosialist” sözlərini onun adından çıxartdı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı da o vaxt məhz Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Naxçıvanın dövlət bayrağı kimi elan edildi. Eyni zamanda Azərbaycan Ali Soveti qarşısında da belə bir addımın atılması üçün vəsatət qaldırıldı.

Prezident İlham Əliyev o dövrdə ölkəyə rəhbərlik edənlərin eyni qətiyyəti göstərə bilməməsini təəssüflə xatırlayır: *“Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir”.*

## Müstəqillik tariximizin 3 dövrü

Müstəqilliyimizin ilk illərində Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməməsi də xalq olaraq tarixi itkimizdir. Əgər o günlərdə Azərbaycanın rəhbəri Heydər Əliyev kimi qüdrətli dövlət xadimi olsaydı, biz böyük itkilərlə üzləşməz, ağır faciələr yaşamazdıq. Əfsus ki, müstəqilliyin ilk illərində Azərbaycanın taleyi nabələd adamların əlində oldu. Ona görə də ölkəmiz 1991-1993-cü illərdə çox böyük problemlərlə üzləşdi. *“Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi. O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli birlik yox idi”* - deyə Azərbaycan Prezidenti o dövrü belə xatırlayır. Bu dövrün nəticəsini qısaca olaraq belə xarakterizə edə bilərik ki, Azərbaycan nəinki müstəqilliyini qorumaq, ümumiyyətlə, vətəndaş müharibəsinin, bir neçə yerə parçalanmaq, dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsinin bir addımlığına gəlib çatmışdı.

Azərbaycan Prezidenti qeyd edir: *“1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi”.*

Ümummilli Lider Heydər Əliyevin o illərdə xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı dövlətimizin xilas anı idi. Bu qayıdışdan sonra müstəqilliyimizin ilk mərhələsindəki böhran tədricən aradan qalxmağa başladı. Ölkəni vətəndaş müharibəsi ilə təhdid edən qanunsuz silahlı birləşmələr tərk-silah olundu, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Çox ciddi siyasi islahatlara başlanıldı, sivil siyasi sistem, vətəndaş cəmiyyəti ənənələri formalaşdırıldı. Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Qonşularla ən son həddə qədər pozulmuş münasibətlər nizama salındı. Azərbaycanda iqtisadi islahatlara start verildi, bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Xarici siyasət prioritetləri məhz həmin illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi öz inkişafına başladı. Ölkəmiz tarixdə ilk dəfə olaraq Xəzər dənizində birgə işləməyi xarici investorlara təklif etdi. Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və respublikamız inkişaf etməyə başladı. Beləliklə, məhz o illərdə dövlətin gələcəyi ilə bağlı strateji addımlar atıldı və bu yolun nə qədər düzgün olduğunu indi tarix sübuta yetirir.

Ulu Öndər Heydər Əliyev müstəqil dövlətin milli ideologiyasını yaratdı - azərbaycançılıq təlimini dövlətçilik ideologiyasına çevirdi. Ümummilli Lider bütün mədəniyyətimizi, tariximizi, etnoqrafiyamızı, çoxəsrlik adət-ənənələrimizi, klassik yazılı və şifahi ədəbiyyatımızı, nəhayət, ana dilimizi azərbaycançılığın təməlinə gətirdi, onun izahına yönəltdi. Ulu Öndər ötən illər ərzində bu deyilənlərin hamısını əzmlə reallaşdırmağa nail oldu. Böyük rəhbər təkcə müstəqilliyi möhkəmləndirmədi, onu qorumağın yollarını öyrətdi, prioritetlərini göstərdi və ən əsası gələcəkdə müstəqilliyi tarixdə irəli apara biləcək lideri nişan verdi.

Azərbaycanın öz inkişaf və sabitlik dövrünü yaşadığı 1993-2003-cü illər müstəqilliyimizin ikinci dövrüdür. 2003-cü ildən sonra isə müstəqillik tariximizdə yeni bir səhifə açılır. 2003-cü ildə xalqımız ölkənin bundan sonra hansı yolla gedəcəyi barədə tarixi qərarını verdi, Ulu Öndərin “Mən ona özüm qədər inanıram” əminliyinə söykənərək Azərbaycanın gələcəyini dövlət başçımız İlham Əliyevə etibar etdi. Həmin vaxtdan başlanan möhtəşəm tarix dövlət müstəqilliyimizin üçüncü dövrüdür və bu, ikinci dövrün məntiqi davamıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəlki illərin bütün nailiyyətlərini qoruyaraq Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı möhkəm təməllər üzərində ölkəmizi milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yetirmişdir. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın öz torpaqlarını düşməndən təmizləməsi, ərazi bütövlüyünü bərpa etməsi, işğalçı Ermənistanı kapitulyasiya aktına imza atmaq məcburiyyətində qoyması Ali Baş Komandan İlham Əliyevin adını milli dövlətçilik salnaməmizə Müzəffər Sərkərdə kimi əbədi yazması müstəqillik tariximizin ən möhtəşəm nailiyyətidir.

Dönməz siyasi iradə, intellektual düşüncə tərzi, yüksək nitq mədəniyyəti, ən çətin danışıqlarda müsahibini asanlıqla təslim edən diplomatik təfəkkür və məntiq Azərbaycan Prezidenti İlham Əliyevə böyük beynəlxalq nüfuz gətirən başlıca cəhətlərdir. Elə bu əzəmətli xüsusiyyətlərlə də o, Ulu Öndərin “Müstəqilliyimiz əbədidir, dönməzdir” deyərək müəyyən etdiyi yolla Azərbaycan xalqını tarixin çətinliklərindən çıxararaq istiqlal dolu sabahlara aparır.

## 1918-ci ildə elan edilən, 1991-ci ildə bərpa olunan müstəqilliyimiz

Bu gün Azərbaycan qlobal siyasətdə qətiyyətli mövqe sahibidir. Ölkəmizi, Prezident İlham Əliyevi Azərbaycanın milli maraqlarından bir addım da olsun geri çəkilməyə məcbur etməyin mümkünsüzlüyünü indi bütün dünyada hər kəs anlayır. Bu mövqeyi güclü edən Azərbaycanın 30 ildə müstəqil yaşamağı bacarmasıdır. Bunun üçün bütün sosial-iqtisadi, mənəvi-siyasi şərtləri təmin edə bilməsidir. Azərbaycan heç kimdən asılı olmadan uğurla müstəqil həyat yaşaya biləcəyini, bunun üçün bütün imkanlara sahib olduğunu hər kəsə sübut edib. Dövlətimizin müəllifi olduğu, ölkələrin üzünə yeni imkanlar açdığı qlobal layihələrlə indi dünyanın Azərbaycana daha çox ehtiyacı var. Ölkəmiz xalqın milli vəhdətinə, fərqli mədəniyyətlərə hörmət ruhuna, tolerantlıq ənənələrinə görə hazırda bütün dünyaya örnəkdir. Genişmiqyaslı infrastruktur layihələri ilə gözəlləşən şəhərlərimiz, abadlaşan regionlarımız, inkişaf axarına qovuşan ən ucqar kəndlərimizlə Azərbaycan bu gün nəhəng bir quruculuq meydanını xatırladır. Vətən övladlarının sorağı dünyanın ən mötəbər yerlərindən gəlir. Ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi humanitar təşəbbüslərlə dünya bizi daha yaxından tanıyır, milli mədəniyyətimizə heyran olur, ölkəmiz mənəvi incilərimizlə, tolerantlıq, multikulturalizm ənənələrimizlə bəşəriyyətə fayda verir.

Bütün bunlar müstəqilliyimizin uğurlu nailiyyətləri, misilsiz töhfələridir. 1918-ci ildə elan edilən, 1991-ci ildə isə bərpa olunan müstəqilliyimizin tarixi nəticələridir. Azərbaycan xalqın iradəsi ilə gələcəkdə də bu alternativsiz yolla irəli gedəcək, yeni tarixi qələbələrə, uğurlara imza atacaq.

Xalqımız 30 ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib ölkə kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm daşıyır.

Azərbaycan xalqı ötən əsrin əvvəlində müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdir. Milli Məclisdə bu məsələ ilə bağlı “Müstəqillik günü haqqında” qanun layihəsi müzakirə olunaraq qəbul edilib. Azərbaycanın Zəfəri və dövlətçilik tarixi baxımından həmin əlamətdar günlərin əhəmiyyəti, daşıdığı məna yükü xüsusi qeyd edilib. Beləliklə, 1918-ci ildə İstiqlal Bəyannaməsinin qəbul olunduğu 28 may Azərbaycan Respublikasında Müstəqillik günü, 1991-ci ildə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul olunduğu 18 oktyabr isə Müstəqilliyin bərpası günü kimi bəyan olunub.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

# Müstəqilliyimizi möhkəmləndirən əsas şərt - xalq-iqtidar birliyi

*Əvvəli 1-ci səh.*

Rusiya Elmlər Akademiyasının Uzaq Şərq İnstitutunun baş elmi işçisi Vasili Kaşin yazır ki, XXI əsrdə Azərbaycanın hərbi büdcəsi Ermənistanın hərbi büdcəsini orta hesabla 3-5 dəfə üstələyirdi, bəzi illərdə isə Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün dövlət büdcəsindən yüksək idi. Yeri gəlmişkən qeyd edək ki, müharibədən bir il əvvəl Azərbaycan Türkiyədən fəal şəkildə silah almağa başlamışdır. Reuters-in Türkiyə İxracatçılar Assambleyasına istinadən verdiyi xəbərə görə, qardaş ölkədən Azərbaycana silah ixracı 6 dəfə artaraq avqustda dəyəri 36 milyon, sentyabrda isə 77 milyon dollara çatmışdır.

Ümumiyyətlə, hərbi ekspertlər belə qənaətdədirlər ki, Azərbaycanın silahlanmaya çəkdiyi xərclər xaotik addımlar atan Ermənistandan dəfələrlə mənalı və məqsədyönlü olmuşdur. Azərbaycanda uzun illər ərzində silahlanma zərgər dəqiqliyi ilə aparılmış və ən incə məqamlar belə diqqətdən qaçırılmamışdır. Azərbaycan dövləti artıq vəsait israf etmədən hərbi işlərdə bütün son tendensiyaları diqqətlə nəzərə almış, yalnız ehtiyac duyduqlarına sahib olmuşdur. Bundan başqa, Yaxın Şərqdəki müharibə təcrübəsi dərindən öyrənilmiş, Qarabağ müharibəsi üçün nümunəvi bir model işlənilib hazırlanmışdır. Özü də bu modeldə münaqişənin sırf hərbi aspektləri deyil, həm də siyasi, iqtisadi və təbliğat aspektləri öz əksini tapmışdır.

Bunun fonunda isə Ermənistanın keçmiş prezidentləri hakimiyyətdə olduqları illər ərzində qalib duruşda poz verib podiuma çıxan manikenlər kimi yerişlərindən zövq alır, özlərini “döyüşkən və cəsur xalq”ın liderləri kimi reklam edərək işğal etdikləri Azərbaycan torpaqlarından bir qarış belə, geri çəkilməyəcəklərini həyasızcasına bütün dünyaya bəyan edirdilər. Onlar Azərbaycanla davranışlarında beynəlxalq hüquq normalarına riayət edilməsini vacib saymırdılar. Çünki olmayan güclərinə və bir də yazılarına pozu olmadığına əmin idilər. Odur ki, işğal ərzində Azərbaycan tərəfinin bütün sülh təkliflərinə az qala istehza ilə yanaşır, onları qulaqardına vurur, yalnız status-kvonu əbədi saxlamağa çalışırdılar. Erməni siyasi elitası himayədarlarının qanadı altında beləcə şişir və ara-sıra da Qarabağda yallı gedib viski gillədir, özlərinə villa tikib şellənirdi. Erməni millətçiləri isə özlərini üçbaşlı əjdaha kimi aparırdılar. Əjdahanın üç başı Rusiya, Fransa və ABŞ-dakı erməni diasporu, bədəni də od püskürən əjdaha başlarının alovunda yanan erməni xalqı idi.

Amma reallıqda düşmən tərəfi bu təqdimatdan qat-qat zəif idi. Bu baxımdan beynəlxalq analitiklərin Ermənistanda qalmaqal yaradan bir sıra uğursuz silah satınalmaları haqqında açıqlamaları xüsusi maraq kəsb edən faktlarla zəngindir. Belə faktlardan biri “Jane's Defence Weekly” tərəfindən yayımlanan bir xeyli modernləşdirilmiş Osa AK zenit-raket komplekslərinin İordaniyadan gətirilməsi ilə bağlı idi. Ermənistanın müasir hava hücumundan müdafiə sistemlərini birbaşa Rusiyadan ala biləcəyi halda, müsəlman ölkəsindən olduqca köhnə komplekslərə tamah salması erməni generallarının korrupsiyaya qurşandıqlarını təsdiq edir. Digər tərəfdən, hərbi ekspertlər bir yana, elə Ermənistan cəmiyyətinin özü Rusiyadan 4 ədəd Su-30SM təyyarəsinin alınmasını ağılsızlıq saymış, buna müharibə ərəfəsindəki silah ticarətində ən uğursuz sövdələşmə kimi hiddətlənmişdi. Həm də nəzərə alaq ki, bu təyyarələr üçün raketlər və digər sursatlar alınmamışdı. Bu təyyarələr - Azərbaycan Miq-29-larından daha güclü və daha bahalı döyüş maşınları olsa da, onlar Qarabağ hərbi əməliyyatlarında həddindən artıq iri, yöndəmsiz və gərəksiz göründülər və faktiki olaraq heç nəyə yaramadılar.

Azərbaycan tərəfi isə müstəqilliyinin ilk günündən mükəmməl ordu quruculuğuna start vermişdi. Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra hələ sovet dönəmindən bünövrəsini qoyduğu ordu quruculuğuna yenidən başlamışdı. Onun gördüyü böyük işləri isə Prezident İlham Əliyev 18 ilə yaxındır ki, yüksək səviyyədə davam etdirir. Bizim möhtəşəm qələbəmiz dövlət başçısının ordu islahatlarının son nəticəsidir.

Əlbəttə ki, ordu quruculuğu ölkədə aparılan ümumi islahatların tərkib hissəsi idi. İqtisadi qüdrəti getdikcə artan dövlətimiz müasir tələblərə cavab verən zabit korpusunu yetişdirdi, bütün qoşun növlərinin hazırlıq səviyyəsini müasir müharibələrin tələbləri səviyyəsinə qaldırdı, yeni qoşun növlərini, xüsusi təyinatlıların müxtəlif növlərini yaratdı. Ən müasir silahlarla ordumuz təchiz edildi. Ən başlıcası isə aparıcı ölkələrin, ilk növbədə qardaş Türkiyənin silahlı qüvvələri ilə mütəmadi keçirilən təlimlər Azərbaycan Ordusunu yeni səviyyəyə qaldırdı. Bir sözlə, Azərbaycan Prezidenti dəmir iradəsi və Ali Baş Komandan qətiyyəti ilə NATO standartlarına cavab verən müasir ordu qurdu. Təsadüfi deyil ki, Vətən müharibəsindəki qələbəmizdən sonra ilk növbədə NATO hərbi blokuna daxil olan ölkələr hərb doktrinalarının yenidən nəzərdən keçirilməsinin zəruriliyini etiraf etdilər. Bu, Azərbaycan Ordusunun heç vaxt heç kimin ağlına belə gəlməyən yeniliklər, fərqli taktika və strategiya tətbiq etməsi ilə bağlı idi.

Bu günün özündə beynəlxalq hərbi ekspertlər, tədqiqatçılar və yeni müharibə strateqləri Azərbaycanın apardığı müharibəni öyrənir, bütün döyüşləri analiz edir və bunun əsasında gələcək müharibələrin nəzəri konturlarını cızırlar. Məsələn, “The Foreign Policy” nəşrinin yazdığına görə, alovlanan münaqişə həm insanların, həm də zirehli maşınların qarşısında aciz qaldıqları pilotsuz uçuş aparatlarının istifadəsinin yüksək səmərəliliyini göstərdi. Mütəxəssislərin fikrincə, gələcək müharibələrdə pilotsuz təyyarələr və yerüstü vasitələr daha mühüm rol oynayacaq. Bunları nəzərə alaraq amerikalı mütəxəssislər belə bir qənaətə gəlmişlər ki, Amerika ordusu döyüşə hazır vəziyyətdə qalmaq üçün həm texnikasını, həm də hərbi münaqişələrdə iştirak strategiyasını dəyişməli, xüsusilə qurğuların, o cümlədən avadanlıqların kamuflyajına və ordu rabitəsi üçün FM tezliklərinin istifadəsinə daha çox diqqət yetirməlidir.

ABŞ Müdafiə Nazirliyinin bir hissəsi olan West Point Hərbi Akademiyasının Hərbi Təlim Bölümü nəzdindəki Müasir Müharibə İnstitutu isə Şuşada şəhər döyüşlərini öyrənərək belə qənaətə gəlmişdir ki, hərbi kampaniyalar zamanı hərbçilər həlledici əraziləri, xüsusən şəhərləri ələ keçirmək üçün hücum əməliyyatlarına qadir olmalıdırlar. Şuşa döyüşləri göstərdi ki, erməni hərbi qüvvələri şəhər ərazisini müdafiə edərkən döyüşün gedişatı haqqında tam təsəvvürə və çoxqatlı müdafiə planlarına malik olmamışlar.

Almaniyada SPD parlament fraksiyasının sədr müavini Gabriela Heinrich də tarixdə ilk dəfə olaraq silahlı qarşıdurmanın nəticəsinin yalnız dronların istifadəsi ilə həll edildiyini bildirmişdir. Onun dediyinə görə, bunun nəticəsində bütün koordinasiya sistemi dəyişmiş və dronlardan quru qoşunların əlavə bir müdafiə elementi kimi istifadəni inandırıcı etmişdir. Heinrich yazır ki, Qarabağ müharibə fəlsəfəsi nəzərə alınmaqla təcili yeni bir müzakirəyə ehtiyac var.

Lakin Qarabağ müharibəsinin ən vacib detalı - xalq-iqtidar birliyi beynəlxalq ekspetlərin diqqətindən kənarda qalmışdır. Bəli, üzü Ulu Öndərdən bəri davam edən ordu quruculuğu, iqtisadi islahatlar, Azərbaycanda baş verən köklü dəyişikliklər xalq-iqtidar birliyinin güclü və sarsılmaz təməlini qoymuş və möhtəşəm qələbəmizi qaçılmaz etmişdir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



◆ Zəfərin izi ilə



# “Dəmir yumruğ”un Füzuli salnaməsi

## Bir il öncə işğaldan azad olunan “Qarabağın Şərq qapısı” bu gün sürətlə dirçəlir

*Əvvəli 1-ci səh.*

### Füzuli erməni faşizminin vəhşətini yaşayıb

İlkin adı Qarabulaq olan Füzuli inzibati ərazi vahidi kimi 1827-ci ildə yaradılıb. Rayon kimi 8 avqust 1930-cu ildə təşkil olunub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində isə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişdirilərək Füzuli qoyulub.

Füzuli rayonunun ərazisində müxtəlif dövrlərdə aparılan tədqiqatlar zamanı buranın qədim Azərbaycan torpağı olduğu sübuta yetirilib. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal - Azıxantrop adamın alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb.

1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal edilmiş Füzulidə Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir çox abidələr olsa da, onların hamısı işğalçılar tərəfindən məhv edilib. Füzuli işğal dövründə erməni vandalizminin ən sərt üzünü görən rayonlardan biri olub. Buradakı evlər, tarixi, mədəniyyət və memarlıq nümunələri, qəbirüstü abidələr yerlə-yeksan edilib. Ermənilər hətta qəbiristanlıqlardakı məzarları texnikalarla qazaraq onların izini itiriblər. Bir sözlə, Füzuli tamamilə dağıdılıb, viran qoyulub.

İşğaldan azad edildikdən sonra Füzulini ilk dəfə görən insanda sanki burada əvvəllər heç bir şəhərin, kəndin olmadığı təəssüratı yaranır. Erməni barbarları şəhəri o dərəcədə dağıdıblar ki, Azərbaycan Ordusu bu şəhəri azad etdikdən sonra orada dövlət bayrağını dalğalandırmaq üçün bir salamat bina tapa bilməyib.

Prezident İlham Əliyev işğaldan azad edilən Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldıran zaman etdiyi çıxışında dağıdılmış Füzuli şəhərini erməni faşizminin canlı şahidi adlandırıb: “Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi”.

Füzuli rayonunun işğaldan azad olunan Merdinli kəndinə səfər edən Liviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Əşrəf Adəm də Qarabağdakı erməni vəhşiliyinin misli-bərabərinin olmadığını deyib: “Merdinli kəndində müsəlmanların ibadət yerini-məscidi tövlə kimi istifadə ediblər. Bu, əsl vandalizm aktıdır. Mən məscidə daxil olanda onun divarlarında təhqiramiz şəkillər gördüm. Bu addım bütün müsəlmanların dini hisslərini təhqir edir. Nəhayət ki, haqq öz yerini tapdı, Azərbaycan torpaqları işğaldan azad olundu. Mən bütün müsəlmanları buradakı dini abidələrin bərpasına yardım etməyə dəvət edirəm”.

Əlcəzairin Azərbaycandakı səfiri Səlimə Abdelhak qeyd edib ki, dağılmış Füzuli şəhəri uzun illər davam edən münaqişənin acı nəticələrini özündə əks etdirir. Bu şəhər həmin nəticələri görə bilmələri üçün öz qapılarını beynəlxalq müşahidəçilərin üzünə açıb.

### Füzuli əməliyyatı həm Azərbaycan, həm də dünya hərb tarixi üçün nümunədir

Füzuli Vətən müharibəsinin ilk günündən son gününədək ərazisi uğrunda döyüşlərin gərgin aparıldığı rayonlardandır. Müzəffər Ali Baş Komandanın xilaskarlıq missiyası nəticəsində 44 gün ərzində Füzulinin şəhər mərkəzi ilə yanaşı, 53 kəndi erməni işğalından azad edilib. Oktyabrın 17-də Füzuli şəhərinin azad edilməsi isə Azərbaycan Ordusunun cəbhənin cənub istiqamətləri üzrə irəliləməsi üçün daha geniş imkanlar yaratdı.

Ali Baş Komandan İlham Əliyev 2020-ci il oktyabrın 17-də xalqa müraciəti zamanı Füzulinin böyük hərbi peşəkarlıq nəticəsində işğalçılardan azad edildiyini açıqladı: “Strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik...Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar da”.

Dövlət başçısı deyib ki, düşmən 30 il ərzində təmas xəttində çox möhkəm istehkam qurduğu üçün bəziləri Füzuli şəhərinin işğaldan azad edilməsini mümkünsüz sayırdı: “Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək, hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi”.

Hərbi ekspert Ruslan İmanquliyev bildirir ki, düşmən şimaldan cənuba doğru bütün cəbhə boyu istiqamətlər üzrə müdafiəyə çox ciddi hazırlaşmışdı. Düşmənin istər Tərtər, istərsə Füzuli istiqamətində müdafiə üçün çox ciddi, tam mütəşəkkil hazırlığı olub və onlar ard-arda olan müdafiə xətlərinin hər birini xüsusi olaraq qoruyublar. Belə olan halda həmin xətləri keçərək hədəfə yaxınlaşmaq həqiqətən çox çətin idi. Hakim ərazilərdə olan düşmənin tank əleyhinə xəndəklərinin, dirəklərinin, minalanmış sahələrin, metal kirpilərin, piyada əleyhinə bir sıra əngəllərin olması döyüşün müqəddəratını dəyişə bilərdi. Ancaq ordumuzun Cəbrayıl istiqamətində yarma əməliyyatını uğurla icra etməsi, dərinliklərə doğru irəliləməsi, bununla yanaşı, xüsusi təyinatlılarımızın düşmənin arxasında əməliyyatlar həyata keçirməsi və bu əməliyyatların hərbi hava qüvvələri, o cümlədən raket və artilleriya qoşunları tərəfindən mütəşəkkil şəkildə dəstəklənməsi döyüşün müqəddəratını həll etdi. Digər tərəfdən, Cəbrayıl rayonunda irəliləyən qoşunlarımızın istiqaməti dəyişərək Hadrutu azad etməsi düşmənin mənəvi-psixoloji vəziyyətini darmadağın etdi.

Ekspert bildirir ki, məhz Hadrutun azad edilməsi ilə Füzuli istiqamətindəki düşmən qüvvələri mühasirə vəziyyətinə düşdülər: “Düşmənin bir çoxu ya olduğu yerdə məhv edildi, ya da geri çəkildi. Ümumi olaraq, döyüş sahəsinə baxdıqda görmək olar ki, burada bir xətt üzrə əks-hücum əməliyyatları aparılmayıb. Əməliyyatlar bütün sədd üzrə həyata keçirilib. Bu da bizim yüksək ali rütbəli komandirlərimizdən başlamış ən kiçik rütbəli komandirlərimizədək - hər kəsin hərb məharətinin, döyüş əzminin çox yüksək olduğunu göstərir. Düşmənin 30 illik hazırlığını nəzərə alsaq, Füzuli əməliyyatı həm Azərbaycan hərb tarixi, həm də dünya hərb tarixi üçün nümunə ola biləcək bir döyüş idi”.

### On illərlə ürəyimizdə yaşatdığımız arzumuza çatmışıq

1990-cı illərin əvvəllərində Azərbaycan Ordusunun ardıcıl davam edən məğlubiyyətlərindən sonra ilk qələbə məhz Füzuli rayonunda həyata keçirilən hərbi əməliyyatlar nəticəsində qazanılıb. Bu baxımdan Füzuli rayonunun Horadiz qəsəbəsinin adı ilə adlandırılan Horadiz əməliyyatı hərb tariximizdə özünəməxsus yer tutur. 1993-cü ilin dekabr-1994-cü ilin yanvar ayından başlayan uğurlu Horadiz əməliyyatı Füzuli istiqamətində strateji əhəmiyyətli yaşayış məntəqələrinin və yüksəkliklərin işğaldan azad edilməsinə imkan verdi. Bu əməliyyat zamanı Horadiz qəsəbəsi də daxil olmaqla, 22 yaşayış məntəqəsi Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Həmin dövr haqqında danışan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Bahar Muradova bildirir ki, hələ ötən əsrin əvvəllərində tarixi Azərbaycan torpaqlarında Ermənistan üçün bir dövlət yaradılsa da, onlar tərəfindən ölkəmizə qarşı yeni ərazi iddiaları davam etdi və bu, əsrin sonunda daha açıq xarakter aldı. Yaxın-uzaq havadarlarının açıq-gizli dəstəyi ilə Ermənistan bu iddialarını reallaşdırmaq üçün Dağlıq Qarabağın əvvəl Ermənistana birləşdirilməsi, daha sonra isə taktikanı dəyişərək onun müstəqilliyinə nail olmaq adı altında “mübarizəsini” elan etdi. Separatçılar “xalqların öz müqəddəratını təyin etməsi” prinsipini istismar edərək Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılması naminə faşist ideologiyasına əsaslanan təcavüzkar əməllərini genişləndirdi. Azərbaycanda ictimai-siyasi qüvvələrin hakimiyyət iddiaları, sabitliyin pozulması, ölkənin və ordunun vahid rəhbərliyinin olmaması və separatçı bölücülük cəhdlərinin geniş miqyas alması səbəbindən ölkəmiz ikinci dəfə öz müstəqilliyinin təhlükə altında qalması kimi aqibətlə üzləşdi. Azərbaycan əraziləri bir-birinin ardınca Ermənistan Silahlı Qüvvələri tərəfindən işğala məruz qaldı.

Bahar Muradova qeyd edir ki, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə müsbətə doğru dəyişikliklər Qarabağ məsələsi ilə əlaqədar vəziyyətə də təsirsiz ötüşmədi. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən 1994-cü il Horadiz əməliyyatı və onun nəticələri münaqişənin tarixində dönüş mərhələsi kimi dəyərləndirilir. O zaman üçün məhdud olan imkanların səfərbər edilərək, Füzuli istiqamətində bir çox kəndlərin və Horadiz qəsəbəsinin işğalçılardan təmizləndiyini görən düşmən artıq Heydər Əliyevin Ali Baş Komandanı olduğu Azərbaycan Ordusu ilə döyüşməyin mümkünsüzlüyünü nəzərə alıb 1994-cü ilin may ayında atəşkəsə razı oldu. Bundan sonra Azərbaycan və Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin uzun və üzücü danışıqlar mərhələsinə qədəm qoydu. Bu, öz-özlüyündə Azərbaycanı qane etməsə də, ölkənin bütün potensialını səfərbər edərək problemin kökündən, birdəfəlik həlli üçün imkan pəncərəsi idi. Və Azərbaycan bu imkandan maksimum istifadə etməyə nail oldu.

B.Muradova deyir ki, o zaman azad edilmiş ərazilərin qısa müddət işğal altında olmasına baxmayaraq, bütün yaşayış məntəqələri ciddi dağıntılara məruz qalmışdı: “Həmin kəndlər 44 günlük müharibədə azad edilmiş ərazilər kimi, yaşayışa tam yararsız vəziyyətdə idi. Sanki buralardan bir vəhşi qəbilə keçmişdi”.

B.Muradova əlavə edir ki, Azərbaycanda azad edilmiş ərazilərə qayıdış sözü məhz ilk dəfə o zamanlar işlədildi: “Doğrudur, o zaman bunun böyük qayıdışa çevriləcəyinə inananların sayı o qədər də çox deyildi. İnsanların ümidsizliyə qapılması üçün beynəlxalq proseslərdə erməni məsələsinə dəstək verən dairələrin fəallığı və Azərbaycan həqiqətlərinin eşidilməməsi kimi ciddi səbəblər var idi. Amma Heydər Əliyevin hakimiyyətə qayıtması bu məsələdə də düşüncələrin dəyişməsinə, Azərbaycanın region ölkələri, güc mərkəzləri, beynəlxalq təşkilatlarla sosial-iqtisadi, hərbi, humanitar sahədə əlaqələrinin inkişafına, ölkədəki tənəzzülün dayanmasına imkan yaratdı. Heydər Əliyevin hakimiyyəti dövründə artıq hər kəs Azərbaycanın müstəqilliyinə təhdid təşkil edəcək hər hansı cəhdin baş tutmayacağını, daha artıq ərazilərin işğalının mümkünsüzlüyünü, hətta həmin ərazilərin geriyə qaytarılması imkanlarının gücləndəcəyini anlamağa başladı”.

B.Muradova bildirir ki, müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistan və onun havadarlarının, erməni diasporunun gücü, erməni birliyi barədə yaradılmış mifi darmadağın etdi: “Azərbaycan inkişafının bir sıra parametrləri üzrə nəinki Ermənistanı, postsovet ölkələrinin hamısını, eləcə də bir sıra inkişaf etmiş ölkələri qabaqladı. Bütün bunlar, ilk növbədə, Qarabağ münaqişəsinin həllinə yönəlmişdi. Bir neçə lokal döyüşlərin olması Ermənistana qarşısında necə bir güclü Azərbaycanın dayandığını dərk etməyə imkan verdi. Həmin döyüşlər kifayət etdi ki, Ermənistanı bu məsələdə dəstəkləyən beynəlxalq dairələr ona artıq açıq şəkildə yardım etməkdən vaz keçsinlər. Odur ki, indi Ermənistan Azərbaycanın razılığı olmadan bölgənin çiçəklənməsinə xidmət edən hər hansı layihəyə qoşulmaq imkanından məhrumdur”.

B.Muradova nəzərə çarpdırır ki, münaqişənin həlli üçün Azərbaycan dəfələrlə hərbi gücdən istifadə edə biləcəyi ilə bağlı xəbərdarlıq etmişdi. Lakin Ermənistan bu prosesləri son vaxtlar özü sürətləndirdi. Daxili ictimai-siyasi vəziyyət hərbi-siyasi rəhbərliyin daha artıq səhvlər etməsinə və sentyabrın 27-də əks-hücum əməliyyatlarının başlamasına təkan verdi. Qısa müddət ərzində Azərbaycanın işğal altında olan əraziləri, o cümlədən Füzuli azad edildi: “Artıq Füzulinin azad edilməsindən 1 il ötür. Bu bir ildə Azərbaycan 100 illərə bərabər inkişaf və təkamül prosesi keçdi. Bu bir ilin hər günü dinamikada oldu və hər bir azərbaycanlı bu inkişafın bir hissəsi olmağı, tam olaraq birləşməyi bacardı”.

B.Muradova füzulililərin azad edilmiş kəndlərinə qayıdaraq orada yaşayacaqları günü səbirsizliklə gözlədiklərini də söyləyir: “İşğal insanların həyatını tar-mar etdi, onları ev-eşiklərindən didərgin saldı. Fiziki və mənəvi itkilərimiz oldu. Bu günü gözləyib, amma onu görməyərək dünyadan köçənlərimiz çox oldu. Mən özüm bu həyatın içində olmuşam. Ailəm, yaxınlarım köçkünlük həyatı yaşayıblar. Onlar artıq keçmiş məcburi köçkün hesab olunmalarına baxmayaraq, bu gün də çətin həyatın içindədirlər və öz yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər. İndi Füzulinin və digər azad olunmuş ərazilərin dağılmış evləri, uçuq binaları bizim hamımız üçün əzizdir. On illərlə ürəyimizdə yaşatdığımız arzumuza çatmışıq. Dünyaya göz açdığımız, uşaqlığımızın, gəncliyimizin keçdiyi ana yurdumuz işğaldan azad olub və bizim hər birimiz oranı yenidən görmək, gələcəkdə isə doğma yurdumuzda yenidən yaşamaq imkanı əldə edəcəyik. Ümid edirəm ki, qısa müddətdə Azərbaycan dövləti Füzulini də dirçəldəcək. Artıq bunun üçün ilk layihələr həyata keçirilir. Bu layihələr sayəsində Füzuli nəinki Azərbaycan üçün, dünya üçün yenidən açılır”.

### Füzulinin əlverişli iqtisadi imkanları var

Azərbaycanın xüsusi iqtisadi potensiala malik olan rayonlarından olan Füzuli hələ işğaldan əvvəl bir sıra məhsulların, xüsusilə pambıq və üzümün istehsalına görə respublikada ilk yerlərdən birini tutub. Bu rayonda yalnız kənd təsərrüfatı üçün deyil, sənayenin də inkişafı üçün əlverişli imkanlar var.

Füzuli həm də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ilk yenidənqurma işlərinin aparıldığı məkandır.

Yenidənqurma layihələri çərçivəsində Füzilidə istifadəyə verilən Beynəlxalq Hava Limanını “Qarabağın hava qapısı” adlandıran Prezident İlham Əliyev bu şəhər hələ işğaldan yenicə azad edildiyi zaman rayonun, onun kəndlərinin abadlaşdırılacağını, buraya həyatın qayıdacağını söyləyib.

AMEA-nın İqtisadiyyat İnstitutunun Postkonflikt ərazilərin bərpası elmi mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü, professor Akif Musayev bildirir ki, Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” fərmanı ilə yaradılmış Qarabağ iqtisadi rayonuna daxil olan Füzuli yüksək iqtisadi potensiala və inkişaf perspektivlərinə malikdir. Füzuli rayonunda iqtisadiyyatın ənənəvi kənd təsərrüfatı sahəsinin, əkinçilik və maldarlıqla yanaşı, aqrar məhsulların ilkin emalı sənayesinin, tikinti, nəqliyyat, ticarət, xidmət sahələrinin inikişafı üçün geniş şərait var. Ümimi ərazisi 67,6 min hektar olan Füzulinin 60,8 min hektarı kənd təsərrüfatına yararlı torpaq sahələridir: “Rayonun çox bərəkətli və məhsuldar torpaqları var. Füzuli rayonu istər əhali sayı, istər əkinəyararlı münbit torpaq ehtiyatı, istərsə də məhsul istehsalına görə Qarabağ iqtisadi rayonunun ən böyük rayonlarından biridir. Rayonun işğalaqədərki əhali sayı 98,6 min nəfər, torpaq balansı (ümumi ərazi) 67,649 min ha, o cümlədən kənd təsərrüfatına yararlı torpaq sahələri 60,848 ha, əkin sahəsi 33,804 ha, örüş-otlaq və biçənək sahəsi 25,985 ha, həyətyanı sahələr 1,059 min ha təşkil edirdi. 1980-ci illərdə əkin sahələri cəmi 28,239 ha təşkil edib, o cümlədən taxıl 13,214 ha, üzüm 14,148, pambıq 600, tərəvəz, bostan, meyvə və giləmeyvə sahəsi 287 ha olub. İldə 31,9 min ton taxıl, 1,5 min ton pambıq, 100,8 min ton üzüm, 1,6 min ton tərəvəz, bostan, meyvə və giləmeyvə istehsal olunub. Füzuli rayonunun bütün əkin sahələrinin 97 faizə qədəri taxılın (46,8 faiz) və üzümün (50,1 faiz) payına düşüb. Müqayisə etdikdə aydın olur ki, 1980-ci illərdə olduğu kimi son illərdə, məsələn, 2019-cu ildə də rayonda kənd təsərrüfatında ənənəvi bitkiçilik sahələri ilə yanaşı, digər sahələr də inkişaf edib”.

A.Musayev əlavə edir ki, Füzulidə dənli və dənli paxlalılar, pambıq, tərəvəz, şəkər çuğunduru, kartof, bostan bitkiləri, meyvə və giləmeyvə, üzüm yetişdirilib. 2019-cu ildə bitkiçilik məhsullarının istehsalına dair statistikaya görə, Füzulidə 118,1 min ton dənli və dənli paxlalılar, 1,6 min ton pambıq, 960 ton üzüm, 1,872 min ton kartof, 5,5 min ton tərəvəz, 3,169 min ton bostan məhsulları, 1,4 min ton meyvə və giləmeyvə istehsal olunub. Biktiçilikdə yeni sahə kimi 17,134 min ton şəkər çuğunduru yetişdirilib.

44 günlük Vətən müharibəsindən sonra Füzuli rayonunun işğaldan azad edilmiş 600 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsində taxıl becərilib və məhsul tədarük edilib. Cari ildə rayonun 288.8 hektar ərazisində şəkər çuğunduru əkilib və həmin torpaqların 78,8 hektarı işğaldan azad edilmiş əraziləri əhatə edir. Füzuli rayonunun işğaldan azad edilmiş Seyidmahmudlu kəndi ərazisindəki minalardan təmizlənmiş torpaqlarda şəkər çuğunduru ilk dəfədir becərilir və yüksək məhsuldarlığa nail olunub. Belə ki, şəkərlilik faizi 15-16 faiz göstərici ilə hər hektardan 55-60 ton məhsul yığılıb və bu günə kimi 1800 tona yaxın məhsul tədarük edilib. Rayon üzrə bu göstərici 3600 tondur.

1980-ci illərdə heyvanların baş sayına dair statistikaya görə, Füzuli rayonunda iribuynuzlu heyvanların cəmi 37,8 min baş, o cümlədən ondan inək və camışlar 13,4, xırdabuynuzlu heyvanlar 149,0 min baş olub. Habelə 2,8 min ton ət, 20 min ton süd, 11,8 mln. ədəd yumurta istehsal olunmuşdur. Postkonflikt rayonlar üzrə iribuynuzlu mal qaranın (2019-cu ildə) 23,6 faizi Füzuli rayonunun payına düşür.

Füzuli rayonunda emala əsaslanan aqrar sənaye müəssisələrinin yaradılması, eyni zamanda arxeoloji və etnoqrafik turizmi inkişaf etdirmək, onların bazasında yerli turizm marşrutları yaratmaq üçün potensial imkanlar var.

A.Musayev bildirir ki, Füzuli rayonu Qarabağın Şərq qapısı olmaqla, işğala qədər bütövlükdə regionun inkişafında xüsusi rol oynayıb. Əlverişli coğrafi mövqeyi, münbit torpaq fondu, su ehtiyatı, dəmir və avtomobil nəqliyyatı yollarının qovşağına malik olması Füzulini regionun ənənəvi olaraq təchizat və tədarük bazasına çevirib. İşğaldan azad edildikdən sonra postkonflikt ərazilərin hər yerində olduğu kimi, Füzulidə də böyük miqyasda bərpa və quruculuq işləri aparılır. Şərqi Zəngəzur iqtisadi zonasına aparan dəmir və avtomobil yollarının tikintisi, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, “Zəfər yolu”nun, ikinci Füzuli-Şuşa avtomobil yolunun tikilməsi Füzulini Azərbaycan iqtisadiyyatı üçün ən müasir daşıma imkanları olan rayona çevirir. Zəngəzur dəhlizi açılacağı təqdirdə Füzuli rayonu həm də regional və beynəlxalq bazarlara çıxış baxımından rəqabətqabiliyyətli nəqliyyat qovşağına çevriləcək.

Professor hesab edir ki, formalaşmış nəqliyyat infrastrukturu iqtisadi inkişafın hərəkətverici qüvvəsi olmaqla, regionun mövcud resurs və istehsal potensialını hərəkətə gətirəcək, bu regionun ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası prosesini sürətləndirəcək. Yeni innovativ aqrotexnologiyaların tətbiqi ilə Füzuli rayonu üçün taxılçılıq, üzümçülük, heyvandarlıq və s. kimi ənənəvi sahələrdə yüksək məhsuldarlığa nail olmaq imkanları kifayət qədər yüksəkdir. Eyni zamanda iqtisadiyyatının tamamilə yenidən qurulacağını nəzərə alaraq, rayon üçün qeyri-ənənəvi olan sahələrin də inkişaf perspektivləri nəzərdən keçirilməlidir. Bunun üçün dövlət, özəl və elmi tədqiqat mərkəzlərinin birgə fəaliyyətinə böyük ehtiyac var.

Azərbaycanı sürətli iqtisadi inkişaf tendensiyası olan ölkə sayan professorun qənaətincə, tək Füzulidə deyil, Qarabağın digər bölgələrində də təhlükəsizliyin təmini və infrastrukturun qurulması ilə iqtisadiyyatı dirçətlmək, onu tədricən ölkənin ümumi iqtisadi inkişaf səviyyəsinə çatdırmaq mümkün olacaq. Malik olduğu iqtisadi potensial nəzərə alınaraq, Füzuli rayonunda aqrar sektorun yenidən qurulması və inkişafı ən müasir texnologiyaların tədbiqi ilə həyata keçirilməli, bura raqabətqabiliyyətli və ixracyönümlü bir kənd təsərrüfatı rayonuna çevrilməlidir.

Dağıdılmış Füzulidə həyat 30 il əvvəlki axarına qayıdaraq yenidən canlanacaq. Prezident İlham Əliyevin də dediyi kimi, “Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir”.

Bu gün təkcə Füzulidə deyil, azad edilmiş digər ərazilərdə də yenidənqurma işləri aparılır. Yenidənqurma layihələrinin, düşmənin viran qoyduğu rayonların, şəhərlərin, kəndlərin abadlaşdırılmasının şahidi ola bildiyimiz üçün özümüzü şanslı vətəndaş saymalıyıq.

Biz əslində şanslı insan olmaqdan daha çox xoşbəxt insanlarıq. Çünki bu möhtəşəm tarixin şahidi olduq. 44 günlük Vətən müharibəsinin Zəfər salnaməsini kitablardan oxumadıq. Zəfərin səsini öz qulaqlarımızla eşidə, onun möhtəşəmliyini öz gözümüzlə görə bildik. Füzuli zəfəri isə bu zəfərlərdən yalnız biri idi...

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***

# Ukrayna Ali Radasının nümayəndə heyəti Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib

Ukrayna Ali Radasının nümayəndə heyətinin üzvləri oktyabrın 16-da Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib.





AZƏRTAC xəbər verir ki, əvvəlcə Fəxri xiyabana gələn nümayəndə heyəti xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər güllər düzüb.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər qoyulub.

Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb.

# Azərbaycan və Ukrayna parlamentləri arasında əməkdaşlığın perspektivləri müzakirə edilib



Oktyabrın 16-da Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Ukrayna Ali Radasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Əli Hüseynli Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyi ərəfəsində Ukrayna nümayəndə heyətinin ölkəmizə səfərindən məmnunluğunu bildirib. Diqqətə çatdırıb ki, ötən il Azərbaycan Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Ermənistan tərəfindən ərazilərimizin 30 il davam edən işğalına son qoyub, ərazi bütövlüyünü təmin edib. O, ukraynalı qonaqlara münaqişənin artıq tarixə qovuşduğunu bildirib, azad edilmiş ərazilərdə işğalın ağır nəticələrinin aradan qaldırılması üçün görülən işlərdən bəhs edib. Əli Hüseynli 44 günlük müharibənin ilk günündən Ukrayna dövləti və xalqının Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini yüksək dəyərləndirib.

Milli Məclis Sədrinin birinci müavini parlamentlərdəki qarşılıqlı dostluq qruplarının əlaqələrimizin daha da inkişafına verəcəyi töhfələrdən, qanunverici orqanların beynəlxalq qurumlar çərçivəsindəki əməkdaşlığının möhkəmləndirilməsindən danışıb. Əli Hüseynli Azərbaycan-Ukrayna münasibətlərinin bundan sonra daha da dərinləşəcəyinə inamını ifadə edib.

Tədbirdə Ali Radanın Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədrləri Valeriy Kolyux və Vladimir Kreydenko, qrupun üzvləri Lyudmila Marçenko, Maryan Zablotski, Ukraynadakı "Həmrəy Azərbaycanlılar Diasporu"nun rəhbəri Hikmət Cavadov çıxış ediblər. Onlar əlaqələrimizin dərinləşməsində dövlət başçılarının rolunu qeyd ediblər. Qonaqlar Azərbaycanın Zəfərini ədalətin qələbəsi kimi dəyərləndiriblər. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında xalqın bir yumruq kimi birləşməsini 44 günlük Vətən müharibəsində qələbənin əldə olunmasında mühüm amil adlandırıblar.

Ali Radanın deputatları işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərində Azərbaycana uğurlar arzulayıblar və bütün məcburi köçkünlərin tezliklə doğma torpaqlara qayıdacağı, ermənilər tərəfindən viran edilmiş ərazilərdə həyatın yenidən qaynayacağı günlərin yaxında olduğuna inamlarını ifadə ediblər.

Söhbət zamanı Ukrayna parlamentində Xocalı soyqırımına dair qərarın qəbul edilməsi məsələsi qaldırılıb, birgə əməkdaşlığın müxtəlif aspektləri, gələcək perspektivləri və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev, deputat Anar Məmmədov, Ali Radanın Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

# Ukrayna Cənubi Qafqazın lider dövləti Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır

Oktyabrın 16-da Azərbaycan Milli Məclisinin və Ukrayna Ali Radasının qarşılıqlı parlamentlərarası dostluq qruplarının üzvləri arasında görüş keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Ukrayna ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev ölkələrimiz arasında qarşılıqlı səfərlərin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirib. O, ölkələrimiz arasında dostluğun və qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu deyib, iqtisadi, humanitar, elm, təhsil sahələrində əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd edib. Rüfət Quliyev hər iki ölkədə sahibkarlığın inkişafı sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətindən danışıb. Ölkələrimiz arasında yüksək ticarət dövriyyəsindən məmnunluğunu ifadə edən deputat bunun daha da artırılması üçün geniş imkanların olduğunu bildirib.

Əlaqələrimizin inkişafında parlamentlərin xüsusi rolundan bəhs edən işçi qrupunun rəhbəri diqqətə çatdırıb ki, Milli Məclisdə dünyanın bir çox ölkəsi, o cümlədən Ukraynanın qanunvericilik orqanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir. Bu baxımdan deputatlarımızın qarşılıqlı görüşləri, müxtəlif məsələlərə dair aparılan fikir mübadiləsi çox önəmlidir.

Görüşdə çıxış edən deputat Cavid Osmanov ötən il Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdiyini vurğulayıb. Bu məsələdə Ukrayna dövləti və xalqının verdiyi dəstəyi yüksək qiymətləndirib. O, hazırda qələbənin ildönümü münasibətilə ölkə üzrə anım mərasimlərinin keçirildiyini diqqətə çatdırıb.

Ukrayna Ali Radasının Azərbaycanla dostluq qrupunun həmsədrləri Valeriy Kolyux və Vladimir Kreydenko səmimi görüşə görə təşəkkürlərini ifadə ediblər. Bildirilib ki, ölkələri Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır. Qeyd edilib ki, münasibətlərin möhkəmlənməsində parlamentlər səviyyəsində əməkdaşlıq çox önəmlidir. Hər iki ölkənin qanunvericilik orqanları arasında təcrübə və informasiya mübadiləsinin həyata keçirilməsində parlamentlərarası dostluq qrupları əhəmiyyətli rol oynayır.

Görüşdə iştirak edən Ukrayna nümayəndə heyətinin üzvləri iki ölkə arasında iqtisadi, mədəni, humanitar, təhsil, elm və digər sahələrdə münasibətlərin gələcək inkişaf perspektivləri, qarşılıqlı investisiya qoyuluşu və digər məsələlər barədə fikirlərini səsləndiriblər.

Söhbətin sonunda Ukrayna ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev ukraynalı həmkarlarının suallarını cavablandırıb, qonaqları maraqlandıran bəzi məqamlara aydınlıq gətirib.

Görüşdə Milli Məclisin deputatı Anar Məmmədov, Ali Radanın deputatları, Ukraynanın ölkəmizdəki səfirliyinin birinci katibi Evgen Osadçiy, Ukraynadakı "Həmrəy Azərbaycanlılar Diasporu"nun rəhbəri Hikmət Cavadov iştirak ediblər.

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
18 Oktyabr - Müstəqilliyin Bərpası Günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır




## Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşü keçiriləcək

Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşündə iştirak etmək üçün Milli Məclisin bir qrup deputatı oktyabrın 17-də Türkiyənin paytaxtı Ankaraya səfər edəcək.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, nümayəndə heyətinə parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlardan Sevinc Fətəliyeva, Tural Gəncəliyev, Sahib Alıyev daxildirlər.

Komitələrin birgə toplantısında regional və parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, qanunvericilik sahəsində informasiya və təcrübə mübadiləsi, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəni əlaqələrin inkişafı və digər məsələlər müzakirə olunacaq. Tədbirin sonunda mətbuat konfransı keçiriləcək.

Səfər zamanı nümayəndə heyətləri Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30-cu ildönümü və Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi münasibətilə təşkil olunan tədbirdə iştirak edəcəklər.

Səfər oktyabrın 20-də başa çatacaq.

# Dövlət təltifləri təqdim olunub

Oktyabrın 15-də Naxçıvanda 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsinin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası fəxri adlarının və gənc istedadlara xüsusi aylıq təqaüdün təqdimat mərasimi keçirilib.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək deyib: "Azərbaycanda Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsindən 30 il ötür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi ki, "Müstəqillik bir bəyanatla olmur. Müstəqillik əməli işlə olur. Əməli iş də ondan ibarətdir ki, biz özümüz öz ölkəmizin, öz torpağımızın, millətimizin, taleyimizin sahibi olmalıyıq". Ümummilli Liderimizin Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi illər dövlət müstəqilliyi üçün real tədbirlərin həyata keçirildiyi - Azərbaycanın taleyinə sahib çıxıldığı dövrdür. 1990-cı il iyulun 22-də Moskvadan Naxçıvana qayıdan xalqımızın böyük oğlu qədim diyarda müstəqilliyimizlə bağlı qəti qərarlar qəbul etmiş, üçrəngli bayrağımız ilk dəfə 1990-cı ildə - ölkədə müstəqillik elan olunmamışdan bir il əvvəl Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri götürülmüşdür. Bunun ardınca Sovet qoşun hissələri Naxçıvandan çıxarılmış, ilk milli sərhəd dəstəsi və ordu hissələri yaradılmış, kommunist partiyasının fəaliyyəti dayandırılmış, yeni istehsal münasibətlərinə əsaslanan təsərrüfatçılıq prinsiplərinin təməli qoyulmuş, ən əsası isə Sovet İttifaqının qorunub saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikası iştirak etməmişdi. Bir sözlə, Ulu Öndər Azərbaycanın qurtuluşuna və müstəqilliyinə Naxçıvandan başlamışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, "1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o sessiyada Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi".

Ali Məclisin Sədri deyib: "Ulu Öndər Naxçıvanda bu tədbirləri həyata keçirərkən ölkəmizdə isə bunun əksinə olaraq ictimai-siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi, qarşıdurma, hakimiyyət uğrunda mübarizələr hökm sürür, torpaqlarımız işğal olunurdu. Azərbaycan onu gözləyən fəlakətlərdən, daxili və xarici qüvvələrin qəsdindən və müstəqil dövlətçiliyin məhvindən xilas edilməli idi. Belə bir dövrdə - 1993-cü ilin 15 iyununda xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Liderimiz Azərbaycanı Milli Qurtuluşa qovuşdurmuş, ölkə işğaldan, müstəqilliyimiz isə itirilmək təhlükəsindən xilas edilmiş, böyük sosial-iqtisadi inkişaf strategiyası həyata keçirilmiş, birlik və sabitliyə nail olunmuşdur".

"Bu gün Azərbaycanda müstəqilliyin, dövlətçiliyin və inkişafın yolu Ulu Öndərin siyasi xəttindən keçir" deyən Ali Məclisin Sədri bildirib ki, ölkə Prezidenti bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sabitliyin və inkişafın təminatçısına çevirmiş, dövlət-xalq birliyi möhkəmlənmiş, güclü ordu yaradılmış, torpaqlarımız işğaldan azad olunmuşdur. Ötən dövrdə Naxçıvanda əldə olunan nailiyyətlər də müstəqilliyin nəyə qadir olduğunun göstəricisidir. Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalı 67, kənd təsərrüfatı məhsulları 14, sənaye istehsalının həcmi 114 dəfə artmış, 100 minə yaxın yeni iş yerləri açılmış, yaşayış məntəqələri böyümüş, 1 rayon, 4 qəsəbə və 2 şəhər yaranmışdır. Tikinti quruculuq işləri geniş vüsət almış, 200-dən çox təhsil, 202 səhiyyə, 400-ə yaxın mədəniyyət obyekti, 337 inzibati bina tikilmiş, bütün yaşayış məntəqələrini əhatə edən müasir yol-nəqliyyat və sosial infrastruktur istifadəyə verilmişdir.

Ali Məclisin Sədri deyib: "Sabitlik və dövlət-xalq birliyi olan yerdə inkişaf davamlı olur. Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafında bu amil əsas götürülür, dövlətinə və xalqına sədaqətlə xidmət edənlərin əməyi yüksək qiymətləndirilir, onlar ölkəmizin müxtəlif orden, medal və fəxri adları ilə təltif olunurlar. Bu gün dövlət mükafatları təqdim olunanlar da öz sahələrində fərqlənən, müstəqilliyimizin möhkəmlənməsində və ölkəmizin inkişafında özünəməxsus payı olan insanlardır".

Ali Məclisin Sədri təltif olunanlara təbriklərini çatdırıb, 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsinin, Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının, Naxçıvan Muxtar Respublikası fəxri adlarının döş nişanlarını və vəsiqələrini, gənc istedadlara xüsusi aylıq təqaüdün kartlarını təqdim edib.

Ülvi Hüseynli, Məmmədəli Məmmədov, Sabir Ağayev, Nəsib Əhmədov, Seyran Əhmədova, Gülnara Əliyeva, Əhəd Məmmədov, Seyfullah Rüstəmov, Seymur Cəfərov, Namiq Quliyev, Eldar Məmmədov, Vüqar Babayev, Gözəl Şahməmmədova, Mustafa Əliyev, Hüseyn Niftəliyev, Qasım Əliyev, Əli Qənbərov, Zəminə Əliyeva, Ərus Ağayeva, Vidadi Quliyev, İnarə Quliyeva, Elnarə Məmmədova, gənc təqaüdçülər Nicat Əlizadə və Nazlı Hümbətova verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq ediblər. Qeyd olunub ki, qarşıda duran əsas vəzifə bundan sonra da ölkə Prezidenti tərəfindən davam etdirilən Ulu Öndər Heydər Əliyev siyasi xəttinə sadiq qalmaq, müstəqilliyimizin və dövlətçiliyimizin inkişafına töhfə verməkdir.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Şəhid Bəhruz Quliyevin xatirəsi yad edilmişdir

Bəhruz Quliyev torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olmuş yüzlərlə qəhrəman oğullarımızdandır. Cəmi 30 yaşı var idi. İndi həmyerliləri bu igid Azərbaycan övladının xatirəsini əziz tutur, tez-tez məzarını və valideynlərini ziyarət edirlər.





1990-cı ildə Naftalanda doğulub boya-başa çatan Bəhruz Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılmışdır. O, Laçının azad olunmasında döyüş yoldaşları ilə birlikdə əsl şücaət göstərmişdir. Elə bu döyüşlərin birində də düşmənin gülləsinə tuş gəlmişdir. Ölümündən sonra Bəhruz Quliyev "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Şəhidin torpağa tapşırılmasından bir il ötür. Bununla bağlı Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Növruzov, Milli Məclisin deputatı Anar Məmmədov, eləcə də şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri şəhidin məzarını ziyarət etmiş, Vətənimizin bütövlüyü və torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarından keçən şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Sonra onlar Bəhruz Quliyevin ailəsinə baş çəkmişlər. Görüşdə şəhidin ailəsini narahat edən məsələlər müzakirə olunmuş, təklifləri dinlənilmiş və aidiyyəti üzrə müvafiq tapşırıqlar verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhid baş leytenant Daşdəmir Paşayevin xatirəsi anılıb



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, şəhid baş leytenant Daşdəmir Paşayevin xatirəsinə həsr olunan mərasimdə şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər şəhidin şərəfli döyüş yolundan danışıblar. Tədbir iştirakçıları üçün şəhid D.Paşayevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Şəhidin anası Məleykə Paşayeva şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib. Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyə aid musiqilər ifa ediblər.

## "Zəfər yolu" layihəsinin növbəti qonağı Vətən müharibəsi iştirakçısı İbrahim Məmmədzadə olub

"Zəfər yolu" verilişinin on altıncı buraxılışı təqdim olunub. Bu barədə AZƏRTAC-a Bakı Dövlət Universitetindən (BDU) məlumat verilib. Bildirilib ki, layihənin on altıncı verilişində Vətən müharibəsi iştirakçısı İbrahim Məmmədzadə keçdiyi döyüş yolundan bəhs edir.

Qeyd edək ki, BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzi və Jurnalistika fakültəsinin tədris teleradio studiyası tərəfindən Vətən müharibəsinin ildönümünə həsr olunan "Zəfər yolu" layihəsi həyata keçirilir.

Layihə 8 Noyabr - Zəfər Gününə qədər davam edəcək. Proqramlarda Vətən müharibəsi iştirakçıları döyüş əməliyyatları, əsgər və zabitlərimizin qəhrəmanlığı, düşmənin təslim olması və s. barədə danışırlar.

Layihənin ideya müəllifi mərkəzin rejissoru Vahid Orucoğludur. "Zəfər yolu" proqramı Nigar Qayyumun aparıcılığı ilə təqdim olunur. Proqramın buraxılışları BDU TV-də yayımlanır. Layihə çərçivəsində 44 veriliş təqdim olunacaq.

# 17-18 oktyabr 2020-ci il ZƏFƏR gündəliyi

Oktyabrın 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb.

Qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub.

Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutur.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli say-



da canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan olub.

❖ ❖ ❖



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Gəncə və Mingəçevir şəhərlərini, Tərtər, Ağdam, Bərdə və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib:

"Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən?

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Prezident İlham Əliyev xalqa müraciət edərək müjdəli xəbər verib:

"Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi,



Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Prezident həmçinin vurğulayır ki, 17 oktyabr nəinki füzulililərin xatirəsində, Azərbaycan dövlətinin tarixində əbədi qalacaq: "Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib".

Ali Baş Komandan Ermənistanın baş nazirin də yeni ismarıclarını göndərib: "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən "Qarabağ Ermənistandır". Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, "Qarabağ Ermənistandır". Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən".

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "Instagram" səhifəsində daha bir paylaşım edib. Paylaşımda deyilirdi:

"Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil.

Gəncə - qədim dövlətçiliyimizin beşiyidir.

Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir!

Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir.

Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!"

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan olub. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıb. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilib.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhə boyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayıb.

❖ ❖ ❖

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Azərbaycan Müdafiə Nazirliyi düşmənin S-300 zenit-raket kompleksinin, yanacaq-sürtkü materialları və döyüş sursatı anbarlarının, zirehli texniklarının aviasiya zərbələri ilə darmadağın edilməsinin görüntülərini yayıb.

❖ ❖ ❖



Cəbrayıl istiqamətində bölmələrimizin mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd Su-25 təyyarəsi hava hücumundan müdafiə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində uçuşlar keçirməyə cəhd göstərib.

Düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

❖ ❖ ❖

Oktyabrın 18-də saat 00:00-dan yeni humanitar atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri növbəti dəfə razılaşmanı kobud surətdə pozub.

Düşmən Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutur. Şəxsi heyət arasında itki yoxdur. Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Qoşunlar bütün cəbhə boyu əlverişli hədd, əhəmiyyətli yüksəklik və mövqelərdə müvafiq fəaliyyətlər həyata keçirib.

❖ ❖ ❖



Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib.

Düşmən döyüş texnikası, silah-sursat və digər hərbi vasitələri tərk edərək qaçmaq məcburiyyətində qalıb. Cəbhə boyu bütün istiqamətlərdə bölmələrimiz üstünlüyü əldə saxlayıb.

❖ ❖ ❖




Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində daha bir paylaşım edib:

"Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" hesabında Müstəqillik Günü ilə bağlı paylaşım edib:

"Bu günlərdə bütün dünya ictimaiyyəti Azərbaycan xalqının yenilməz iradəsinin, qətiyyətinin, əzminin, birlik və həmrəyliyinin, Vətənə sadiqliyinin şahididir. Əminəm ki, xalqımızın məhz bu xüsusiyyətləri bizə qarşımızda dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, o cümlədən müstəqilliyimizi qoruyub saxlamağa hər zaman kömək edəcəkdir. Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun! Uca Tanrı xalqımızı, Vətənimizi qorusun!"

❖ ❖ ❖

Saat 12:30-da cəbhənin Cəbrayıl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin növbəti Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

❖ ❖ ❖

"Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir".

Bu fikirlər Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında etdiyi növbəti paylaşımda öz əksini tapıb.

Paylaşımda deyilirdi: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələrinin son qüvvə kimi səngərlərə atdığı xüsusi təyinatlılar Azərbaycan əsgərinin həmləsinə tab gətirməyərək geri qaçmağa məcbur edilib.

Nümayiş olunan videoda Azərbaycan Ordusunun zirehli texnika və əsgərlərinin erməni xüsusi təyinatlılarını necə qovduğu müşahidə olunub.

Videonun son kadrlarında düşmən səngərləri tərk etdikdən sonra həmin mövqelərə doğru Azərbaycan əsgərinin irəliləməsi aydın görünürdü.

❖ ❖ ❖

Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

❖ ❖ ❖

Müdafiə Nazirliyi işğaldan azad olunan Füzuli şəhərinin mərkəzində Azərbaycan bayrağının qaldırılması, eləcə də Füzuli istiqamətində gedən döyüşlərdə xeyli sayda canlı qüvvə və texnika baxımından itkilərə məruz qalan düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnikası və silah-sursatının foto və videogörüntülərini yayıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***








# Dövlət müstəqilliyinin bərpasına aparan yol

Azərbaycan Respublikası Milli Məclisinin 11 oktyabr 2021-ci il tarixli qərarı ilə 28 may Müstəqillik Günü, 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü elan olunmuşdur. Xalqımızın tarixində mühüm yeri olan hər iki bayram gününün siyasi məzmunu obyektiv dəyərləndirilmişdir. 103 yaşlı Azərbaycan Demokratik Cumhuriyyətinin bəyan edildiyi gün, 28 may onun varisi olan Azərbaycan Respublikasının da Müstəqillik Günü kimi təsbit olunmuşdur. 18 oktyabr günü isə 1920-ci ildə işğala məruz qalmış milli dövlətimizin bərpası haqqında Müstəqillik Aktının qəbul edildiyi gün kimi bəyan olunmuşdur. Müstəqillik Bəyannaməsi ilə Müstəqillik Aktının vəhdət təşkil etdiyi, qanunvericilik baxımından birincinin ikinci üçün hüquqi baza yaratdığı əsaslandırılmışdır.

Azərbaycan hazırda əlamətdar tarixi hadisənin, respublikanın Dövlət Müstəqilliyinin Bərpası haqqında Konstitusiya Aktının qəbul edilməsinin 30-cu ildönümünü qeyd edir. Buna görə dövlət müstəqilliyinin bərpası gününə aparan mübarizə yoluna bir daha nəzər salmaq xüsusi aktuallıq kəsb edir.

28 may 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Cumhuriyyətinin bolşevik-rus qoşunları tərəfindən işğalından Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının hüquqi əsasını təşkil edən 1991-ci il 18 oktyabr tarixli Akta qədərki ictimai-siyasi proseslərin təhlili bu tarixi günün əhəmiyyətini bir daha ümumiləşdirməyin zəruriliyini diktə edir.

İyirminci yüzilliyin ikinci onilliyinin sonlarında dünyada, o cümlədən Rusiyada baş verən siyasi proseslərin nəticəsi olaraq Cənubi Qafqazda, eləcə də Şimali Azərbaycanda genişlənən demokratik hərəkat xalqın siyasi məfkurəsinin inkişafına böyük təkan verdi. Dünyanın böyük dövlətlərinin toqquşan maraqlarının düyün nöqtəsi olan Cənubi Qafqazın demokratik qüvvələri yaranmış beynəlxalq vəziyyətdən, Rusiyada rejimin devrilməsindən, kəskinləşən vətəndaş müharibəsindən istifadə edərək Zaqafqaziya Seyminin buraxılması Zaqafqaziya Müstəqil Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdilər. Seymin Azərbaycandan olan deputatlarının iştirakı ilə keçirilən 27 may 1918-ci il tarixli fövqəladə iclasda Azərbaycanın idarə olunması səlahiyyətini öz üzərinə götürən Müvəqqəti Milli Şuranın yaradıldıgı elan olundu. Şuranın 28 may 1918-ci il tarixli ilk iclasında "Azərbaycanın müstəqilliyi haqqında Akt" qəbul edildi. Tarixi dövlətçilik ənənələrinə malik xalqımız milli-azadlıq hərəkatının məntiqi nəticəsi olaraq müstəqillik dövrünə qədəm qoydu. Lakin cəmi 23 ay fəaliyyət göstərən milli hökumət bolşevik-rus ordusunun süngüsü gücünə devrildi. İşğaldan sonra XI bolşevik-rus ordusuna qarşı davam edən müqavimət hərəkatı ağır artilleriyanın gücü ilə susduruldu. Azərbaycanın işğalına qarşı aparılan mübarizə sovet siyasi sistemi əleyhinə qeyri-leqal hərəkatın başlanğıcını qoydu. Həm ölkə daxilində, həm də mühacirətdə olan vətən fədailəri tərəfindən 70 ilə qədər gizli davam edən bu mübarizə XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində beynəlxalq münasibətlərin və sovet imperiyasında dərinləşən iqtisadi-siyasi böhranın kəskinləşməsi nəticəsində yeni keyfiyyət mərhələsinə daxil oldu. Sovet dövlətinin vahid iqtisadi sisteminin bazisini təşkil edən ictimai mülkiyyətdən xüsusi mülkiyyətə keçid tədbirləri, regional milli konfliktlərin kəskinləşməsi, siyasi sistemin "demokratikləşdirilmə" kompaniyası, təkpartiyalılığın ləğvi, çoxpartiyalılığın bərqərar olması və digər iqtisadi və siyasi tədbirlər SSRİ-nin süqutunu daha da sürətləndirdi.

Beləliklə, SSRİ-nin dinc yolla dağıdılması kursu nəticəsini çox gözlətmədi. 1991-ci ilin sonunda imperiya tarix səhnəsindən çıxarıldı.

Azərbaycanın dövlət müstəqilliyi üçün hələ XX əsrin 70-ci illərində sosial-iqtisadi baza yaradan, dünyada və sovet imperiyasında cərəyan edən prosesləri uzaqgörənliklə müşahidə edən Ulu Öndər Heydər Əliyev hələ 1986-cı ildə sovet dövlətinin siyasi sisteminin tədricən qürub edəcəyini, imperiyadan asılı millətlərin, o cümlədən doğma xalqının azadlığa çıxacağı günün çox uzaqda olmadığını duyaraq deyirdi: "O zaman hiss edirdim ki, dünyada böyük dəyişikliklər baş verir və bunu alqışlayırdım".

Dövlət müstəqilliyi üçün yaranan obyektiv siyasi imkandan çıxış edərək ittifaq respublikalarında, o cümlədən Azərbaycanda sovet siyasi sisteminin məngənəsindən qurtulmaq uğrunda kütləvi etiraz hərəkatının başlanması Ümummilli Liderin fenomenal uzaqgörənliyinin təsdiqi idi.

Müxtəlif millətlərdən olan xalqların "mərkəzdənqaçma" prosesinin qarşısını almağa can atan imperiya irtica yolu tutdu. Azadlığın astanasında duran xalqlar, xüsusilə türkdilli xalqlar əleyhinə, onların liderlərinə qarşı təzyiqlər gücləndirildi. Türkdilli xalqların rəhbərlərinə qarşı hücumlar başlandı. Qazaxıstanda uzun müddət rəhbər vəzifədə çalışmış Din Muhamməd Kunayevin istefaya göndərilməsi, qazax xalqının iradəsinə zidd olaraq respublikaya rus milliyyətli şəxsin rəhbər təyin edilməsi və digər bu kimi antitürk meyilli addımlar bu məqsədi güdürdü.

İmperiya rəhbərliyinin məqsədini təhlil edən, türk xalqlarının XXI əsrdəki yerini uzaqgörənliklə müəyyənləşdirən Heydər Əliyev türk dünyasının maraqlarının müdafiəsinə qalxmaqla ədalətə, prinsipiallığa, millətinə sadiqlik, təəssübkeşlik nümunəsi nümayış etdirdi. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyən Heydər Əliyev ona qarşı ediləcək hücumlardan çəkinməyərək, hələ 1986-cı ildə M.Qorbaçovun milli siyasətini cəsarətlə ifşa edərək birbaşa ona deyirdi: "...Bunu etmək olmaz. Qazaxıstan böyük bir respublikadır... Bundan əvvəl də bu respublikaya rəhbərlik edənlər qazaxlar olublar. Amma indi Qazaxıstana başqa millətdən olan bir adamı rəhbər göndərmək doğru deyil".

İdarəçilik bacarığına, qətiyyətinə, mübarizliyinə, ittifaq dövləti başçılığına layiq şəxs kimi dəyərləndirilməsinə qısqanclıqla yanaşan sovet dövlət rəhbərliyi Heydər Əliyevə təzyiqlərə başladı.

Ümummilli Liderin qayğısı sayəsində Azərbaycanda məsul vəzifələrə yüksələnlər də, çətin anlarda maskası yırtılan, "...inandığı adamlar ondan üz döndərdilər, ona xəyanət etdilər". Milli maraqları düşünmək qeyrətindən məhrum "şər bədxahlar"dan istifadə edərək "antiəliyevçi" kampaniyaya start verildi.

Məhz Heydər Əliyev şəxsiyyətinə qarşı təzyiqlər dövründə indiki Ermənistanda yaşayan azərbaycanlı əhalinin dədə-baba yurdundan didərgin salınması, Dağlıq Qarabağın işğalı siyasəti intensivləşdi.

Təcavüzkar erməni siyasətinə qarşı yüksələn kütləvi etiraz mitinqləri respublikanın xilası yolunu Heydər Əliyevin hakimiyyətə gətirilməsində görən xalqın haqlı ictimai rəyini ortaya qoysa da millətlərin mövqeyini heç zaman nəzərə almayan həm ittifaq, həm yerli iqtidar, həm də respublikada olan müxalifətin bəzi qanadları tərəfindən bu təşəbbüs qısqanclıqla qarşılanır. Halbuki siyasi böhranın kəskinləşdiyi belə bir zamanda respublikadakı ictimai-siyasi vəziyyəti, rəhbərlik təcrübəsini, xalqın rəyini nəzərə alaraq Heydər Əliyevi respublikaya dəvət etmək, məsləhətlərindən bəhrələnmək ən düzgün seçim olardı. Səriştəsiz iqtidar isə imperiyanın süqutunun qaçılmaz proses oldugunu dərk edə bilmədi. Moskvameyilli mövqedən çıxış edərək "antiəliyev kampaniyası"na rəvac verdi. Beləliklə, nə iqtidar, nə də müxalifət xalq, dövlət üçün zəruri olan siyasi ortaq məxrəcə gələ bilmədi.

Xalq etirazlarına qarşı irtica yolunu seçən sovetin dövlət rəhbərliyi Azərbaycan xalqını susdura biləcəyini güman edərək, 1990-cı il 20 Yanvar faciəsinə qərar verdi.

Sovet dövləti rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra "siyasi fəaliyyətlə məşğul olmayacağını" düşünən, ancaq ürəyi hər an xalqı ilə döyünən Heydər Əliyev sağlamlığı üçün təhlükəli bir şəraitdə, öz doğmaları ilə dərhal Moskvadakı Azərbaycan nümayəndəliyinə gedərək 20 Yanvar faciəsini, dinc insanlara qarşı törədilən silahlı vəhşiliyi Azərbaycan xalqına qarşı kütləvi qırğın aktı kimi pislədi. Xalqı ilə bir yerdə olduğunu ifadə etdi. Bu faciə sovet imperiyasına qarşı nifrət dolu beynəlxalq ictimai rəyin daha da dərinləşməsinə, imperiyanın iflasına təkan verdi. SSRİ-nin dayağı olan sovet ordusunun beynəlxalq aləmdə onsuz da işğalçı kimi tanınan nüfuzuna zərbə vurdu. Şərqi Avropadan çıxarılmasına artıq başlanılmış sovet ordusunun sosializm düşərgəsi ölkələrini tərketmə prosesi aktiv fazaya daxil oldu.

Beləliklə, Azərbaycanda yüksələn xalq hərəkatı sovet imperiyasının, eləcə də beynəlxalq sosializm cəbhəsinin süqutuna təsir baxımından da öz sözünü dedi. Qanlı Yanvar Azərbaycan xalqının siyasi həyatında dönüş nöqtəsi oldu.

20 Yanvar şəhidlərinin qanı üzərindən adlayaraq hakimiyyətə gələn yeni iqtidar nəinki Moskvameyilli mövqedən əl çəkmədi, respublikanın sərhədlərinin erməni silahlı təxribatçılarından qorunmasını təşkil edə bilmədi, milli birlik yaratmaq əvəzinə, xalqının ağır günlərində Vətənə qayıdan Ümummilli Liderə qarşı təcrid siyasəti ilə respublikadaxili siyasi qütbləşməni daha da dərinləşdirdi.

Ulu Öndərin Vətənə qayıdışı müstəqillik və demokratiya uğrunda ümumxalq mübarizəsinin yeni dövrünün başlanğıcını qoydu. Hakimiyyətin ona qarşı təcrid siyasətinin nəticəsində Naxçıvana, özünün dediyi kimi, "tənha ada"ya sığınmaqla xalqının azadlığı uğrunda mübarizəni davam etdirməyə qərar verdi. Hakimiyyət qadağalarına baxmayaraq, xalqın cəmiyyətdəki həlledici tələbi və səsi sayəsində siyasi mübarizənin önünə keçdi.

Naxçıvan Azərbaycanın dövlət müstəqilliyinin bərpası uğrunda demokratik mübarizə ocagına çevrildi. Sovet hakimiyyətinin və yerli iqtidarın SSRİ-nin saxlanması niyyəti ilə keçirmək istədiyi referendum haqqında qərarın muxtar respublikanın Ali Məclisinin 14 mart 1991-ci il tarixli iclasında rədd edilməsi demokratik mübarizə yolunun nümunəsi oldu.

Moskvada 19-21 avqust 1991-ci il tarixli dövlət çevrilişinə cəhd hadisəsindən sonra imperiya rejiminə qarşı ümumxalq mübarizəsi daha da alovlandı. Respublikaların dövlət müstəqilliyinin bərpası tələbləri kəskinləşdi.

Moskvanın çoxpartiyalı demokratik sistem yaratmaq adı altında yeritdiyi siyasətin nəticəsində Sovet İttifaqı Kommunist Partiyası ləğv edildikdən dərhal sonra, Azərbaycanda da gecikmiş tədbirlərə başlandı. 26 avqust 1991-ci ildə dövlət orqanlarında, müəssisələrində, idarələrində və s. kommunist partiyasının və digər siyasi partiya, habelə siyasi məqsədlər güdən kütləvi ictimai hərəkatların fəaliyyətinə xitam verildi. Azərbaycan Kommunist Partiyası isə özünün 14 sentyabr 1991-ci il tarixli XXXIII qurultayında buraxıldı.

27 avqust 1991-ci ildə Ümummilli Liderin siyasi dəstək verdiyi demokratik qüvvələrin tələbi ilə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Dövlət müstəqilliyinin bərpası məsələsi sessiyanın gündəliyinə daxil edildi. Sessiyada gedən müzakirədən sonra, 29 avqust 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə qəbul edildi.

1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikası Ali Soveti Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Müstəqillik uğrunda mübarizə özünün mühüm bəhrəsini verdi.

Elan etdiyi hüquqi müstəqilliyə nail olmuş Azərbaycan Respublikası imperiyanın 1991-ci ilin dekabrında iflası ilə faktiki olaraq dövlət müstəqilliyini qazandı.

Bu nailiyyətin beynəlxalq aləmdə və keçmiş SSRİ-də baş verən tarixi-obyektiv proseslərin məntiqi nəticəsi olduğunu vurğulayan müdrik siyasi xadim Heydər Əliyev "müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvəti" olan obyektiv tarxi hadisə kimi dəyərləndirirdi. Respublikanın dövlət müstəqilliyinin hüquqi cəhətdən bərpa olunması müstəqil dövlət quruculuğu, beynəlxalq münasibətlər sisteminə inteqrasiyası üçün böyük perspektivlər açdı.

Müstəqillik əldə olunsa da, hakimiyyət uğrunda daxili çəkişmələr səngimədi. Kommunust nomenklaturasını əvəz edən hakimiyyət dövrünün ziddiyyətləri, dövlət idarəçiliyi sahəsində səriştəsizliyi müstəqilliyimizi siyasi burulğanın dibinə çəkməkdə idi. Ölkədəki hərbi-siyasi xaosdan istifadə edən işğalçı Ermənistan torpaqlarımızın 20 faizini işğal etdi.

Ümummilli Lider deyirdi: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir..." Bu çətinliyin öhdəsindən gəlmək qüdrətinə malik Heydər Əliyev şəxsiyyətinə ümumxalq inamının və tələbinin təsiri altında ovaxtkı hakimiyyət Ulu Öndərə kömək üçün müraciət etdi.

İkinci dəfə respublika rəhbərliyinə yüksələn Ümummilli Lider "Böyük Qayıdış"la müstəqil dövlət quruculuğuna başladı. İdarəetmənin qanunvericilik bazasının yaradılmasından siyasi və iqtisadi islahatlara qədər zəruri tədbirlər paketinin həyata keçirilməsi sayəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi. Ermənistanla atəşkəsə nail olundu.

Azərbaycanla ikitərəfli müqavilələrə, xüsusilə enerji yataqları ilə bağlı müqavilələrə can atan böyük dövlətlərin və Azərbaycanın milli maraqlarını çulğalaşdıran uzaqgörən siyasətçi Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinə daxil olmaqla əslində həmin dövlətlərə ciddi təzyiq mesajı göndərdi. Rusiyanın regiondan sıxışdırılmasını strateji hədəf seçən nəhəng dövlətlərlə başlanan danışıqlar "Əsrin müqaviləsi"nin baglanmasını sürətləndirdi. Azərbaycan torpaqları isə hələ də işğal altında qalmaqda idi. Lakin birinci dərəcəli faktor - dövlət müstəqilliyi qorunub saxlandı. Siyasi, iqtisadi və hərbi cəhətdən güclənmək üçün vacib tənəffüsə nail olundu.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş bu kursun sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi Azərbaycanın cənubi Qafqazda söz sahibinə çevrilməsini, dünya dövlətləri sırasında layiqli yerini, Ermənistanla 44 günlük müharibədə böyük tarixi qələbəni təmin etdi. Məhz bu siyasi kursun nəticəsidir ki, dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının ildönümünü ilk dəfə olaraq respublikanın ərazi bütövlüyü şəraitində qeyd edirik.

***Asəf ZAMANOV,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin elm və innovasiyalar üzrə prorektoru, professor***




# Koronavirusa yoluxma riski artıb

Dünyada koronavirusa yoluxanların ümumi sayı 240 milyonu ötüb. Bu təhlükəli virus səbəbindən 4 897 375 insan isə dünyasını dəyişib. Koronavirusa yoluxma sayına görə, ilk beşlikdə olan dövlətlər ABŞ, Hindistan, Braziliya, Böyük Britaniya və Rusiyadır.



Sərhəd qonşularımız arasında koronavirusdan ən çox ölüm ardıcıl olaraq Rusiya, İran və Türkiyədə qeydə alınıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) epidemiya ilə bağlı həftəlik bülletenindən bildirilib ki, son bir həftə ərzində dünyada 2,8 milyondan çox insan koronavirus infeksiyasına yoluxub, 46 mindən çox insan isə həyatını itirib. Yeni yoluxma hallarının sayı yeddi gündə 7 faiz, ölüm halları isə 10 faiz azalıb. Təşkilatın təqdim etdiyi statistik məlumatlara görə, yeddi gün ərzində 2 885 011 yoluxma halı və 46 789 ölüm halı qeydə alınıb.

Yoluxma səviyyəsində bir həftə ərzində xüsusilə əhəmiyyətli azalma Afrikada (32 faiz) və Qərbi Sakit Okean regionunda (26 faiz) qeydə alınıb. Avropa yoluxma hallarının sayının artdığı yeganə bölgədir (7 faiz). Ölüm halları da yalnız Avropada (11 faiz) artıb. Bir həftə ərzində yoluxanların ən çox sayı barədə təşkilata Birləşmiş Ştatlar tərəfindən bildirilib (653 837). Ondan sonra Böyük Britaniya (249 699), Türkiyə (205 266), Rusiya (188 829) və Hindistan (139 572) yer alıblar.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "narahatlıq doğuran variantlar" kateqoriyasına aid edilən koronavirusun "alfa", "beta", "qamma" və "delta" ştamları bir həftə ərzində yayılmasını genişləndirməyib. İlk dəfə 2020-ci ilin sentyabr ayında Böyük Britaniyada aşkar edilən "alfa" ştamı indi 195 ölkə və ərazidə mövcuddur. Ötən ilin avqust ayında Cənubi Afrika Respublikasında aşkar edilən "beta" variantı 145 dövlətdə dövr edir. 2020-ci ilin sentyabr ayında Braziliyada aşkar edilən "qamma" ştamı 99 ölkədə mövcuddur. "Delta" variantının mövcudluğu barədə məlumatlar 191 ölkədən daxil olub. Bu ştam Hindistanda aşkar ediləndən sonra 2020-ci ilin oktyabrından bəri mütəxəssislərə məlumdur.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Qebreyesus da son zamanlarda bütün dünyada ümumilikdə COVID-19-dan ölüm hallarının sayının azalmaqda olduğunu qeyd edib. İndi ölüm halları son il ərzində ən aşağı səviyyədədir, baxmayaraq ki, hələ də qəbuledilməz dərəcədə yüksəkdir. Ölüm hallarının həqiqi sayı daha yüksək olduğu da mümkündür. Eyni zamanda, xəstəliyin və ölüm hallarının yeni dalğası ilə üzləşən Avropa istisna olmaqla, bütün bölgələrdə ölüm nisbəti azalmaqdadır.

ÜST rəhbəri COVID-19 pandemıyasının davam etdiyini və həftədə 50 min insanın həlak olmasına səbəb olduğunu xatırladıb. Tedros Qebreyesusun sözlərinə görə, koronavirus səbəbi ilə ən yüksək ölüm nisbəti vaksinasiyanın aşağı səviyyədə olduğu ölkələrdə müşahidə edilir. Bugünə qədər dünyanın 56 ölkəsi bu ilin sentyabr ayının sonuna qədər əhalinin 10 faizinin vaksinasiya olunması hədəfinə çata bilməyib. Onların əksəriyyəti Afrika ölkələridir. Ehtimal olunur ki, sayca bundan daha çox ölkə ikinci hədəfi - ilin sonuna qədər əhalinin 40 faizinin vaksinasiya olunmasını yerinə yetirə bilməyəcək. Burundi, Eritreya və KXDR kimi ölkələr ümumiyyətlə immunizasiya kampaniyasına start verməyiblər.

Tedros Qebreyesus bu məsələdə qlobal əməkdaşlığın gücləndirilməsinin çox vacib olduğunu nəzərə çatdırıb. Bir daha zəngin ölkələri gücləndirici dozalardan istifadə etməyə tələsməməyə və inkişaf etməkdə olan ölkələrə əhalinin ən həssas qruplarını peyvənd etməkdə yardımçı olmağa çağırıb.

Azərbaycanda vaksinasiya prosesi uğurla davam edir. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, olkədə vurulan vaksinlərin ümumi sayı 9 milyonu ötüb. Belə ki, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 milyona yaxınlaşır. İkinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 4 milyondan çoxdur.

Səhiyyə Nazirliyinin məlumatına görə, vaksinasiyada artıq 357 yeniyetmə də iştirak edib. Onlar arasında hər hansı ağırlaşmanın, yaxud fəsadın qeydə alınmadığı açıqlanıb.

Məlumata görə, yeniyetmələr yalnız tibbi göstəriş olduğu halda və hər iki valideynin razılığı ilə peyvənd oluna bilərlər.

Qeyd edək ki, yeniyetmələrin vaksinasiyası mərkəzləşdirilmiş şəkildə Bakı Sağlamlıq Mərkəzində aparılır.

Həyata keçirilən zəruri tədbirlərə baxmayaraq, dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də COVID-19 pandemiyasının hələ ki sonu görünmür. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, ötən gün Azərbaycanda koronavirus infeksiyasına 1850 yeni yoluxma faktı qeydə alınıb, 735 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Bildirilib ki, son sutkada 14 nəfər COVID-19-dan dünyasını dəyişib.

Təəssüf doğuran xəbərlərdən biri isə budur ki, Azərbaycanda yenidoğulmuşlar arasında koronavirusa yoluxma halları qeydə alınıb. Bu barədə Səhiyyə Nazirliyinin pediatriya sahəsi üzrə mütəxəssis-eksperti Erkin Rəhimov canlı yayımda sualları cavablandırarkən məlumat verib. O, hər yaş qrupunda COVID-19-a yoluxma olduğunu vurğulayıb: "Onlar arasında virusu ağır keçirənlər də var. Böyüklərin əksəriyyətinin vaksinli olması səbəbindən son vaxtlar uşaqlar arasında virusa yoluxmanın artması mənzərəsi yaranır. Həmçinin məktəblər açıldığı üçün uşaqlar arasında ünsiyyət də artıb və bu, koronavirusa yoluxma riskini artırıb. Təkcə Azərbaycanda deyil, dünya ölkələrində də uşaqlar arasında COVID-19-a yoluxma ehtimalı və faktı artmaqdadır. Onu da qeyd edim ki, ölkədə yenidoğulmuşlar arasında da COVID-19-a yoluxanlar var. Hər yaş qrupunda, o cümlədən kiçik yaşlı uşaqlarda koronavirus infeksiyasını ağır keçirənlər mövcuddur".

O bildirib ki, yenidoğulmuşlar, yəni yaşı birdən aşağı olanlar COVID-19-a qarşı risk qrupuna daxildir. Erkin Rəhimovun sözlərinə görə, koronavirusa yoluxan uşaqlarda daha çox tənəffüs çatışmazlığı problemləri olur: "Bəzən bu problem elə çox olur ki, süni tənəffüs aparatına qoşulmaq riski ortaya çıxır. Bəzən də uşaqlarda iltihabi proses başlayır. Bu, COVID-19-un fəsadı ilə əlaqəlidir".

Səhiyyə Nazirliyinin pediatriya sahəsi üzrə mütəxəssis-eksperti Erkin Rəhimov canlı yayımda sualları cavablandırarkən bildirib ki, bizdə övladına peyvənd vurdurmayan ailələr var O deyib ki, bununla bağlı bir çox şayiə səslənir, lakin valideynlər onlara çox inanmayıb rəsmi qaynaqlara etimad etməlidirlər.

Erkin Rəhimov diqqətə çatdırıb ki, vaksin istehsal edən ölkələr ÜST-ə müraciət edir: "Heç bir peyvənd Ümumdünya Səhiyyə Təşkilatının, idxal edilən ölkənin icazəsi olmadan insanlara vurula bilməz. Bununla əlaqəli komitə var, onlar həmin peyvəndləri təsdiqləyirlər. Hər ölkənin sanepidemstansiyası bu prosesə nəzarət edir. Ümumiyyətlə, bütün peyvəndlər vurulmalıdır. Bəşəriyyətin yaşamasında, uşaqların böyüməsində peyvəndlər mühüm rol oynayır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***






Coca-Cola

Şirkəti
Azərbaycan xalqını

18 Oktyabr – Müstəqilliyin Bərpası Günü

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər arzulayır

Günay Bank

Azərbaycan xalqını
18 Oktyabr - Müstəqilliyin Bərpası Günü
münasibətilə təbrik edir, xoşbəxt gələcək və firavan həyat arzulayır



# Tarif (qiymət) Şurasının növbəti iclası olub

Oktyabrın 16-da Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. Tarif Şurasından AZƏRTAC-a bildirilib ki, iclasda təbii qazın və elektrik enerjisi tariflərinə baxılıb, müvafiq qərarlar qəbul edilib.

Tarif (qiymət) Şurasının iclasında dünya bazarında təbii qazın bahalaşması, ölkəmizin enerji dayanıqlığı məqsədilə bu sahəyə investisiya qoyuluşunun təmin edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın aradan qaldırılması, eləcə də istehlak edilən təbii qazın istehsal və təchizat xərclərinin ödənilməsi kimi məsələlər müzakirə edilib.

Aparılan müzakirələrdə ölkəmizdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin əsas strateji hədəf kimi müəyyən edilməsi, enerji təhlükəsizliyinin təmin olunması, iqtisadiyyatın dinamik və intensiv inkişafına əlverişli şəraitin yaradılması, resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsi, istehlakçıların və istehsalçıların maraqlarının uzlaşdırılması, bu sahədə mərhələli şəkildə bazar münasibətlərinin formalaşdırılması və dövlət büdcəsindən ayrılan subsidiyaların aradan qaldırılması kimi amillər nəzərə alınmaqla müxtəlif tarif artımı variantları dəyərləndirilib. Təhlillər göstərir ki, təbii qazın hasilat və istehlakçıya çatdırılma xərci satış qiymətlərini üstələyir. Bu isə sahənin dövlət tərəfindən subsidiyalaşdırılmasına və dövlət büdcəsindən asılılığın artmasına səbəb olur.

İclasda tarif artımı variantları nəzərdən keçirilərkən aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsinin onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılmasının önəmi vurğulanıb.

Tarif (qiymət) Şurası üzvlərinin yekdil qərarı ilə təbii qazdan istifadə tarifləri aşağıdakı kimi təsdiq edilib:

| № | Göstəricilər | Mövcud tarif | Yeni tarif |
|---|---|---|---|
| | | Tariflər (manat/1000 m³, ƏDV ilə) | |
| 1. | "Azneft" İB-dən alınan | 75 | 90 |
| 2. | Topdansatış ("Azəriqaz" İB, "Naxçıvanqaz" İB) | 110 | 118 |
| 3. | Əhali | | |
| 3.1. | 1200 m³-dək (1200 m³ daxil olmaqla) | 100 | 120 |
| 3.2. | 1200 m³-2500 m³ | 200 | 200 |
| 3.3. | 2500 m³-dən çox | 250 | 250 |
| 4. | Qeyri-əhali | | |
| 4.1. | Sənaye və kənd təsərrüfatı | 200 | 220 |
| 4.2. | "Azəristiliktəchizat" ASC, məhəllə qazanxanaları və CNG tipli qazdoldurma məntəqələrinə | 130 | 165 |
| 4.3. | Digər | 250 | 250 |
| 4.4. | Metanol və karbamid zavodları | 200 | 200 |
| 5. | "Azərenerji" ASC | 130 | 165 |
| 6. | Təbii qazın emalı | 5,5 | 5,5 |
| 7. | Təbii qazın nəqli | 5,3 | 5,3 |
| 8. | Təbii qazın yeraltı qaz anbarlarına vurulması və götürülməsi | 8,25 | 8,25 |

İclasda həmçinin ölkəmizdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması istiqamətində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması məqsədilə ixrac olunan elektrik enerjisinin, enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərinə verilən elektrik enerjisinin istehsalı məqsədləri üçün istehsalçı tərəfindən təbii qazın müqavilə qiyməti ilə alınması məqsədəuyğun hesab olunub, bu barədə müvafiq qərar qəbul edilib.

Əhali istehlak qrupu üzrə sonuncu tarif dəyişikliyi 2021-ci ilin iyul ayında aparılıb və tarif tənzimlənməsi zamanı istehlak limitinin aşağı həddi üzrə (1200 kubmetr) tariflərə dəyişiklik olunmayıb.

Təbii qaz qiymətlərinin sürətli artımı dünyada, o cümlədən Avropada elektrik enerjisi qiymətlərinin kəskin qalxmasına təkan verib. 2021-ci ilin əvvəlindən etibarən sənaye və iaşə müəssisələrinin fəaliyyətini bərpa etməsi, qlobal iqtisadi aktivliyin gözləniləndən daha sürətli canlanması elektrik enerjisinə tələbatı da kəskin artırıb. Qiymətlərin artıma doğru istiqamətlənməsi nəticəsində bir çox ölkədə təbii qazdan və elektrik enerjisindən istifadə edən sahələr üçün tariflər dəyişib, istehlakçı kateqoriyaları üçün kommunal xərclər artıb.

Qeyd olunmalıdır ki, ölkədə əsas enerji istehsalçısı olan "Azərenerji" ASC elektrik enerjisinin 96 faizini təbii qaz hesabına istehsal edir. Azərbaycanın istilik elektrik stansiyalarında elektrik enerjisi istehsalı üçün istifadə olunan xammalın da 50 faizdən çox hissəsini təbii qaz təşkil edir. Bu baxımdan təbii qazın tarif dəyişikliyi elektrik enerjisinin qiymət artımını şərtləndirir.

Elektrik enerjisi üzrə mövcud tariflər 01.12.2016-cı il tarixindən tətbiq olunur. Sektorda aparılan infrastruktur işlərinin genişləndirilməsi, əhalinin və digər abonentlərin keyfiyyətli, fasiləsiz enerji ilə təmin edilməsi, habelə enerjinin istehsalı üçün istifadə edilən təbii qazın qiymətində dəyişikliklər nəticəsində yaranan əlavə xərcləri qarşılamaq üçün elektrik enerjisinin tarif tənzimlənməsi zərurəti yaranıb.

İclasda Tarif (qiymət) Şurası üzvlərinin yekdil qərarı ilə elektrik enerjisindən istifadə tarifləri aşağıdakı kimi təsdiq edilib:

| № | Göstəricilər | Mövcud tarif | Yeni tarif |
|---|---|---|---|
| | | Tariflər (qəpik/kVts, ƏDV ilə) | |
| 1. | "Azərenerji" ASC üzrə topdansatış tarifi | 5,7 | 6,6 |
| 2. | Alüminium sənayesi üzrə gecə-gündüz tarifi | 2,8-5,8 | 3,1-6,4 |
| 3. | Kimya sənayesi | 4,55 | Digər istehlakçı qrupuna aid edilir |
| 4. | Əhali | | |
| 4.1. | 300 kVts-dək | 7 | - |
| 4.2. | 300 kVts-dan çox | 11 | - |
| 4.3. | 200 kVts-dək (200 kVts daxil olmaqla) | - | 8 |
| 4.4. | 200 kVts-dan - 300 kVts-dək (300 kVts daxil olmaqla) | - | 9 |
| 4.5. | 300 kVts-dan çox | - | 13 |
| 5. | Qeyri-əhali | | |
| 5.1. | Ticarət və xidmət | 9 | 11 |
| 5.2. | Digər | 9 | 10 |

Ölkədə aparılan sosialyönümlü siyasət nəzərə alınmaqla və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi məqsədilə əhali üzrə diferensiallaşdırılmış tariflərin sayı 2-dən 3-ə artırılıb.

İclasda həmçinin kimya sənayesi qeyri-əhali istehlakçı qrupuna aid edilib, enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı sabit olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərinə elektrik enerjisinin müqavilə qiyməti ilə verilməsi məqsədəuyğun hesab olunub.

Tarif dəyişikliyi nəticəsində qaz və elektrik enerjisi istehsalı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığı tədricən azalacaq, büdcədə sərbəstləşən vəsait sosialyönümlü tədbirlərə yönəldiləcəkdir.

Qərarlar 2021-ci il noyabrın 1-dən qüvvəyə minir.

Tarif tənzimlənməsindən sui-istifadəyə yol verilməməsi üçün ciddi nəzarət tədbirləri həyata keçiriləcəkdir.

Qərarlarla Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

# Sosial islahatların növbəti mərhələsinə keçidi təmin edən yeni sərəncam 1 milyon 800 min vətəndaşın rifahının yaxşılaşmasına səbəb olacaq

Prezident İlham Əliyevin oktyabrın 16-da imzaladığı "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam əhalinin, xüsusilə həssas qruplardan olan vətəndaşların sosial rifahının qorunmasını təmin edir.

Sərəncam beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qruplarına mənfi fəsadlarının yumşaldılması və əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır. Beləliklə, aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin dəyişdirilməsi onların gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılır.

Bu məqsədlə Nazirlər Kabinetinə əməkhaqlarının, pensiya və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflər hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılır. Artıq həmin təkliflərin hazırlanmasına başlanılıb. Qısa müddət ərzində həmin təkliflər yekunlaşdırılaraq büdcə layihəsinə daxil edilməsi üçün Nazirlər Kabinetinə təqdim ediləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, sosial ödənişlərdə növbəti artımlar edilməsini nəzərdə tutan sərəncam vətəndaş rifahının təminatı və həssas qrupların sosial müdafiəsinin Prezident İlham Əliyevin siyasətində başlıca istiqamət olduğunu bir daha təzahür etdirir.

Bu sahədə islahatlar xüsusilə son illərdə inqilabi xarakter alıb. Sosial islahat paketləri nəticəsində müavinət və təqaüdlərin, pensiya və əməkhaqlarının ciddi şəkildə artımı təmin edilib, yeni sosial təminat növləri təsis olunub. 2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq nominal əməkhaqqı məbləği 39 faiz, əmək pensiyalarının orta məbləği 60 faiz, sosial müavinətlərin orta məbləği 2 dəfə, Prezidentin təqaüdlərinin orta məbləği 2,2 dəfə artıb. Son üç ildə ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5 faizdən 2020-ci ildə 38 faizə yüksəlib və bu, aşağı gəlirli vətəndaşların rifahının artırılması, layiqli əməkhaqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunluğunun təmin edilməsində ciddi irəliləyişdir.

Ümumilikdə son üç ildə ölkəmizdə fərman, sərəncam, qanun və s. ibarət olmaqla qəbul edilən 900-dən çox normativ hüquqi akt əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edən sənədlər olub və sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,4 milyonu ötüb.

"Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" yeni sərəncam ölkəmizdə sosial inkişafın davamlı xarakter almasını, sosial ödənişlərdə ciddi artımları təmin edən islahatların növbəti mərhələsinə keçidi təmin edir və ümumilikdə 1 milyon 800 min nəfərədək vətəndaşımızın rifahının daha da yaxşılaşmasına xidmət edəcək.

# Hava hücumundan müdafiə bölmələrinin döyüş atışları keçirilir

Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün döyüş hazırlığı planına əsasən ümumqoşun poliqonunda hava hücumundan müdafiə bölmələrinin döyüş atışları keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş atışlarının əsas məqsədi şəxsi heyətin zenit-raket komplekslərini idarəetmə bacarıqlarının təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsidir.

Atış çalışmalarında döyüş heyətləri "OSA" zenit-raket komplekslərinin start mövqeyinə çıxarılması və döyüş tətbiqinə hazırlanması üzrə normativləri yerinə yetirirlər. Komplekslərin döyüş heyətləri şərti düşmən hədəflərinin aşkarlanaraq praktiki atışlarla məhv edilməsi tapşırıqlarını peşəkarlıqla icra edirlər.



GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"

"Binagadi Oil Company"

"Karasu Operating Company"

"Shirvan Operating Company"

"Neftechala Operating Company"

18 Oktyabr - Müstəqilliyin Bərpası Günü

münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır

# Füzuli hava limanına beynəlxalq status və IATA kodu verilib

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidməti məlumat verir ki, Bakı - Füzuli hava limanına beynəlxalq status verilib, bu barədə müvafiq qərar Azərbaycanın Baş naziri Əli Əsədov tərəfindən imzalanıb.



Beləliklə, Füzuli hava limanı beynəlxalq uçuşlar üçün açıqdır və Qarabağın turizm potensialının inkişafına töhfə verəcək.

Beynəlxalq statusun verilməsi haqqında qərar Füzulidə yerləşən hava limanında bütün tikinti-quraşdırma işləri başa çatdıqdan sonra qəbul edilib.

Bundan əlavə, hava limanına Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) tərəfindən latın əlifbasının üç hərfindən ibarət FZL kodu verilib. Bu fərdi kod hava limanının yerləşdiyi şəhərin adı - Füzuli ilə bağlıdır.

Hava limanlarının IATA kodları sərnişin daşımaları üçün böyük əhəmiyyət kəsb edir, bu kodlar aviaşirkətlər, aviabilet satışı üzrə agentliklər, biletləri beynəlxalq təxsisetmə sistemləri və sairə tərəfindən istifadə olunur.

Daha əvvəl Füzuli hava limanına Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən UBBF kodunun verilməsi təsdiq edilib.

Füzuli hava limanı ən yüksək beynəlxalq standart və normalara uyğun tikilib, istənilən növ təyyarəni qəbul etmək imkanına malikdir. Füzuliyə ilk sınaq uçuşu sentyabrın 5-də həyata keçirilib və AZAL-ın ən böyük sərnişin təyyarəsi - Airbus A340-500 burada eniş icra edib.

Hava limanında ICAO-nun bütün tələblərinə əsasən uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün cihazlar üzrə enmə və naviqasiya sistemləri, işıq-texniki, əsas və ikinci dərəcəli radiolokasiya sistemi ilə tam təchiz edilmiş 3000 metr uzunluğunda və 60 metr enində uçuş-enmə zolağı istifadəyə verilmişdir.

Perronun sahəsi 60 min kvadratmetrdir və 8 hava gəmisinin dayanacağı üçün nəzərdə tutulmuşdur.

Avtomatlaşdırılmış sistemlərlə təchiz edilmiş hava hərəkətini idarəetmə qülləsinin inşası başa çatmışdır. Bu, Füzuli hava limanına ICAO və IATA standartlarına uyğun uçuşların başlanmasına imkan yaradacaq.

Eyni zamanda, dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi davam etdirilir.

Füzuli hava limanından əlavə, hazırda Azərbaycanda altı beynəlxalq hava limanı tikilərək fəaliyyət göstərir - Bakıda (GYD), Gəncədə (GNJ), Naxçıvanda (NAJ), Qəbələdə (GBB), Lənkəranda (LLK) və Zaqatalada (ZTU). Sadalanan hava limanlarından başqa, Azərbaycanda Yevlax hava limanı və Abşeronun Zabrat qəsəbəsində yerləşən "ASG Helicopter Services" (ZXT) helikopter aviaşirkətinin bazası aviasiya xidmətləri göstərir.

"Bakı Abadlıq Xidməti" MMC

Azərbaycan xalqını

18 Oktyabr - Müstəqilliyin Bərpası Günü

münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq, birlik, firavan həyat, ruzi-bərəkət və xoş gələcək arzulayır

# "Ömür" klinikasında şəhid anaları və xanımları üçün tibbi müayinə keçirilib

Oktyabrın 16-da "Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyi ilə Yeni Azərbaycan Partiyasının Sabunçu Rayon Təşkilatının birgə təşkilatçılığı ilə "Ömür" klinikasında Vətən müharibəsinin ildönümü münasibətilə şəhid anaları və xanımlarına tibbi dəstək göstərmək məqsədilə aksiya təşkil edilib.





AZƏRTAC xəbər verir ki, aksiya zamanı rentgen, ultrasəs, kompüter tomoqrafiyası müayinələri aparılıb, həkim qəbulu, laborator analizlər və digər tibbi xidmətlər göstərilib.

Aksiyada çıxış edən ictimai birliyin icraçı direktoru Zamin Zeynal qeyd edib ki, ötən ilin payızında başlanılan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində xalqımız çox böyük qələbə qazanıb, 30 ilə qədər erməni işğalı altında olan torpaqlarımız azad edilib. Bu böyük Zəfər qəhrəman Vətən oğullarının canı və qanı bahasına başa gəlib. Bu torpaq uğrunda canını fəda edən, həyatından keçən hər kəsin xatirəsi bizim üçün əzizdir və onların müqəddəs ruhu qarşısında borcluyuq. Şəhidlərin anaları və xanımları üçün bu aksiyanı keçirməklə onların əziz xatirəsi qarşısında öz vətəndaşlıq borcumuzu yerinə yetirməyə çalışırıq. Nə qədər ki bu Vətən var, nə qədər ki bu torpaq var, onlar bizim iftixar və qürur yerimiz olaraq qalacaqlar.

Klinikanın direktoru Tansu Məmmədzadə bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan zabit və əsgərlərinin şücaəti, xalqın birliyi hesabına möhtəşəm bir Zəfər qazanılıb. Bu yolda qurban gedən cəsur Vətən müdafiəçiləri həmişə qəlbimizdə yaşayacaq və tarixi torpaqlarımıza qovuşduğumuza görə hər kəs özünü onlara borclu hesab edir. Biz də öz ehtiramımızı onların analarına və həyat yoldaşlarının sağlamlığına göstərdiyimiz qayğı ilə ifadə edirik .

Kürdəmirdən gələn aksiya iştirakçısı Simuzər Bağıyeva deyib: "Oğlum Mərahim hərbçidir, leytenant kimi Vətən müharibəsində iştirak edib, Füzulidən Şuşaya qədər döyüş yolu keçib. İkinci oğlum Cəmil Həşimli gizir idi, haqq savaşının ilk günündən torpaqlarımızın müdafiəsinə qalxıb. Oktyabrın 6-da onların hərbi hissəsi Füzuli rayonunun Əbdürrəhmanlı kəndində iki postu azad edib, üçüncü post uğrunda döyüşdə Cəmil şəhidlik zirvəsinə yüksəlib. Üçüncü oğlum Cavid isə həmin vaxt hərbi xidmətdə olub. Əlbəttə, bir ana kimi Cavidin itkisi ağrılıdır, məni çox göynədir, lakin təsəllim odur ki, uğrunda qurban getdiyi Vətən torpağı bu gün azaddır. Şəhid ailəsi kimi hər cür qayğı ilə əhatə olunmuşuq. Heydər Əliyev Fondu və "YAŞAT" Fondu ailəmizə maddi yardımlar göstərib, uşaqlarım işlə təmin olunublar. Rayonda ev növbəsindəyik. Bugünkü tibbi aksiya bizim sağlamlığımıza göstərilən daha bir qayğı nümunəsidir".

Ötən il oktyabrın 1-də Kəlbəcərdə Murov uğrunda döyüşlərdə şəhid olan Milli Ordunun baş leytenantı Turan Əsgərlinin həyat yoldaşı Vüsalə deyib: "Turan bütün varlığı ilə torpağa, yurda bağlı bir zabit idi. O, Kəlbəcər uğrunda döyüşlərdə çox böyük qəhrəmanlıq göstərib. Ölümündən sonra o, "Vətən uğrunda", "Şücaətə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Bir neçə ay bundan əvvəl ailəmizə Ramanada inşa edilən yaşayış kompleksində ikiotaqlı təmirli ev verilib. Hazırda qızlarım 5 yaşlı Sevgi və 2 yaşlı Sunayla həmin mənzildə yaşayıram. Bizə Heydər Əliyev Fondu və "YAŞAT" Fondu tərəfindən yardım göstərilib. Şəhid ailələrinin sağlamlığına yönəlmiş belə aksiyaların keçirilməsi çox yaxşı haldır və onun davamlı olmasını arzu edərdik".

Tibbi müayinə aksiyasında 40-dan çox şəhid anası və xanımı iştirak edib.

# Bakıdakı Rus Kitabı Evində Xalq yazıçısının kitabları təqdim edilib

Oktyabrın 15-də Bakıdakı Rus Kitabı Evində məşhur qələm ustası, Xalq yazıçısı, dramaturq, "Şöhrət" ordeni kavaleri Natiq Rəsulzadənin oxucularla görüşü keçirilib. Görüşdə müəllifin həm yeni, həm də əvvəllər nəşr olunmuş əsərlərindən ibarət "Seçilmiş" və "Qapının arxasında dayanan" adlı iki hekayə və povestlər toplusunun təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, görüşün əvvəlində Natiq Rəsulzadə iştirakçılara müraciət edərək ədəbiyyatın gənc nəslin dünyagörüşünün genişləndirilməsində, düzgün düşüncənin formalaşmasında mühüm rol oynadığını söyləyib. Yazıçı ölkələrin gələcəyinin kitablardan və mütaliədən asılı olduğunu qeyd edib: "Bu yaxınlarda Bakı Beynəlxalq Kitab Sərgisində iştirak etdim. Müxtəlif nəsillərin nümayəndələrinin təqdim olunan ədəbiyyata necə böyük maraq göstərdiklərini, eyni anda bir neçə kitab aldıqlarını görmək xoş oldu. Gənclər çox oxumalıdır, bədii ədəbiyyat insanın qəlbinə və şüuruna gedən birbaşa yoldur".

Yazıçı kitablara daxil olan əsərlərin ortaq bir fikirlə - əxlaqi və mənəvi dəyərlərin əhəmiyyəti və sarsılmazlığı ilə əlaqəli olduğunu diqqətə çatdırıb. Hekayələrdə Xeyir və Şərin, bir anlığın və əbədi olanın, doğru olanla xeyirli olanın, əxlaqi və əxlaqsız əməllər arasındakı seçimlə bağlı əbədi problemlər qaldırılır.

Sonra çıxış edən Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikov görkəmli yazıçı Natiq Rəsulzadənin yaradıcılığının Azərbaycandan kənarda çox populyar olduğunu, onun əsərlərinin dünyanın hər yerində oxunduğunu deyib, xüsusən rusdilli auditoriyanın onu orijinal üslubu və hecasına görə sevdiyini qeyd edib. Səfir Natiq Rəsulzadə kimi şəxsiyyətlərin töhfəsi sayəsində Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin genişləndiyini vurğulayıb. M.Boçarnikov müəllifə daha böyük uğurlar və tükənməz ilham hissi arzulayıb.

Xalq yazıçısı Çingiz Abdullayev hələ tələbə ikən Natiq Rəsulzadənin yaradıcılığına aşiq olduğunu, onun "Gecədə atlı" əsərinin o dövrün ədəbi aləmində sensasiya doğurduğunu söyləyib. "Yazıçı vicdana, yaxşılığa doğru çağırmalı, insanları düzgün hərəkətlərə təşviq etməlidir. Natiq Rəsulzadənin əsərlərində əxlaq və mənəviyyat hər zaman tərənnüm edilir. Onun bir çox hekayələri mənə çox təsir edib. Müəllifin yaradıcılığı ədəbiyyatımızda xüsusi yer tutur. Onunla uzun illər dost olduğumla fəxr edirəm. Natiq Rəsulzadə rus dilinin böyük ustasıdır, əsərləri insana zövq verir. Gənclərin onun hər zaman aktual olan yaradıcılığına necə böyük maraq göstərdiyini görmək çox xoşdur", - deyə Ç.Abdullayev bildirib.

"Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin rəhbəri İrek Zinnurov Natiq Rəsulzadənin yaradıcılığının böyük pərəstişkarı olduğunu və müəlliflə görüşməyinə çox şad olduğunu gizlətməyib: "Biz Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin genişləndirilməsi və gücləndirilməsi üçün əlimizdən gələni edirik. Bu işdə iki ölkənin mədəniyyət və incəsənət xadimləri çox böyük töhfə verirlər. Bugünkü görüşün təşkilinə görə Rus Kitabı Evinin rəhbərliyinə də təşəkkür etmək istərdim, bu cür tədbirlər Rusiya və Azərbaycan xalqlarının yaxınlaşmasında böyük rol oynayır".

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Natiq Rəsulzadəyə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə minnətdarlığını bildirib. O, incə söz ustadının onu digər yazıçılardan fərqləndirən bənzərsiz üslub yaratdığını, müəllifin məhz xüsusi üslubu sayəsində oxucuların sevgisini qazandığını qeyd edib.

Təqdimatda çıxış edən Natiq Rəsulzadənin dostları və həmkarları onun ədəbiyyata verdiyi töhfələrdən danışıb, çoxşaxəli yaradıcılığının müxtəlif tərəflərinə toxunub, ona gələcək uğurlar arzulayıblar.

Sonra N.Rəsulzadənin "Seçilmiş" və "Qapının arxasında dayanan" kitabları iştirakçılara təqdim olunub.

# Xalq rəssamı Arif Hüseynovun "Ağdama ithaf" üçlüyünün təqdimatı olub

Oktyabrın 16-da işğaldan azad edilmiş Ağdam şəhərində Xalq rəssamı Arif Hüseynovun "Ağdama ithaf" üçlüyünün təqdimatı olub.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Rəssamlar İttifaqının üzvləri Elnurə və Aygün İsgəndərovaların kuratorluğu, Ağdam Rayon İcra Hakimiyyəti, Mədəniyyət Nazirliyi, Ağcabədi Regional Mədəniyyət İdarəsi, Ağdam rayon Heydər Əliyev Mərkəzi, Ağdam rayon Mədəniyyət Mərkəzi, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyi və Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə keçirilən mərasimdə Xalq rəssamı Arif Hüseynovun "Ağdam Cümə məscidində azan səsi", "Ağdam teatrının məhvi", "Şahbulaq qalası" adlı əsərləri nümayiş edilib.

Dram Teatrının qalıqlarının qarşısında keçirilən təqdimat mərasimində çıxış edən Xalq rəssamı Arif Hüseynov təqdim olunan əsərlər barədə məlumat verib. Bildirib ki, onun bu günlərdə tamamladığı "Ağdama ithaf" üçlüyü işğaldan azad olunmuş Qarabağa səfəri ilə bağlı təəssüratının yeni bədii ifadəsidir. "Ağdam teatrının məhvi", "Şahbulaq qalası" və "Ağdam Cümə məscidində azan səsi" adlanan triptixin başlıca ideyasını xeyir və şər qüvvələrin mübarizəsi, erməni xislətinin ifşası təşkil edir. Triptixin mərkəzi hissəsi Ağdam teatrının acı taleyinə həsr olunub. Teatr binasının üçtağlı fasadının qarşısından səhnəyə uzanan pillələrin ətrafında şər qüvvələrin "Leyli və Məcnun", "Don Kixot" və "Otello" tamaşalarındakı obrazlara həmləsinə təsirli bədii görkəm verilib.

Triptixin sağ hissəsində Pənahəli xan və döyüşçüləri, eləcə də onun inşa etdirdiyi Şahbulaq qalası təsvir olunub. Sol hissədəki əsərdə də digər iki əsərdə olduğu kimi obrazlı rəmzi ifadələrdən istifadə olunub. İşğaldan azad olunmuş dini məkandan ucalan azan səsinə hay verən rəmzi şəhid əlləri və yüksəlişi hər birimizə qürur bəxş edən məscid minarələri bir araya gətirilməklə Zəfərimizin davamlı olacağına böyük inam duyulur.

Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qalib Həsənov, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli və sərginin kuratorları Elnurə və Aygün İsgəndərova bacıları çıxışlarında Ağdam Dram Teatrının qarşısında belə bir tədbirin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirib, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonra tədbirin iştirakçıları rəsm əsərləri ilə tanış olublar.

# 18 OKTYABR
# MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜ



*Müstəqilliyin Bərpası Günü münasibətilə dost və qardaş Azərbaycan xalqını ürəkdən təbrik edir, sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq*

TEKFEN
TEKFEN İNŞAAT


## Vətən müharibəsində yaralanmış 2050-dək qaziyə əlillik və müvafiq sosial ödənişlər təyin edilib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işlərini davam etdirir.

Həmin qazilərdən artıq 2050-dək şəxsə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunub.

Əlillik təyinatından sonra onlara əlillik dərəcələrinə uyğun olaraq birdəfəlik sığorta ödənişi və elektron sistem üzərindən proaktiv qaydada aylıq sosial ödənişlərin (Prezidentin aylıq təqaüdünün və əlilliyə görə müavinət, yaxud əlilliyə görə əmək pensiyasının) təyinatları həyata keçirilib.

Agentliyin həkim-ekspertlərindən ibarət işçi qrupu və Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların, ilk növbədə, əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri aparılır.

Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) təqdim olunur və tibb müəssisələri tərəfindən göndəriş (forma 88) elektron sistemə daxil edilir. Yekun mərhələ kimi əlilliyin qiymətləndirilməsi aparılır.

## Respublikanın daxili işlər orqanları törədilmiş 41 cinayətin üstünü "isti izlər"lə açıblar

Daxili İşlər Nazirliyi (DİN) oktyabrın 15-də qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumatları açıqlayıb.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, respublikanın daxili işlər orqanları törədilmiş 41 cinayətin üstünü "isti izlər"lə açıblar. Əvvəlki dövrlərdən bağlı qalmış dörd cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 65 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 46 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş iki yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 30, qanunsuz saxlanılan silah-sursatla bağlı bir fakt müəyyənləşdirilib.

Cinayət törətməkdə şübhəli bilinən 57 nəfər saxlanılıb.

## Sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir









Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin məlumatına görə, oktyabr ayının 11-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Bəhrəmtəpə-Biləsuvar avtomagistral yolunun yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sərhədboyu ərazidə hərəkətdə olan ağ rəngli "Mersedes-Benz" markalı 10-UL-622 dövlət nömrə nişanlı avtomobil saxlanılmışdır.

Avtomobilin sərnişinin Astara rayon sakini 1992-ci il təvəllüdlü Nəsirov Qismət Tahir oğlu olması müəyyənləşdirilmiş, ona məxsus bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 5 kiloqram 400 qram narkotik vasitəyə bənzər maddə aşkar olunaraq götürülmüşdür.

Oktyabr ayının 13-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Məsçidməhəllə kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sahibsiz halda 1 ədəd bağlama aşkar edilmiş, baxış zamanı içərisində ümumi çəkisi 550 qram "tiryək" narkotik vasitəsinə bənzər maddə və 100 ədəd Tamol-x 225 psixotrop tərkibli dərman preparatları aşkar olunaraq götürülmüşdür.

Qeyd olunan faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı, professor

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elmira Süleymanova Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubovaya bacısı

**MƏHİN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi Gəncə Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, texniki elmlər üzrə fəlsəfə doktoru, dosent

**FƏXRƏDDİN HƏSƏN OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmaları, yaxınları və iş yoldaşlarına dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və professor-müəllim heyəti universitetin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru

**FƏXRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5610**
**Sifariş 1930**
**Qiyməti 40 qəpik**